

9

# TƏSVİRİ İNCƏSƏNƏT

## METODİK VƏSAİT









LAYİHƏ

KƏMALƏ CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT 9

Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün
Təsviri incəsənət fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**bn@bakineshr.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

LAYİHƏ

**MÜNDƏRİCAT**

Dərslik komplekti haqqında ... 3
Dərsliyin tədris vahidləri üzrə məzmunu ... 3
Dərsliyin təlim materialları ilə tanışlıq ... 4
Müəllim üçün metodik vəsait ... 6
Təsviri incəsənət dərslərində İKT-dən istifadə imkanları ... 7
Təlimin təşkilində istifadə olunan forma və üsullar ... 7
Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) haqqında ... 7
IX sinif üçün təsviri incəsənət fənni üzrə məzmun standartları ... 10
Dərslik komplektinin mövzular üzrə strukturu ... 12
Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli ... 13
Fənlərarası inteqrasiya cədvəli ... 14
İllik planlaşdırma nümunəsi cədvəli ... 16
Şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və üsulları ... 19
Təsviri incəsənət fənni üzrə formativ qiymətləndirmə zamanı istifadə olunan üsul və vasitələr ... 22

**MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ**

1. **XX ƏSRİN TƏSVİRİ SƏNƏTİ** ... 24
2. **AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÜASİRLİYİN ƏKSİ** ... 63
3. **ƏTRAFIMIZDA OLAN RƏSSAM YARADICILIĞI** ... 90
Teatr, fotoqrafiya, kino və televiziyaya aid terminlər lüğəti ... 124
Kiçik summativ qiymətləndirmə nümunələri ... 128
Mənbələr ... 134

LAYİHƏ

## DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Azərbaycan Respublikasında ümumi orta təhsilin Konsepsiyası (Milli Kurikulumu) əsasında hazırlanmış 9-cu siniflər üçün "TƏSVİRİ İNCƏSƏNƏT" fənnindən dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

## DƏRSLİYİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ MƏZMUNU

Dərslikdə Azərbaycanın və Avropanın XX əsr təsviri sənəti haqqında şagirdlər üçün yeni məlumat və anlayışlar verilmişdir. Mövzularda təsviri sənətin növ və janrları, memarlıq inkişaf tarixi baxımından şərh edilmişdir. Dərslikdə istifadə olunan elmi anlayış və zəngin reproduksiyalar əhatəli məzmunla müşayiət olunmuşdur.

Mövzular 3 tədris vahidində cəmləşdirilmişdir:

1-ci tədris vahidi "XX ƏSRİN TƏSVİRİ SƏNƏTİ" adlanır, 9 mövzu və 12 tədris saatından ibarətdir. XX əsrin əvvəllərindən etibarən Qərbi Avropa incəsənətində bir sıra meyillər meydana çıxır. Onların hamısı məzmun və qayələrinə görə formalist cərəyanlar idi. Bu cərəyanlardan konstruktivizm, ekspressionizm, kubizm, sürrealizm, abstraksionizm və digər cərəyanların nümayəndələri daha maraqlı və diqqətəlayiq əsərlər yaratmışlar. Müxtəlif cərəyanlar bir-birini əvəz edir, getdikcə onlar real həyatdan, canlı və cansız varlıqların təsvirindən tamamilə əl çəkir, mücərrəd forma və rəngə müraciət edirlər.

Əsərin məzmunu arxa plana keçir, yerini forma, üslub axtarışlarına və iş texnikasına verir. Beləliklə, məzmunu kənarda qoyub forma ilə maraqlanan rəssamlar yeni formalist sənət nümunələri yaradırlar.

Heç bir cərəyan bir-birindən yaranmamış, heç biri yenisinin formalaşmasına səbəb olmamış, heç biri təsviri sənəti bütövlükdə əhatə etməmişdir. Hər bir cərəyanın taleyi müxtəlif olsa da, onlar yalnız bir-birinə qarşılıqlı təsir göstərməklə XX əsr təsviri sənətinin tarixini yaratmışdır. Bu bölmədə mövzular müasir cərəyanların təsiri altında yaratmış rəssamların yaradıcılığını əks etdirir.

2-ci tədris vahidi – "AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÜASİRLİYİN ƏKSİ" – özündə 8 mövzu üzrə 8 tədris saatını cəmləşdirir. XX əsrin əvvəllərində Azərbaycan təsviri sənətində müasir cərəyanlar bir-birini əvəz edirdi. Onların meydana gəlməsi ilə rəssamlar tərəfindən bir çox təcrübələr sınaqdan keçirildi. Lakin rəssamlar öz əsərlərində hər zaman sadiq qaldıqları realist və milli üsluba üstünlük verərək vəhdət yaratmağa nail oldular. Azərbaycan təsviri sənətində mühüm yeniliklər baş verdi, əvvəllər olmayan yeni sənət növləri yarandı və az bir vaxtda sürətlə inkişaf etməyə başladı.



LAYİHƏ

Bölmədə Azərbaycanın müxtəlif üslubların təsiri altında yaşayıb-yaratmış dünya şöhrətli rəssamlarının həyat və yaradıcılığı yer almışdır.

3-cü tədris vahidi "ƏTRAFIMIZDA OLAN RƏSSAM YARADICILIĞI" adlanır, 7 mövzu və 7 tədris saatını əhatə edir. Hələ XIX əsrin axırlarında foto sənətinin inkişafı ilə əlaqədar rəssamlar öz əsas vəzifələrini artıq "nəyi" deyil, "necə" təsvir etməkdə görürdülər. Kino sənətinin fantaziyası hər birimizi maraqlandırır, səhnənin sehri valeh edir, animasiyalar şənləndirir, çəkdiyimiz fotoşəkillər həyatımızı maraqlı və rəngarəng edir. Lakin biz heç düşünmürük ki, onların yaranma tarixi təsviri sənətdən başlayıb və eynilə onun kimi – təsvir, görüntülü obrazlar dilində danışır.

## DƏRSLİYİN TƏLİM MATERİALLARI İLƏ TANIŞLIQ

Dərslikdə hər bir mövzu üzrə təlim materialları müəyyən metodoloji ardıcıllıqla təqdim olunmuşdur.

A – **İncəsənətə dair dialoq** – mövzuya maraq oyatmaq (motivasiya) üçün sual, şəkil, anlayışların çıxarılması.

B – **Xatırlayın** – əvvəlki siniflərdə qazanılmış biliklərə əsaslanan suallar şagirdləri aktiv fəaliyyətə cəlb edir.

C – **Tanış olun** – təsviri sənətin tarixi, onun cəmiyyətdə rolu, yeni anlayışlar haqqında məlumatlar verilmişdir. Dərs zamanı müstəqil tanış olmaq və müzakirə üçün verilən məzmun, mövzu ilə əlaqəli olan və şagirdlərin dünyagörüşünü genişləndirməyə xidmət edən daha maraqlı faktlar və hadisələr də öz əksini tapır.

D – **Təsviri sənət qalereyası** – şagirdin estetik münasibət bildirməsi üçün Azərbaycan və dünya rəssamlarının qrafika, rəngkarlıq, heykəltəraşlıq, memarlıq və dekorativ-tətbiqi sənət əsərlərinin nümayişi.

E – **Görkəmli sənətkarlar** – Azərbaycanın və dünyanın görkəmli təsviri sənət nümayəndələrinin həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası – cədvəl şəklində verilmişdir.

F – **Düşünün və izah edin** blokunda məzmunun mənimsənilməsinə xidmət göstərən və şagirdlərin təfəkkürünü fəallaşdırmaq üçün, düşünməyə və izah etməyə vadar edən zəruri sayılan müzakirə sualları, fikirlər verilmişdir.

G – **Bu maraqlıdır** və **Bilirsinizmi?** – mövzu ilə bağlı olan, dünyagörüşünü genişləndirməyə xidmət edən maraqlı faktlar və hadisələr öz əksini tapmışdır.

LAYİHƏ




**H** – **Sərbəst iş üçün tapşırıqlar** – mövzu ilə bağlı nəzəri və praktik tapşırıqlar; yeni qazanılmış bacarıqların tətbiqi, onların izahı və rəsm zamanı şagirdlərə yardım edən təsvir ardıcıllığının metodikası.

**Müəyyən edin**

1. Sağlamlıq imkanları məhdud olan şagirdlər üçün tapşırıqlar.

**Yaradıcı fəaliyyət**

2. Təlim nəticələri orta olan şagirdlər üçün tapşırıqlar.
3. Təlim nəticələri yüksək olan şagirdlər üçün verilmiş tapşırıqlar.

Şagirdlərin bütün tapşırıqları yerinə yetirmələri vacib deyil. Tapşırıqlar diferensial yanaşma əsasında, çətinlik dərəcələrinə görə şagirdlər arasında bölüşdürülə bilər.

**Sənətkar məsləhəti** – şagird üçün praktik və yaradıcı tapşırıqlarda əməl edilməsi vacib olan qaydalardan, yeni məlumatlardan ibarətdir.

**I** – **Özünüzü yoxlayın** və hər bölmənin sonunda verilmiş **Ümumiləşdirici tapşırıqlar** – özünüqiymətləndirmə və əldə olunmuş nəticələri ümumiləşdirmək üçün sual və tapşırıqlar.

Uşaqların incəsənətlə ünsiyyəti prosesində müəllimin rolu danılmazdır. Məhz müəllim dərsdə emosional-bədii atmosfer yaradır, məqsədlər qoyur, şagirdlərin həmin

LAYİHƏ

məqsədlərə çatması üçün bədii əsərlərlə canlı ünsiyyətini təşkil edir. Bu da şagirdlərin hərtərəfli inkişafına və estetik dünyagörüşünün formalaşmasına səbəb olur.

Hər mövzuda *yaradıcı tapşırıq* və *müzakirə üçün suallar* verilmişdir. Şagirdlərin bu tapşırıqları fərdi seçim əsasında yerinə yetirməsi daha məqsədəuyğundur.

Mövzuların metodoloji quruluşu müəllimə məzmundan müxtəlif variantlarda istifadə etmək üçün geniş imkan və şərait yaradır. Şagirdlərin məzmunla yalnız tanış olmaları kifayət deyil. Qazanılmış bilikləri yoxlamaq və dərinləşdirmək üçün nəzərdə tutulmuş müxtəlif təlim materialları, həmçinin illüstrasiyalar mövzunun dərk edilməsində əsas yardımçı elementlərdir.

Dərslikdəki zəngin illüstrasiyalar məktəblilərə incəsənət aləmi ilə ünsiyyət yaratmağa, “bədii” biliklərin sistemləşdirilməsinə və yaradıcı təfəkkürün formalaşmasına yardım göstərir.

Diferensial təlim prinsipləri nəzərə alınmaqla hazırlanmış dərsliyə bilik və bacarıqları möhkəmləndirmək üçün müxtəlif yaradıcı tapşırıqlar və praktik çalışmalar daxil edilmişdir. Yadda saxlanılması vacib olan məlumatların ayrıca izahı verilir.

Dərslikdə *xüsusi qayğıya ehtiyacı olan şagirdlər* üçün çalışmalar da nəzərdə tutulmuşdur. Mövzularda yaradıcı tapşırıqlar sadədən mürəkkəbə doğru yerləşdirilmişdir.

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Təsviri incəsənət fənni üzrə müəllim üçün metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- təsviri incəsənət fənn kurikulumu haqqında;
- fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik planlaşdırma nümunəsi;
- şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və formaları;
- fənlərarası inteqrasiya imkanları və digər fənlərin uyğun alt standartları ilə inteqrasiya cədvəli;
- inklüziv təlim prinsipləri haqqında ümumi məlumat;
- müəllim üçün metodik vəsaitdə istifadə olunan forma və üsullar;
- dərsin fəal təlim mərhələləri üzrə planlaşdırılma nümunələri;
- müəllimlər üçün mövzu üzrə əlavə məlumatlar;
- bölmə və vahidlər üzrə qiymətləndirmə vasitələri;
- müəllimin istifadə edə biləcəyi mənbələr.

Müəllim tövsiyə olunan materiallardan sinfin hazırlıq səviyyəsinə, tədris vaxtına, texniki təchizata və diferensial təlim prinsiplərinə uyğun lazım bildiyi kimi

LAYİHƏ

istifadə edə bilər. Vəsaitdə tədqiqat işlərində qrup və cütlərlə iş formalarına daha çox üstünlük verilir. Praktik dərslər zamanı isə şagirdlərdə fərdi bacarıqların formalaşdırılması məqsədilə, əsasən, fərdi və cütlərlə iş formasından istifadə edilməsi daha məqsədəuyğundur. Cütlərdə işləyən şagirdlər tədqiqat işini də birlikdə yerinə yetirirlər. Vəsait verilmiş tövsiyələr müəllimlərə təsviri sənətlə şagirdlərin ünsiyyət prosesini daha da səmərəli təşkil etməyə imkan yaradacaq.

## TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ İKT-dən İSTİFADƏ İMKANLARI

Müasir tədris sistemində informasiya texnologiyaları o qədər geniş tətbiq olunur ki, onların zəruriliyi şübhə doğurmur.

Artıq məktəbin gündəlik praktik həyatında interaktiv avadanlıq və elektron lövhələr tətbiq olunmaqdadır ki, bu da qısa müddət ərzində təlim-tədris prosesinin ayrılmaz hissəsinə çevrilmişdir.

## TƏLİMİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN FORMA VƏ ÜSULLAR

Təlim üsulları təlim prosesinin səmərəliliyini təmin edən faktorlardan biridir. Nəzərdə tutulan bacarıqlar təlim prosesi əsnasında, fəal təlim üsullarından istifadə etməklə formalaşır. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Vəsaitdə fəal təlimin iş formalarından istifadə etməklə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, işgüzar mühit və əməkdaşlıq şəraiti təmin olunur.

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) HAQQINDA

Kurikulumda təsbit olunmuş məqsəd və vəzifələri aşağıdakı məzmun xətləri vasitəsilə həyata keçirmək nəzərdə tutulur:

1. **Cəmiyyət və təsviri incəsənət**
2. **Təsviri və dekorativ yaradıcılıq**
3. **Estetik reaksiya**

**Cəmiyyət və təsviri incəsənət.** Bu məzmun xətti cəmiyyətdə təsviri incəsənətin rolu, cəmiyyət və təsviri incəsənət arasındakı əlaqələr, təsviri incəsənətin



LAYİHƏ

cəmiyyətdə baş verən tarixi hadisələrin mahiyyətinin dərk olunmasında müxtəlif nümunələrin əhəmiyyəti, milli və dünya təsviri incəsənət tarixinin görkəmli nümayəndələri, onların məşhur əsərləri haqqında məlumatları əhatə edir.

Cəmiyyətdə baş verən müxtəlif hadisələrin, xalqımızın, eləcə də dünya xalqlarının tarixi, mədəniyyəti, adət-ənənələri haqda məlumatların şagirdlərə mənimsədilməsində, təsviri sənət əsərlərinin informativ-kommunikativ imkanlarının dərk olunmasında bu fənn mühüm vasitə kimi çıxış edir.

Digər fənlər vasitəsilə mənimsədilən tarixi faktların, hadisələrin və şəxsiyyətlərin təsvirlərdə əks olunması şagirdlərdə dolğun və əyani təsəvvürlərin formalaşmasına əhəmiyyətli təsir göstərir.

Cəmiyyət və təsviri incəsənət əlaqələrini əks etdirən bu məzmun xətti üzrə müəyyən olunan bilik və bacarıqlar şagirdlərdə milli və beynəlmiləl dəyərlərə maraq və hörmət hissi aşılayır, insan cəmiyyətinin mədəni, siyasi və iqtisadi həyatı haqqında geniş və dolğun təsəvvürlər yaradır, müxtəlif dövrlərdə mövcud olan cəmiyyətlər, onların tərkib hissələri və özünəməxsus xüsusiyyətləri haqqında geniş və rəngarəng məlumatlar verir.

**Təsviri və dekorativ yaradıcılıq.** Təsvir yaradarkən şagird hadisələri, obyektləri və predmetləri dərk etdiyi tərzdə vizuallaşdıraraq onların mahiyyətinə, qarşılıqlı əlaqələrinə və fərdi xüsusiyyətlərinə öz münasibətini bildirir.

Təsviri yaradıcılıq prosesi şagirdlərin əqli və estetik inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, onların görmə yaddaşının, mühit və məkan duyumunun, obrazlı təsəvvür qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

Təsviri yaradıcılıq fəaliyyəti gerçəkliyi dərk etmək, obrazlı və məntiqi düşünmək, hiss və duyğuları vizual obrazlarda əks etdirmək bacarıqlarının təmin edilməsində başlıca vasitə hesab olunur. Bu prosesdə şagird keçmişə və gələcəyə obrazlı münasibətini bildirmək imkanları əldə edir.

İnsan mənəviyyatının mühüm tərkib hissəsi olan gözəlliyə tələbatın ödənilməsində təsvir yaradıcılığı mühüm əhəmiyyət kəsb edir. Yaradıcılıq prosesi şagirdlərdə daxili aləmlə xarici aləm arasında əlaqələrin yaranmasını, müxtəlif təsvir üsullarının mənimsənilməsini təmin edir, onların cəmiyyətə daha fəal inteqrasiyasına və özünütəsdiqinə geniş imkanlar yaradır.

Təsviri sənətin mühüm hissəsi olan, istər müstəvi səth üzərində (qrafika, rəngkarlıq), istərsə də üçölçülü plastik forma yaratmaq bacarığı (heykəltəraşlıq) şagirddə forma hissiyyatını təmin etməklə yanaşı, onun forma gözəlliyindən və kamilliyindən zövq almaq qabiliyyətini inkişaf etdirir.

Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma və dizayn bacarıqları aşılayır.

LAYİHƏ

Dekorativ yaradıcılıq insanın bəzəyə olan təbii tələbatını ödəyir və onun estetik aləmini zənginləşdirərək bədii zövqünün formalaşmasına, bu sahədə milli ənənələrin davam etdirilməsinə güclü təsir göstərir.

Dekorativ kompozisiya və dizayn (tərtibat) işlərinin yerinə yetirilməsi şagirdin bədii düşüncə, zövq, ənənə daşıyıcısına çevrilməsinə imkan yaradır.

Dekorativ yaradıcılıq prosesi şagirdlərin abstrakt və estetik düşüncə qabiliyyətini inkişaf etdirərək rənglərin, formaların, ölçülərin vəhdət prinsiplərini və qanunauyğunluqlarını mənimsəmələrini təmin edir.

**Estetik reaksiya.** Təsviri və dekorativ sənət növlərinə aid nümunələr təbiətin, ətraf aləmin insanın daxili aləminə, hislərinə, duyğularına təsirindən yaranır. Şəxsiyyətin mənəvi dünyasında gözəllik təsəvvürləri (meyarları) incəsənət vasitəsilə formalaşaraq termin, anlayışlar və bədii ifadə vasitələri (rəsm, heykəl, dekor, kompozisiya) şəklində əks olunur. Şüurlu, mükəmməl mənimsəmə estetik-emosional hislərin yaranmasında və formalaşmasında mühüm rol oynayır.

Azərbaycan və dünya incəsənəti tarixini təşkil edən əsərlər zaman keçdikcə mədəni, bədii, mənəvi dəyərlərin ifadəsi kimi meydana gəlmiş, milli və ümumbəşəri dəyərlərin maddiləşmiş daşıyıcılarına çevrilmişdir.

Təsviri incəsənət əsərləri ilə təmasda olmaq şagirdə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə, bir növ, mədəni mübadilə prosesi yaşadır. Təsviri və dekorativ incəsənət əsərlərinin şəxsiyyətə göstərdiyi təsir nəticəsində şagirdlərdə estetik-emosional meyar və normalar, mənəvi zənginləşmə və mədəni tolerantlıq formalaşır, hissiyyat diapazonu daha da genişlənir.

Təsviri və dekorativ sənət əsərlərinin qavranılması estetik zövqün, emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir. İncəsənət əsərlərinə, hadisələrinə və fenomenlərinə şagird tərəfindən verilən estetik reaksiya gözəlliyi duymaq və dəyərləndirmək qabiliyyətlərinin göstəricisi kimi çıxış edir.

Təsviri incəsənət fənninin mənimsənilməsi nəticəsində formalaşdırılan və inkişaf etdirilən bədii həssaslıq və emosional qavrama bacarıqları şagirdlərin mənəvi dünyasını zənginləşdirir, onlarda milli və ümumbəşəri dəyərlərə hörmət, humanizm, şəfqət hislərini gücləndirir.

## IX SİNİF ÜÇÜN TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**IX sinfin sonunda şagird:**

- müasir Azərbaycan və dünya təsviri sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir;

LAYİHƏ

- təsviri və dekorativ sənətin növ və janrlarını (karikatura, şarj, tematik) xüsusiyyətlərinə görə şərh edir;
- Azərbaycanın və dünyanın görkəmli təsviri sənət nümayəndələri (Tahir Salahov, Ömər Eldarov, Mircavad Mircavadov, Mikayıl Useynov, Fərhad Xəlilov, Arif Hüseynov, Sakit Məmmədov, Fazil Nəcəfov, Pol Sezann, Pablo Pikasso, Salvador Dali, Vasili Kandinski, Naum Qabo, Pol Kli, Joan Miro, Henri Spenser Mur, Alberto Cakometti) əsərləri haqqında təqdimat edir;
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri incəsənətin müxtəlif növlərində (kompüter qrafikası) real və abstrakt təsvir edir;
- memarlıq və inşaat tikililəri üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir;
- bədii sənət əsərlərinin milli-üslubi cəhətlərini estetik-emosional hislərə görə dəyərləndirir, təqdimatlar edir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

Şagird:

**1.1. Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.**

1.1.1. Müasir Azərbaycan və dünya incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.

**1.2. Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.2.1. Təsviri sənətin növ və janrlarını (karikatura, şarj, tematik) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

1.2.2. Dekorativ sənət növlərini və kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh edir.

**1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələrinə və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri sənət nümayəndələri (Tahir Salahov, Ömər Eldarov, Mircavad Mircavadov, Mikayıl Useynov, Fərhad Xəlilov, Arif Hüseynov, Sakit Məmmədov, Fazil Nəcəfov, Pol Sezann, Pablo Pikasso, Salvador Dali, Vasili Kandinski, Naum Qabo, Pol Kli, Joan Miro, Henri Spenser Mur, Alberto Cakometti) və onların əsərləri haqqında təqdimatlar edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

Şagird:

LAYİHƏ

**2.1. Həyati görüntüləri real və abstrakt təsvir edir.**

2.1.1. Həyati görüntüləri karikatura, şarj, tematik janrlarında, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edir.

2.1.2. Həyati görüntülərin real və abstrakt təsvirində müxtəlif vasitələrdən (tuş, kömür, sulu boya, qarışıq texnika və ya yağlı boya, plastilin, gil, yaxud ağac), yaxud qrafik redaktordan istifadə edir.

**2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.**

2.2.1. Memarlıq və inşaat tikililəri üzərində bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3. Estetik reaksiya**

Şagird:

**3.1. Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.**

3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir.

3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.

LAYİHƏ

## DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| TƏDRİS VAHİDLƏRİ | MÖVZULAR | |
|---|---|---|
| 1. XX ƏSRİN TƏSVİRİ SƏNƏTİ | 1–2. | Pol Sezann: kompozisiya, forma və rəng |
| | 3–4. | Pablo Pikasso: fərqli üslublarda işləyən rəssam |
| | 5. | Vasili Kandinski: abstrakt sənətdə axtarışlar |
| | 6. | Henri Spenser Mur: heykəltəraşlıqda təbiət fəlsəfəsi |
| | 7. | Pol Kli: rəngkarlıqda xətlərin hərəkəti |
| | 8. | Naum Qabo: heykəltəraşlıqda xətlərin həndəsəsi |
| | 9–10. | Salvador Dali: dahinin sürrealist kainatı |
| | 11. | Xuan Miro: realizmdən rəmzlərə |
| | 12. | Alberto Cakometti: heykəlin zərif silueti |
| 2. AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÜASİRLİYİN ƏKSİ | 13. | Mikayıl Useynov: memarlıqda konstruktivizmin prinsipləri |
| | 14. | Mircavad Mircavadov: miqyas, rəng və forma |
| | 15. | Ömər Eldarov: gözəllik və harmoniya |
| | 16. | Tahir Salahov: neft mövzusu |
| | 17. | Fazil Nəcəfov: insan təsvirində forma axtarışları |
| | 18. | Arif Hüseynov: Azərbaycan nağılı |
| | 19. | Fərhad Xəlilov: Abşeron motivləri |
| | 20. | Sakit Məmmədov: klassik və müasir üslubun sintezi |
| 3. ƏTRAFIMIZDA OLAN RƏSSAM YARADICILIĞI | 21. | Rəssam və teatr sənəti |
| | 22. | Rəsm əsərindən fotoşəklə qədər |
| | 23. | Fotoqrafiya və kompüter |
| | 24. | Rəssam və kino sənəti |
| | 25 | Animasiya sənəti |
| | 26. | Karikatura və şarj: şəkilli əhvalatlar |
| | 27. | Televiziya: rəssam və ekran |

LAYİHƏ

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ

Cədvəldə kurikulumda tələb olunan bacarıqlar əsasında tövsiyə edilən illik planlaşdırma nümunəsi verilmişdir. İş planı həftədə 1 saat olmaqla ildə 34 həftəyə və ya 34 saata – tədris ili ərzində 5 saat KSQ, 2 saat BSQ, 27 saat isə 27 mövzunun tədrisi üçün – nəzərdə tutulmuşdur.

| № | TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | Məşğələ növü | Cəmiyyət və təsviri incəsənət | | | | Təsviri və dekorativ yaradıcılıq | | | Estetik reaksiya | | Saat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1.1. | 1.2. | | 1.3. | 2.1. | | 2.2. | 3.1. | | |
| | | | | 1.1.1. | 1.2.1. | 1.2.2. | 1.3.1. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 3.1.1. | 3.1.2. | |
| 1–2. | 1. XX ƏSRİN TƏSVİRİ SƏNƏTİ | Pol Sezann: kompozisiya, forma və rəng | M.ü.r. | | | | + | | + | | + | | 2 |
| 3–4. | | Pablo Pikasso: fərqli üslublarda işləyən rəssam | M.ü.r. | + | | | + | | + | | | | 2 |
| 5. | | Vasili Kandinski: abstrakt sənətdə axtarışlar | M.ü.r. | + | | | + | | + | | | | 1 |
| 6. | | Henri Spenser Mur: heykəltəraşlıqda təbiət fəlsəfəsi | Yapma | + | | | + | | + | | | + | 1 |
| | | **Qiymətləndirmə (KSQ №1)** | | | | | | | | | | | 1 |
| 7. | | Pol Kli: rəngkarlıqda xətlərin hərəkəti | M.ü.r. | | | | + | | + | | | + | 1 |
| 8. | | Naum Qabo: heykəltəraşlıqda xətlərin həndəsəsi | Yapma | + | | | + | | + | | | + | 1 |
| 9–10. | | Salvador Dali: dahinin sürrealist kainatı | D-t.f. | + | | | + | | + | | + | | 2 |
| 11. | | Xuan Miro: realizmdən rəmzlərə | M.ü.r. | | | | + | | + | | + | | 1 |
| 12. | | Alberto Cakometti: heykəlin zərif silueti | Yapma | + | | | + | | + | | | + | 1 |
| **Qiymətləndirmə (KSQ №2)** | | | | | | | | | | | | | |
| **Qiymətləndirmə (BSQ №1)** | | | | | | | | | | | | | |
| 13. | 2. AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÜASİRLİYİN ƏKSİ | Mikayıl Useynov: memarlıqda konstruktivizmin prinsipləri | M.ü.r. | + | | | + | | | + | + | | 1 |
| 14. | | Mircavad Mircavadov: miqyas, rəng və forma | M.ü.r. | | | | + | | + | | + | | 1 |
| 15. | | Ömər Eldarov: gözəllik və harmoniya | Yapma | + | | | + | | + | | | + | 1 |
| 16. | | Tahir Salahov: neft mövzusu | M.ü.r. | | + | | + | | + | | | + | 1 |
| 17. | | Fazil Nəcəfov: insan təsvirində forma axtarışları | Yapma | + | | | + | | + | | | + | 1 |
| | | **Qiymətləndirmə (KSQ №3)** | | | | | | | | | | | 1 |
| 18. | | Arif Hüseynov: Azərbaycan nağılı | M.ü.r. | + | + | | + | | | | | + | 1 |
| 19. | | Fərhad Xəlilov: Abşeron motivləri | N.r. | | + | | + | | + | | | + | 1 |
| 20. | | Sakit Məmmədov: klassik və müasir üslubun sintezi | M.ü.r. | | + | | + | | + | | | + | 1 |
| 21. | 3. ƏTRAFIMIZDA OLAN RƏSSAM | Rəssam və teatr sənəti | D-t.f. | + | | | | | | | + | | 1 |
| 22. | | Rəsm əsərindən fotoşəklə qədər | T.s.h.s. | | + | | | | | | + | + | 1 |
| | | **Qiymətləndirmə (KSQ №4)** | | | | | | | | | | | 1 |
| 23. | | Fotoqrafiya və kompüter | M.ü.r. | | | + | | + | + | | | | 1 |
| 24. | | Rəssam və kino sənəti | M.ü.r. | + | | | | | | | + | + | 1 |
| 25. | | Animasiya sənəti | D-t.f. | | | + | | + | | | + | | 1 |
| 26. | | Karikatura və şarj: şəkilli əhvalatlar | M.ü.r. | | + | | | + | | | | + | 1 |
| 27. | | Televiziya: rəssam və ekran | T.s.h.s. | + | | | | | | | | + | 1 |
| **Qiymətləndirmə (KSQ №5)** | | | | | | | | | | | | | 1 |
| **Qiymətləndirmə (BSQ №2)** | | | | | | | | | | | | | 1 |

Təsviri incəsənət dərsləri məşğələ növləri vasitəsilə təqdim edilir: ***mövzu üzrə rəsm, naturadan rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.***

**M.ü.r.** – mövzu üzrə rəsm; **T.s.h.s.** – təsviri sənət haqqında söhbət; **D-t.f.** – dekorativ-tətbiqi fəaliyyət; **N.r.** – naturadan rəsm.

*Müəllim mövzulara şəxsi münasibətindən asılı olaraq tövsiyə edilən illik planlaşdırma nümunəsinə müəyyən dəyişikliklər edə bilər.*

LAYİHƏ

## FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| TƏDRİS VAHİDİ | MÖVZULAR | | FƏNNİN ADI VƏ ALT-STANDARTIN NÖMRƏSİ |
|---|---|---|---|
| 1. XX ƏSRİN TƏSVİRİ SƏNƏTİ | 1–2. | Pol Sezann: kompozisiya, forma və rəng | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 3–4 . | Pablo Pikasso: fərqli üslublarda işləyən rəssam | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 5. | Vasili Kandinski: abstrakt sənətdə axtarışlar | Ü-t. 5.1.1.; Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 6. | Henri Spenser Mur: heykəltəraşlıqda təbiət fəlsəfəsi | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1.; 5.1.2.; Ə. 2.2.1. |
| | 7. | Pol Kli: rəngkarlıqda xətlərin hərəkəti | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 8. | Naum Qabo: heykəltəraşlıqda xətlərin həndəsəsi | Ü-t. 5.1.1.; Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 9–10. | Salvador Dali: dahinin sürrealist kainatı | Ə. 2.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2. |
| | 11. | Xuan Miro: realizmdən rəmzlərə | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 12. | Alberto Cakometti: heykəlin zərif silueti | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| 2. AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÜASİRLİYİN ƏKSİ | 13. | Mikayıl Useynov: memarlıqda konstruktivizmin prinsipləri | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 14. | Mircavad Mircavadov: miqyas, rəng və forma | C. 3.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 15. | Ömər Eldarov: gözəllik və harmoniya | Az-t. 5.1.2.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Ə. 2.2.1. |
| | 16. | Tahir Salahov: neft mövzusu | 5.1.2; Ə. 2.2.1.Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| | 17. | Fazil Nəcəfov: insan təsvirində forma axtarışları | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 18. | Arif Hüseynov: Azərbaycan nağılı | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 19. | Fərhad Xəlilov: Abşeron motivləri | İnf. 3.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 20. | Sakit Məmmədov: klassik və müasir üslubun sintezi | Ə. 2.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; 5.1.1.; C. 3.2.1.; 5.1.2. |
| **3. ƏTRAFIMIZDA OLAN RƏSSAM YARADICILIĞI** | 21. | Rəssam və teatr sənəti | Ə. 2.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; 5.1.1.; C. 3.2.1.; 5.1.2. |
| | 22. | Rəsm əsərindən fotoşəklə qədər | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 23. | Fotoqrafiya və kompüter | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; 5.1.1.; C. 3.2.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 24. | Rəssam və kino sənəti | İnf. 3.2.1.; 3.2.3.; 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2; Ə. 2.2.1.; Az-d. 1.1.2.; 1.2.4.; Tex. 1.3.1.; 1.3.2. |
| | 25. | Animasiya sənəti | Ə. 2.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; 5.1.2. |
| | 26. | Karikatura və şarj: şəkilli əhvalatlar | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; 5.1.1.; C. 3.2.1.; 5.1.2.; Ə. 2.2.1. |
| | 27. | Televiziya: rəssam və ekran | İnf. 3.2.1.; 3.2.3.; 5.1.1.; Az-t. 1.3.1; 5.1.2; Ə. 2.2.1.; Az-d. 1.1.2.; 1.2.4.; Tex. 1.3.1.; 1.3.2. |

*Az.-d. – Azərbaycan dili; Az.t. – Azərbaycan tarixi; İnf. – İnformatika; Ə. – Ədəbiyyat; Ü-t. – Ümumi tarix; C. – Coğrafiya; Tex. – Texnologiya.*

LAYİHƏ

# İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ CƏDVƏLİ

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsulları | Vasitələri |
| 1— 6 | 2 | 1. XX ƏSRİN TƏSVİRİ SƏNƏTİ | 1-2. Pol Sezann: kompozisiya, forma və rəng | mövzu üzrə rəsm | 1.3.1.; 2.1.2.; 3.1.1. | Təqdimatetmə, rubriklər (sxem), rəsmetmə | Pol Sezann və onun əsərlərinə aid olan reproduksiyalar, tapşırıq cədvəlləri |
| | 2 | | 3-4. Pablo Pikasso: fərqli üslublarda işləyən rəssam | mövzu üzrə rəsm | 1.1.1.; 1.3.1.; 2.1.2. | Təqdimatetmə, rubriklər (sxem), rəsmetmə | Pablo Pikasso və onun əsərlərinə aid nümunələr, meyar cədvəli |
| | 1 | | 5. Vasili Kandinski: abstrakt sənətdə axtarışlar | mövzu üzrə rəsm | 1.1.1.; 1.3.1.; 2.1.2. | Təqdimatetmə, rubriklər (sxem), rəsmetmə, tapşırıqvermə | Vasili Kandinski və onun əsərlərinə aid nümunələr, meyar cədvəli |
| | 1 | | 6. Henri Spenser Mur: heykəltəraşlıqda təbiət fəlsəfəsi | yapma | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. | Təqdimatetmə, rubriklər (sxem), yapma, tapşırıqvermə | Henri Mur və onun əsərlərinə aid nümunələr, meyar cədvəli |
| | | | **7-cı dərs. Qiymətləndirmə (KSQ №1)** | | | | |
| 8—13 | 1 | | 8. Pol Kli: rəngkarlıqda xətlərin hərəkəti | mövzu üzrə rəsm | 1.3.1.; 2.1.2.; 3.1.2. | Şifahi sual-cavab, təqdimat, əsərlərinin təhlili, rubriklər | Pol Klinin əsərlərinə dair reproduksiyalar, meyarlar |
| | 1 | | 9. Naum Qabo: heykəltəraşlıqda xətlərin həndəsəsi | yapma | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. | Yapma, müşahidəetmə, tapşırıqvermə; rubrik | Naum Qabo və onun heykəltəraşlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli |
| | 2 | | 10-11. Salvador Dali: dahinin sürrealist kainatı | dekorativ-tətbiqi fəaliyyət | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1. | Təqdimatetmə, tapşırıqvermə; rəsmetmə, rubriklər (sxem) | Salvador Dali və onun əsərlərinə dair nümunələr, (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | 12. Xuan Miro: realizmdən rəmzlərə | mövzu üzrə rəsm | 1.3.1.; 2.1.2.; 3.1.1. | Təqdimatetmə, tapşırıqvermə; rəsmetmə, rubriklər | Xuan Miro və onun əsərlərinə dair nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | 13. Alberto Cakometti: heykəlin zərif silueti | yapma | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. | Yapma, müşahidəetmə, tapşırıqvermə; rubrik | Alberto Cakomettinin əsərlərinə dair nümunələr, meyarlar |
| **14-cü dərs. Qiymətləndirmə (KSQ №2)** | | | | | | | |
| **15-ci dərs. Qiymətləndirmə (BSQ №1)** | | | | | | | |



LAYİHƏ

## İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ CƏDVƏLİ

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsulları | Vasitələri |
| 16—20 | 1 | 2. AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÜASİRLİYİN ƏKSİ | 16. Mikayıl Useynov: memarlıqda konstruktivizmin prinsipləri | mövzu üzrə rəsm | 1.1.1.; 1.3.1.; 2.2.1.; 3.1.1. | Müşahidəetmə, tapşırıqvermə; təqdimatetmə, rubrik (sxem) | Mövzuya aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | 17. Mircavad Mircavadov: miqyas, rəng və forma | mövzu üzrə rəsm | 1.3.1.; 2.1.2.; 3.1.1. | Təsviretmə, müşahidəetmə, tapşırıqvermə, şərhetmə; təqdimatetmə, rubrik | M.Mircavadovun əsərlərinə aid nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | 1 | | 18. Ömər Eldarov: gözəllik və harmoniya | yapma | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. | Yapma, tapşırıqvermə, təqdimatetmə, rubriklər | Ö.Eldarovun sənətinə dair əsərlərin reproduksiyası, meyarlar |
| | 1 | | 19. Tahir Salahov: neft mövzusu | mövzu üzrə rəsm | 1.2.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. | Təsviretmə, müşahidəetmə, tapşırıqvermə; rubrik | Mövzuya aid nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | 1 | | 20. Fazil Nəcəfov: insan təsvirində forma axtarışları | yapma | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə, təsviretmə, təqdimat | F.Nəcəfovun sənətinə dair nümnələr, meyarlar |
| | | | **21-ci dərs. Qiymətləndirmə (KSQ №3)** | | | | |
| 22—24 | 1 | | 22. Arif Hüseynov: Azərbaycan nağılı | mövzu üzrə rəsm | 1.1.1. ; 1.2.1.; 1.3.1.; 3.1.2. | Müşahidə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | Rəssam əsərlərinə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | 23. Fərhad Xəlilov: Abşeron motivləri | naturadan rəsm | 1.2.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. | Müşahidəetmə, sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili. | Rəssam əsərlərinə dair nümunələr, meyar cədvəli, bədii əsərlərə esselərin yazılması |
| | 1 | | 24. Sakit Məmmədov: klassik və müasir üslubun sintezi | mövzu üzrə rəsm | 1.2.1.; 1.3.1. ; 2.1.2.; 3.1.2. | Təsviretmə, müşahidəetmə, tapşırıqvermə, şərhetmə; təqdimatetmə, rubrik | S.Məmmədovun yaradıcılığına aid nümunələr (slayd və ya foto), meyar cədvəli |

LAYİHƏ

## İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ CƏDVƏLİ

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsulları | Vasitələri |
| 25—26 | 1 | 3. ƏTRAFIMIZDA OLAN RƏSSAM YARADICILIĞI | 25. Rəssam və teatr sənəti | dekorativ-tətbiqi fəaliyyət | 1.1.1.; 3.1.1. | Müşahidəetmə, təqdimatetmə, rubriklər | Teatr rəssamının işlərinə dair nümunələr, meyar cədvəli |
| | 1 | | 26. Rəsm əsərindən fotoşəklə qədər | təsviri sənət haqqında söhbət | 1.2.1.; 3.1.1.; 3.1.2. | Rəngkarlıq və fotoqrafiyalara aid sənət əsərlərinin təhlili, təsviretmə, təqdimat | Rəngkarlıq və fotoşəkil nümunələri, meyar cədvəli |
| | | | 27-ci dərs. Qiymətləndirmə (KSQ №4) | | | | |
| 28—32 | 1 | | 28. Fotoqrafiya və kompüter | mövzu üzrə rəsm | 1.2.2.; 2.1.1.; 2.1.2. | Əsərlərin təhlili, tapşırıqvermə, təsviretmə, təqdimat , rubrik | Kompüter qrafikasına aid təsvirlər, fotoqrafiyalar, meyar cədvəli |
| | 1 | | 29. Rəssam və kino sənəti | mövzu üzrə rəsm | 1.1.1.; 3.1.1.; 3.1.2. | Təsviretmə, müşahidəetmə, tapşırıqvermə, şərhetmə; təqdimatetmə, rubrik | Müasir Azərbaycan kino sənətinə dair nümunələr, meyar cədvəli |
| | 1 | | 30. Animasiya sənəti | dekorativ-tətbiqi fəaliyyət | 1.2.2.; 2.1.1.; 3.1.1. | Animasiyaya aid əsərlərin təhlili, müqayisəsi, təsviretmə, təqdimat | Animasiyaya aid qədim və müasir nümunələrin nümayişi, meyar cədvəli |
| | 1 | | 31. Karikatura və şarj: şəkilli əhvalatlar | mövzu üzrə rəsm | 1.2.1.; 2.1.1.; 3.1.2. | Mövzuya dair əsərlərin təhlili, izahı, tapşırıqvermə, təsviretmə, təqdimat , rubriklər | Karikatura və şarj janrına aid nümunələr, meyar cədvəli |
| | 1 | | 32. Televiziya: rəssam və ekran | təsviri sənət haqqında söhbət | 1.1.1.; 3.1.2. | Təqdimatetmə, rubriklər | Televiziyada rəssamın fəaliyyətinə dair nümunələrin nümayişi, meyarlar |
| 33-cü dərs. Qiymətləndirmə (KSQ №5) | | | | | | | |
| 34-cü dərs. Qiymətləndirmə (BSQ №2) | | | | | | | |

LAYİHƏ

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏ PRİNSİPLƏRİ VƏ ÜSULLARI

Azərbaycan Respublikası təhsil nazirinin 28 dekabr 2018-ci il tarixli 8/2 qərarı əsasında Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası təsdiq olunmuşdur.

Qiymətləndirmə təlim prosesinin ən mühüm mərhələlərindən biridir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik, şəffaf olmalıdır.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik*, *formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır.

Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

Diaqnostik qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

**Formativ qiymətləndirmə** təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir.

Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

***Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr***

| **Metodlar** | **Vasitələr** |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |

LAYİHƏ

| | |
|---|---|
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə və "Məktəbli kitabçası"nda müvafiq yazılı qeydlər aparılır.

Müəllim dərs ilinin yarımillərinin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

**Summativ qiymətləndirmə** hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır.

Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

• hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;

• hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur.

Kiçik summativ qiymətləndirmə II-XI siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.

Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.

Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

LAYİHƏ

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

Təhsilalanın summativ qiymətləndirmədə topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir (Qaydalar 4.19-ci bənd):

| Bal aralığı | Qiymət |
|---|---|
| [0-30] | 2 (qeyri-kafi) |
| (30-60] | 3 (kafi) |
| (60-80] | 4 (yaxşı) |
| [80-100] | 5 (əla) |

**Yarımillik və illik qiymətlərin hesablanması**

Təhsilalanların kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır. Yarımillik balının 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Yarımillik balların miqdarı və onların uyğunlaşdırıldığı qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n}$$

Y- təhsilalanın yarımillik üzrə balını;

$ksq_1, ksq_2, .., ksq_n$ – hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarı;

$n$ – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

Böyük summativ qiymətləndirmə aparılan fənlər üzrə yarımillik bal kiçik və böyük summativ qiymətləndirmələrdə toplanılan ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

BSQ – hər yarımillik üzrə aparılan böyük summativ qiymətləndirmədə toplanmış balların miqdarı.

Təhsilalanın illik balları onun yarımillik ballarının ədədi ortası kimi hesablanır və illik balın 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

İllik qiymətləndirmənin nəticələrinə əsasən təhsilalanların sinifdən-sinfə keçirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ FORMATİV QİYMƏTLƏNDİRMƏ ZAMANI İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR

<table>
<tr><th>FƏALİY-YƏT NÖVLƏRİ</th><th>ÜSULLAR</th><th>VASİTƏLƏR</th></tr>
<tr><td>Müşahidə-etmə</td><td>Müşahidə (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir).</td><td>Müşahidə vərəqi (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl): natura, təbiət, interyer, meyvə, tərəvəz, məişət əşyaları və s.<br>Təsviri incəsənət əsərləri (rəsm və heykəltəraşlıq nümunələri).<br>Dekorativ-tətbiqi sənət nümunələri (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər).</td></tr>
<tr><td rowspan="8">Təsvirlərin təhlili</td><td>Tapşırıqvermə</td><td>Təsviri incəsənət əsərləri, rəsm işləri</td></tr>
<tr><td colspan="2">Nəzəri tapşırıqlar</td></tr>
<tr><td>Sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili.</td><td>Təsviri (reproduksiya, fotoşəkil və s.) və dekorativ sənət əsərlərinə (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər) münasibət.</td></tr>
<tr><td colspan="2">Praktik tapşırıqlar:</td></tr>
<tr><td>Məzmun</td><td>İşləmə texnikası</td></tr>
<tr><td>səth üzərində</td><td>rəsm, rəngkarlıq, aplikasiya</td></tr>
<tr><td>həcmli (model)</td><td>kağız, karton, plastilin, gil, maket</td></tr>
<tr><td>• Rəsm çəkmək (naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ fəaliyyət və s.).<br>• Dekorativ-tətbiqi fəaliyyət (texnikalar: aplikasiya, panno, kollaj, dekupaj, vitraj, mozaika, batika, tikmə, hörmə, keramik məhsullar və s.).<br>• Yapma (relyefli və ya həcmli).<br>• Kompüter qrafikası.</td><td>• Karandaş, flomaster, diyircəkli və rəngli qələm, tuş, kömür, qrafit, pastel təbaşir, rəngli kağız, karton, qutu, parça, boya (quaş, akvarel, akril, yağlı boya və s.) və s.<br>• Təbiət materialları (düyü, buğda, şam qozası, ağac, budaq, toxum, yarpaq və s.).<br>• Plastilin, gil, gips, duzlu xəmir.<br>• Qrafik redaktor (“Paint” və s.).</td></tr>
</table>



LAYİHƏ

| | | |
|---|---|---|
| **Sorğu** | Şifahi sual-cavab | Təsviri incəsənət əsərləri, ətraf aləm, qayda və anlayışlar üzrə sual-cavablar, təhlil, müzakirə üzrə ***qeydiyyat vərəqi*** |
| **Təqdimat** | Şifahi, yazılı, rəmzi, təsviri, kompüterdə təqdimatlar | Şifahi cavablar;<br>bədii əsərlərə esselərin yazılması;<br>rəmzi təsvirlər (işarələr);<br>bədii yaradıcılıq və əl işləri, slayd vasitəsilə təqdimat;<br>layihələr |
| **Qiymətləndirmə** | Qrup işlərinin qiymətləndirilməsi, özünüqiymətləndirmə, rubrik üzrə qiymətləndirmə, qrafik, sxem, şkala, test və s. | Qiymətləndirmə vərəqləri, qiymətləndirmə sxemləri, meyarlar cədvəli, şkalalar, sxemlər, test tapşırıqları və s. |

Müvafiq qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin arxasında verilmişdir. Müəllim üçün metodik vəsaitdə bir sıra qiymətləndirmə üsullarından istifadə olunması tövsiyə edilir. Müəllim bu üsul və formalardan öz məqsədinə uyğun şəkildə istifadə edib yenilərini yarada bilər.

LAYİHƏ

# 1. XX ƏSRİN TƏSVİRİ SƏNƏTİ




1-2. Pol Sezann: kompozisiya, forma və rəng
3-4. Pablo Pikasso: fərqli üslublarda işləyən rəssam
5. Vasili Kandinski: abstrakt sənətdə axtarışlar
6. Henri Spenser Mur: heykəltəraşlıqda təbiət fəlsəfəsi
7. Pol Kli: rəngkarlıqda xətlərin hərəkəti
8. Naum Qabo: heykəltəraşlıqda xətlərin həndəsəsi
9-10. Salvador Dali: dahinin sürrealist kainatı
11. Xuan Miro: realizmdən rəmzlərə
12. Alberto Cakometti: heykəlin zərif silueti



LAYİHƏ

# 1-2 POL SEZANN: KOMPOZİSİYA, FORMA və RƏNG

| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
|---|---|---|
| Alt standart | | 1.3.1.; 2.1.2.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Pol Sezann və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Natürmortun real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan istifadə edir.<br>• Sezanın əsərlərində postimpressionizmin cəhətlərinin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | reproduksiyalar və ya fotolar, slaydlar, rubriklər, tapşırıq cədvəlləri |
| | şagird üçün | dərslik, albom, sadə karandaş, pastel təbaşirlər, quaş, akvarel |










**(A)** Şagirdlər dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sualı müzakirə edirlər. Postimpressionist rəssamların yaradıcılığında hansı fərqli xüsusiyyətlərin olduğu və hansı məşhur rəssamlar haqqında bildikləri müzakirə edilir. Bunun üçün müəllimə şagirdlərə 8-ci sinifdə tanış olduqları məlumatları xatırlatmaq tövsiyə edilir:

LAYİHƏ

– Postimrpessionizm – təsviri sənətdə bədii cərəyandır. Bu cərəyanın rəssamları həyatın məğzini təsvir etməyə səy göstərməklə yanaşı, dekorativ üslubiyyata da müraciət edirdilər. Postimpressionizm cərəyanının başlıca nümayəndələrindən biri – Vinsent Van Qoq olmuşdur. Bu cərəyanın ən böyük sənətkarlarından olan Pol Qogen də öz təkrarsız bədii dili ilə seçilirdi.



*Vinsent Van Qoq. “Kəsilmiş dörd günəbaxan”. 1887*



*Pol Qogen. “Təzə nə var?”. 1892*

Venn diaqramı vasitəsilə hər iki rəssamın əsərlərinin nümunəsində cərəyanın fərqli xüsusiyyətləri (kolorit, şərti üslub, işləmə texnikası, mövzunun məzmunu və s.) qeyd edilir.




**B** Dərsliyin **Xatırlayın** blokunda verilmiş suala dair fərziyyələr dinlənilir.

***Tədqiqat sualları:*** *Pol Sezannın yaradıcılığının xarakterik xüsusiyyətləri nədədir? Rəssam əsərinin surətini çəkmək üçün hansı mərhələlərə əməl etmək vacibdir?*

**C** Şagirdlərin diqqəti dərslikdə mövzuya dair verilmiş **Tanış olun** blokundakı məlumata yönəldilir, mövzu ilə bağlı suallar verilir. Pol Sezannın yaradıcılığının mərhələləri təhlil olunur. Dərs zamanı şagirdlər verilmiş məzmunla və yeni anlayışlarla müstəqil tanış olurlar.

LAYİHƏ

**D Təsviri sənət qalereyası** blokunda şagirdlər Pol Sezannın əsərlərinə estetik münasibət bildirirlər. Sezann mənzərələr, portretlər, müxtəlif həyat səhnələri çəkirdi, lakin onun yaradıcılıq prinsipləri natürmortlarda daha dolğun əks olunurdu. Şagirdlər Pol Sezann yaradıcılığının mərhələləri ilə tanış olurlar.

Sezannın yaratdığı portretlərin əksəriyyətinin bir ümumi xüsusiyyəti var: rəssam orijinal ilə oxşarlığın qayğısına çox az qalır, lakin portretini çəkdiyi şəxslər onun üçün həmişə əhəmiyyətli idi. Sezann bütün ömrü boyu qoruyub saxladığı insan fiquruna marağını qrup portretlərində də ifadə edirdi. Rəssam yaradıcılığının sonrakı dövründə adam fiqurlarını mənzərəyə daxil etməklə iki nəhəng rəngkarlıq janrını birləşdirmək ideyasına meyil edir.

Sezannın ilk varisləri natürmort janrında əşyaların formasının sadələşdirildiyi, sonra isə yenidən əsərdə birləşdirilmək üçün hissələrə bölünməsini mühüm sayan kubizm cərəyanının rəssamları oldu.

Pol Sezann təkcə dahi kompozisiya deyil, həm də böyük kolorist ustası idi. Klassisizm və romantizm ənənələrini əsas götürən Sezann onları tam yekdilliyə çatdırmaqla bütöv bir dövrü başa vurdu. Sonrakı nəsillər şəksiz etiraf etdilər ki, Sezann yeni sənət aləminə yol açmışdır.

**E Görkəmli sənətkarlar** blokunda Pol Sezannın həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası cədvəl şəklində verilmişdir. Şagirdlər burada dərs zamanı onun yaradıcılığını əks etdirən saytla da tanış ola bilərlər.

**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saat mövzu ilə nəzəri cəhətdən tanışlığa və praktik tapşırığın yalnız sadə karandaşla kompozisiyasının qurulmasına, 2-ci saat isə praktik tapşırığın rəng həllinə verilmişdir.**

**G Bilirsinizmi?** blokunda Sezannın təxminən 200 natürmort əsərində istifadə etdiyi əşyalar haqqında və XX əsr təsviri sənətinə onun natürmortlarının təsiri haqqında məlumat verilmişdir.

### H Sərbəst iş üçün tapşırıqlar

**Müəyyən edin**

1. P.Sezannın müxtəlif yaradıcılıq dövrlərinin əsas xüsusiyyətlərinin hansıların olduğu müəyyən edilir.

**Yaradıcı fəaliyyət**

LAYİHƏ

**2.** 1-ci dərsdə şagirdlər Pol Sezannın natürmortlarından birini təkrarlayırlar, eskizini çəkirlər. Nümunə üçün dərslikdə verilmiş əsər də çəkilə bilər. 2-ci dərsdə natürmortun kompozisiyasının rəng həllini tamamlayırlar.

**Sənətkar məsləhəti**ndə şagirdlər Sezannın əsərini təkrarlayarkən, sadə karandaşla masa, stul, qatlanmış parçanın yerlərini müəyyən edir və eskizini çəkirlər. Şagirdlər, meyvə və bardağı rəngləyərkən təmiz rənglərdən istifadə etmək tövsiyə olunur.



*1. Karandaşla çəkilmiş eskiz*



*2. Stol, süfrə və qatlanmış parça*



*3. Meyvələr və bardaq*



*4. Son ştrixlər*

**3.** Şagirdlər Pol Sezannın yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdim edirlər.

Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*
- Təqdimatetmə.
- Müxtəlif təsvir vasitələrindən istifadəetmə.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Pol Sezann və onun əsərləri haqqında təqdimat etməkdə çətinlik çəkir. | Pol Sezann və onun əsərləri haqqında təqdimatları müəllimin köməyi ilə edir. | Pol Sezann və onun əsərləri haqqında bəsit təqdimatlar edir. | Pol Sezann və onun əsərləri haqqında geniş təqdimatlar edir. |
| Natürmortun real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan istifadədə çətinlik çəkir. | **Natürmortun real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan səliqəsiz istifadə edir.** | **Natürmortun real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan müəllimin köməyi ilə istifadə edir.** | **Natürmortun real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan sərbəst istifadə edir.** |
| Sezannın əsərlərində postimpressionizmin xarakterik cəhətlərinin estetik təsir xüsusiyyətləri haqqında məlumata malikdir. | Sezannın əsərlərində postimpressionizmin xarakterik cəhətlərinin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə ayırmaqda çətinlik çəkir. | Sezannın əsərlərində postimpressionizmin xarakterik cəhətlərinin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə nümunələr əsasında dəyərləndirir və sadə təqdimatlar edir. | Sezannın əsərlərində postimpressionizmin xarakterik cəhətlərinin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

# 3-4 PABLO PİKASSO: FƏRQLİ ÜSLUBLARDA İŞLƏYƏN RƏSSAM

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| Alt standart | | 1.1.1.; 1.3.1.; 2.1.2. |
| **Təlim nəticələri:** | | |
| Resurslar | müəllim üçün | rəssamın əsərlərinin reproduksiyası (foto, slaydlar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş |

**Təlim nəticələri:**

- Kubizmin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.
- Pablo Pikasso və onun əsərləri haqqında təqdimatlar edir.
- Həyati görüntülərin real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş, yaxud qrafik redaktordan istifadə edir.

LAYİHƏ



Ⓐ Müəllim mövzunu dərslikdə verilmiş **İncəsənətə dair dialoq** blokundakı sual ilə və yaxud mövzunun məqsədinə uyğun fotolar, müxtəlif reproduksiyalar nümayiş etdirməklə başlaya bilər:

– Primitivizm üslubunda yaradılan əsərlər haqqında nə demək olar? Bu cərəyanın əsas ideyası nədən ibarətdir?

8-ci sinifdə öyrənilənlər yada salınır:

– Primitivizm – XIX əsrin sonu – XX əsrin əvvəlində təsviri sənətdə rəsmin formasının bilərəkdən uşaq yaradıcılığı, yaxud ibtidai dövr rəsmləri kimi sadələşdirilməsini özündə birləşdirən istiqamətdir. “Primitivizm” qeyri-peşəkarların, yaxud peşəkarların stilizə olunduğu rəngkarlıq üslubudur.

Ⓑ Müəllim şagirdlərin əvvəlki dərsdə aldığı məlumatlara əsasən **Xatırlayın** blokuna müraciət edir və soruşur.

– Əşyaların formalarının dəyişdirilməsi, onların sadələşdirilməsi, müxtəlif həndəsi fiqurlardan təşkil olunması hansı üsluba işarədir?

Müəllim kubizm üslubunu şagirdlərə başa salmaq üçün eyni məzmunda olan şəkilləri göstərərək onların bir-birindən nə ilə fərqləndiyini, fərqli və oxşar cəhətlərinin müəyyən edilməsi haqqında soruşa bilər; məsələn:

LAYİHƏ







Dünyanı həndəsi fiqur formaları vasitəsilə dərk edən primitivizm əslində elə kubizmdir. Bu cərəyanın mənbəyi öz əksini yalnız Pol Sezannın rəngkarlıq əsərlərində tapmamışdır.

**C** Dərslikdə kubizmin ən məşhur nümayəndələrindən biri – dünya şöhrətli Pablo Pikassonun həyat və yaradıcılığı haqqında maraqlı məlumat verilmişdir. Pablo Pikasso dünya təsviri sənət tarixinə kubizmin yaradıcısı kimi daxil olsa da, kubizm onun yaradıcılığındakı dövrlərdən biri və rəssamın yaradıcılığının yalnız on ilini təşkil edir. Şagirdlər rəssamın yaradıcılığında baş verən dəyişikliklərlə tanış olurlar.

***Tədqiqat sualları:*** *Pablo Pikassonun yaradıcılığını fərqləndirən səciyyəvi cəhətlər hansılardır? Kubizm üslubunda rəsm çəkmək üçün nələri nəzərə almaq vacibdir?*

**D** Dərsliyin **Təsviri sənət qalereyası** blokunda Pikassonun əsərlərində sadə həndəsi formalardan ibarət olan və digər cərəyanları əhatə edən tabloları yer almışdır.

Təsviri sənətin elə bir janrı yoxdur ki, Pikasso orada özünü sınamasın. Ən mühüm olanı – həmişə tipik, ümumiləşdirilmiş obrazlı portretlərdir. O, konkret insanı deyil, insan tipini çəkir. Pikasso çox az sayda natürmort çəkmişdir. Onun süjetli əsərlərinin sayı da o qədər çox deyil, lakin animalistika çox, mənzərə isə xeyli azdır. Pikassonun əsərlərinin rəngkarlıq janrlarına bölünməsi tamamilə şərtidir. Rəssamın əsərləri janra görə deyil, onun yaradıcılığının bu və ya digər mərhələsini müəyyən edən üslublar ilə fərqlənir.



LAYİHƏ

Ənənəvi olaraq Pikassonun yaradıcılığını 11 dövrə ayırırlar. Şagirdlər hər dövrdə baş vermiş dəyişikliklərlə əsərlər vasitəsilə tanış olurlar və konseptual cədvəl qururlar. Bu cədvəldə rəssamın yaradıcılıq dövrləri, əhatə edən illəri, məşhur əsərləri və əsərlərin hansı növə aid olunduğu qeyd edilərək müqayisə olunur.

**PABLO PİKASSO**

| Yaradıcılıq dövrləri | Dövrləri əhatə edən illər | Məşhur əsərləri | Əsərləri, əsasən, təsviri sənətin hansı növünə aiddir? |
|---|---|---|---|
| ERKƏN İLLƏR | (1889–1901) | | |
| MAVİ DÖVR | (1901–1904) | | |
| ÇƏHRAYI DÖVR | (1905–1906) | | |
| AFRİKA DÖVRÜ | (1907–1909) | | |
| ANALİTİK KUBİZM | (1909–1912) | | |
| SİNTETİK KUBİZM | (1912–1917) | | |
| KLASSİSİZM DÖVRÜ | (1917–1925) | | |
| SÜRREALİZM DÖVRÜ | (1925–1937) | | |
| 30-cu İLLƏRİN SONU VƏ MÜHARİBƏ DÖVRÜ | (1937–1945) | | |
| MÜHARİBƏDƏN SONRAKI DÖVR | (1945–1954) | | |
| SON DÖVR | (1954–1973) | | |

**E** **Görkəmli sənətkarlar** blokunda Pablo Pikassonun həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası cədvəl şəklində verilmişdir.

**F** **Düşünün və izah edin** blokunda bədii əsərin yaranmasına təkan verən səbəbin nə olduğu, rəssamların şahidi olduqları hadisələri əsərlərində əks etdirmələrinin nədən xəbər verdiyi sualları əsasında müzakirə aparılır.

**G** **Bilirsinizmi?** blokunda rəssamın böyük ictimai əhəmiyyət daşıdığı "Gernika" əsəri təhlil edilir.

**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saat mövzu ilə nəzəri cəhətdən tanışlığa və praktik tapşırığın yalnız sadə karandaşla kompozisiyasının qurulmasına, 2-ci saat isə praktik tapşırığın rəng həllinə verilmişdir.**

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** P.Pikassonun yaradıcılıq dövrlərinin nə ilə fərqləndiyi müəyyən edilir.

**Yaradıcı fəaliyyət**

**2.** Ətrafınızda olanların rəsmini kubizm üslubunda çəkin.

LAYİHƏ

Müəllim şagirdlərə qruplarda, yaxud sərbəst janr seçimi etmək də tapşıra bilər.

1-ci qrup kubizm üslubunda natürmort, 2-ci qrup – portret, 3-cü qrup – mənzərə, 4-cü qrup isə süjetli rəsm çəkə bilər.

Dərslikdə kubizm üslublarına aid şagirdlərin rəsm zamanı istifadə edə biləcəkləri təsvirlər verilmişdir. Müəllim rəsm zamanı bu barədə şagirdlərə xatırlada bilər.





Əvvəlcə vərəqdə çəkəcəyinizi real formada təsvir edin. Sonra çəkdiyiniz təsviri müxtəlif həndəsi formalar vasitəsilə hissələrə ayırın.

Bu tapşırığı kompüterdə “Paint” proqramı vasitəsilə də yerinə yetirmək olar.

**3.** Şagirdlərə dərslikdə verilmiş yaradıcılıq saytından və ya digər mənbələrdən Pablo Pikassonun yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdim etmək tapşırılır.

Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

- Postimpressionizm kubizmdən nə ilə fərqlənir?
- Sezann və Pikassonun kubizm əsərlərində hansı ümumi və fərqli cəhətlər var?

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Müxtəlif təsvir materialları və alətlərindən istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Kubizmin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar etməkdə çətinlik çəkir. | Kubizmin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları suallar əsasında edir. | Kubizmin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Kubizmin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair geniş təqdimatlar edir. |
| Pablo Pikasso və onun əsərləri haqqında məlumatı var, lakin təqdimatlar etməkdə çətinlik çəkir. | Pablo Pikasso və onun əsərləri haqqında təqdimatları suallar əsasında edir. | Pablo Pikasso və onun əsərləri haqqında təqdimatları müəllimin köməyi ilə edir. | Pablo Pikasso və onun əsərləri haqqında təqdimatlar edir. |
| Kubizm üslubunda olan təsvirdə rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaşdan səliqəsiz istifadə edir, qrafik redaktorun istifadəsində çətinlik çəkir. | Kubizm üslubunda olan təsvirdə rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş, yaxud qrafik redaktordan müəllimin köməyi ilə istifadə edir. | Kubizm üslubunda olan təsvirdə rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərlə quaşdan səliqəli istifadə edir, qrafik redaktorda isə sadə təsvirlər yaradır. | Kubizm üslubunda olan təsvirdə rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş, yaxud qrafik redaktordan sərbəst istifadə edir. |

# 5 VASİLİ KANDİNSKİ: ABSTRAKT SƏNƏTDƏ AXTARIŞLAR

<table>
<tr><td colspan="2">Məşğələ növü</td><td>mövzu üzrə rəsm</td></tr>
<tr><td colspan="2">Alt standart</td><td>1.1.1.; 1.3.1.; 2.1.2.</td></tr>
<tr><td colspan="3">Təlim nəticələri:<br>• Abstrakt sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Vasili Kandinski və onun əsərləri haqqında təqdimat edir.<br>• Abstrakt mənzərənin təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş, tuş, qarışıq texnika, yaxud qrafik redaktordan istifadə edir.</td></tr>
<tr><td rowspan="2">Resurslar</td><td>müəllim üçün</td><td>rəssamın əsərlərinin reproduksiyası (foto, slaydlar), meyar cədvəli</td></tr>
<tr><td>şagird üçün</td><td>dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş, tuş</td></tr>
</table>

LAYİHƏ




**A** Müəllim şagirdlərə abstrakt sənət haqqında anlayışı dərsliyin **İncəsənətə dair dialoq** blokundakı sual və şəkillərin nümayişi vasitəsilə izah edə bilər.

Abstrakt üslubu asan mənimsəmək üçün müəllim əsərlərlə bağlı şagirdlərə yönəldici suallar verə bilər:

H

– Rəssam tablosundakı xətlər və boya ləkələri şagird rəsmindən nə ilə fərqlənir? Bu müəmmalı, çoxlarının dərk etmədiyi və onları daim düşünməyə məcbur edən rəsmlər nəyi bildirir? *(mücərrədlik, abstraksiya)*

**B** Müəllim dərsliyin **Xatırlayın** blokunda verilmiş sualla sinfə müraciət edir. Orta əsrlərdən başlayaraq müasir dövrümüzə kimi təsviri sənətin müxtəlif janrlarında üslub və texnikaların necə dəyişildiyi soruşulur və şagirdlərin fərziyyələri dinlənilir.

***Tədqiqat sualları:** Vasili Kandinskinin yaradıcılığının əsas xüsusiyyətləri nədir? Abstrakt üslubda rəsm yaratmaq üçün nələri bilmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**C** Müəllim şagirdlərə abstrakt sənət və rəssamın yaradıcılığının təsviri sənətdə, cəmiyyətdə rolu haqqında kiçik məlumatlar verir:

– Abstraksionizm kubizmin əsasında yarandığından onun məntiqi davamı sayılırdı. Kubizm yaradıcı prosesi əşyavi aləmdən mücərrədliyə doğru apardı.

LAYİHƏ

Mücərrəd incəsənət dünyanın, həyatın və insan şüurunun sirlərini aşkara çıxarırdı. Abstrakt üslubda fəaliyyət göstərən rəssamlar öz kompozisiyalarını formal elementlərin – xətt, rəng ləkəsi, formanın yayınan xarici görünüşü əsasında qururdular.

Şagirdlər dərslikdəki mətni sərbəst oxuyur, verilmiş məzmunu birlikdə müzakirə edirlər. Müəllim şagirdlərin mövzu ilə tanışlığı üçün BİBÖ cədvəlindən istifadə edə bilər. Bu zamana qədər abstrakt sənət haqqında bildiklərini cədvəlin "Bilirik" sütununda qeyd edirlər. Bilmək istədiklərini 2-ci sütunda, dərsin sonunda – mövzu ilə tanışlıqdan sonra isə öyrəndiklərini cədvəlin 3-cü sütununda qeyd edirlər.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| | | |

**D** Dərsliyin **Təsviri sənət qalereyası** blokunda Kandinskinin rəng parçalarının və sınıq xətlərin birləşməsindən yaranan kompozisiyaları əks olunmuşdur. Müəllim şagirdləri rəssamın digər əsərləri ilə də tanış edə bilər.



*"Otuzuncu"*



*"Müxtəlif hadisələr"*

**E** Şagirdlər **Görkəmli sənətkarlar** blokunda abstrakt sənətin nəhəng nümayəndəsi Vasili Kandinskinin həyat və yaradıcılığı ilə cədvəl şəklində verilmiş həyat xronologiyasında tanış olurlar.

**F** Sonra **Düşünün və izah edin** blokundakı suallara öz fikirlərini bildirirlər. Kandinski bütün abstrakt əsərlərini üç qrupa bölürdü: impressiya, improvizələr və kompozisiyalar.

- Abstrakt əsərlərin adları yuxarıda haqqında danışılan üç qrupa uyğun gəlirmi? Öz cavabınızı əsaslandırın.
-

LAYİHƏ

| Kandinskinin abstrakt əsərlər qrupu | | |
|---|---|---|
| **İmpressiya** | **İmprovizə** | **Kompozisiya** |
|  |  |  |
| Belə əsərlər xarici aləmin təəssüratı kimi yaranır. | Bu əsərlər şüurdan asılı olmayaraq daxili təəssüratı ifadə edir. | Burada gerçəkliklə birbaşa heç bir əlaqə yoxdur, onların yaradılmasında şüur iştirak edir. Abstrakt rəngkarlığın ali və ən ardıcıl formasıdır. |

Dərslikdə Kandinskinin “Kazaklar” əsəri təhlil edilir. Burada xətlərin, ləkələrin hansı simvolik məna daşıdığı haqqında məlumat verilmişdir.

G **Bilirsinizmi?** blokunda şagirdlər rəssamın kompozisiyalardan birinin Azərbaycan Milli İncəsənət Muzeyində saxlanıldığı barədə məlumatla tanış olurlar.

Kandinski bir çox tabloların yaradıcısı, rəssamlıq barədə bir neçə kitabın müəllifi və tədqiqatçı-etnoqraf olmuşdur. Bir zamanlar Mikelancelo heykəltəraşlığa münasibəti dəyişdiyi kimi, Kandinski də rəngkarlıq barədə təsəvvürləri alt-üst etməyə qadir oldu.

## H Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən edin

**1.** Şagirdlər Kandinskinin rəngin psixoloji təsiri haqqındakı fikrini oxuyurlar və onu necə başa düşdükləri haqda müzakirə aparırlar.

### Yaradıcı fəaliyyət

**2.** “Bizim küçə (park, bulvar)” mövzusunda abstrakt mənzərə çəkmək tapşırılır. Şagirdlər xətt, forma və rənglər vasitəsilə abstrakt üslubun əsas xüsusiyyətlərini göstərməyə çalışırlar.

**Sənətkar məsləhəti** blokunda şagirdlərin mücərrəd rəsmi necə çəkməli olduqları haqqında tövsiyələr verilmişdir.

**3.** Şagirdlər Vasili Kandinskinin yaradıcılığı haqqında dərslikdə verilmiş sayt və ya digər mənbələrdən əlavə məlumat toplayaraq təqdimat hazırlayırlar.

I Müəllim şagirdlərlə birgə dərslikdə verilmiş **Özünüzü yoxlayın** blokundakı ümumiləşdirici sualların cavablandırılmasına nail olur.

*Qiymətləndirmə meyarları:*

LAYİHƏ

- Təqdimatetmə.
- Müxtəlif təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Abstrakt sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar etməkdə çətinlik çəkir. | Abstrakt sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları suallar əsasında edir. | Abstrakt sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Abstrakt sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Vasili Kandinski və onun əsərləri haqqında məlumatı var, lakin təqdimatlar etməkdə çətinlik çəkir. | Vasili Kandinski və onun əsərləri haqqında təqdimatları suallar əsasında edir. | Vasili Kandinski və onun əsərləri haqqında təqdimatları müəllimin köməyi ilə edir. | Vasili Kandinski və onun əsərləri haqqında təqdimat edir. |
| Abstrakt mənzərənin təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaşdan səliqəsiz istifadə edir, qrafik redaktorun istifadəsində çətinlik çəkir. | Abstrakt mənzərənin təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş, yaxud qrafik redaktordan müəllimin köməyi ilə istifadə edir. | Abstrakt mənzərənin təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərlə, quaşdan səliqəli istifadə edir, qrafik redaktorda isə sadə təsvirlər yaradır. | Abstrakt mənzərənin təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş, tuş, qarışıq texnika, yaxud qrafik redaktordan istifadə edir. |

# 6 HENRİ SPENSER MUR: HEYKƏLTƏRAŞLIQDA TƏBİƏT FƏLSƏFƏSİ

| **Məşğələ növü** | | yapma |
|---|---|---|
| Alt standart | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Henri Mur və onun əsərləri haqqında təqdimat edir.<br>• Heykəllərin abstrakt yapılmasında plastilin, yaxud gildən istifadə edir.<br>• Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | heykəltəraşın əsərlərinin reproduksiyası (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, plastilin və ya gil |



LAYİHƏ




**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sual müzakirə olunur. 7-ci sinifdə tanış olduqları məlumatı müəllimlə birlikdə xatırlayırlar. Monumental heykəltəraşlıq dəzgah heykəltəraşlığı nümunələrindən nə ilə fərqləndiyi Venn diaqramı vasitəsilə müəyyən edilir.




**Monumental heykəltəraşlığa** təkfiqurlu və çoxfiqurlu kompozisiyalar, atlı heykəllər, xatirə-memorial ansambllar, relyeflər, görkəmli şəxslərə həsr olunmuş abidələr aid edilir. Monumental heykəltəraşlıq nümunələri, adətən, uzaq məsafədən daha yaxşı qavranılır.

**Dəzgah heykəltəraşlığı** – baş, bədən, qrup, büst kimi müxtəlif növ heykəltəraşlıq kompozisiyalarını əhatə edir. Dəzgah heykəltəraşlığı nümunələri, adətən, yaxın məsafədən baxılır, onlar ətraf mühit və memarlıqla bağlı olmur. Onlara rəssamların emalatxanasında və sərgi salonlarında rast gəlirik. Adətən, dəzgah heykəltəraşlığı təsvir olunan əşyanın təbii ölçülərinə uyğun yaradılır.

**B** Müəllim dərsliyin **Xatırlayın** blokunda verilmiş sualla sinfə müraciət edərək, şagirdlərin fərziyyələrini dinləyir.

– Qədim zamanlardan müasir dövrə kimi heykəltəraşların yaratdıqları heykəllərin mövzusu nəyə həsr edilirdi?

Müəllim britaniyalı heykəltəraş Henri Murun müasir heykəl nümunələrini nümayiş etdirir və soruşur:

– Müasir dövrün heykəlləri haqqında nə deyə bilərsiniz? *(fərziyyələr)*



LAYİHƏ

– Onlar hansı üslubun xüsusiyyətlərini xatırladır? *(abstrakt, sürrealizm)*

***Tədqiqat sualları:*** *Henri Murun yaradıcılığı haqqında nə demək olar? Heykəltəraşlıqda abstrakt formanı yapmaq üçün nələri nəzərə almaq vacibdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

C Müəllim şagirdlərə sənətkarın yaradıcılığının təsviri sənətdə, cəmiyyətdə rolu haqqında kiçik məlumat verir. Britaniya heykəltəraşı Henri Murun orijinal və təkrarolunmaz yaradıcılığı haqqında dərslikdəki mətnlə tanış olurlar. Onun həm muzeylərdə sərgilənən, həm də şəhər mühitində ucalan heykəlləri bütün dünyada məşhurdur.

Şagirdlər dərslikdə verilmiş mətni sərbəst oxuyur, verilmiş məzmunu birlikdə müzakirə edirlər.

D Dərsliyin **Təsviri sənət qalereyası** blokunda Henri Murun qadın fiquruna həsr olunmuş heykəllərlə, ailə və ana mövzusunda kompozisiyalarla tanış olurlar. Heykəltəraş öz əsərlərini həm də açıq məkanlarda yerləşdirərək onları ətrafdakı mənzərə ilə qovuşdurmağa səy göstərirdi.

Mur tamaşaçıları heykəllərinə insanın anatomik bənzəri kimi deyil, onlara təbii landşaftın bir hissəsi kimi nəzər salmağa məcbur edirdi. Əgər həykəltəraşın yarıuzanmış fiqurlarına diqqətlə nəzər salsaq, onlarda İngiltərənin enişli təpələrini, küləyin və suyun qırış saldığı daşları və sahil qayalarını görmək, yağışın səsini eşitmək, dənizin ətrini hiss etmək olar. Murun bədii dili XX əsr heykəltəraşlığı üçün prinsipial cəhətdən yeni təzahür idi.

E **Görkəmli sənətkarlar** blokunda britaniyalı heykəltəraş Henri Spenser Murun həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası cədvəl şəklində verilmişdir.

F Sonra **Düşünün və izah edin** blokunda Henri Murun heykəllərinin orta əsr heykəllərindən nə ilə fərqləndiyi sualına öz fikirlərini bildirirlər.

G **Bilirsinizmi?** blokunda Murun II Dünya müharibəsi illərində London metrosunda yaratdığı şəkil eskizləri öz əksini tapmışdır.

H **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Dərslikdəki mövzuda təqdim edilmiş əsərləri forma, məkan və məzmun əsasında fərqləndirin. Bu tapşırığı aşağıdakı cədvəl formasında da müəyyən etmək olar.



LAYİHƏ

| Əsərlərin adı | Heykəllərin forması | Yerləşdiyi məkan | Heykəllərin məzmunu |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə abstrakt formada istənilən mövzuda heykəl yapmaq tapşırılır. Başlanğıc üçün yapacaqları heykəlin eskizini çəkirlər.

**3.** Henri Murun yaradıcılığı haqqında müxtəlif mənbələrdən əlavə məlumat toplayıb və təqdim etmək olar.

I Müəllim şagirdlərə suallar verməklə dərslikdə verilmiş **Özünüzü yoxlayın** blokundakı ümumiləşdirici sualların cavablandırılmasına nail olur.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Müxtəlif təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar etməkdə çətinlik çəkir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları suallar əsasında edir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Henri Mur və onun əsərləri haqqında təqdimatlar etməkdə çətinlik çəkir. | Henri Mur və onun əsərləri haqqında təqdimatları suallar əsasında edir. | Henri Mur və onun əsərləri haqqında təqdimatları müəllimin köməyi ilə edir. | Henri Mur və onun əsərləri haqqında təqdimat edir. |
| Heykəllərin abstrakt yapılmasında plastilin, yaxud gilin istifadəsində çətinlik çəkir. | Heykəllərin abstrakt yapılmasında plastilin, yaxud gildən səliqəsiz istifadə edir. | Heykəllərin abstrakt yapılmasında plastilin, yaxud gildən müəllimin köməyi ilə istifadə edir. | Heykəllərin abstrakt yapılmasında plastilin, yaxud gildən sərbəst istifadə edir. |
| Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsiri haqqında məlumata malikdir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirməkdə çətinlik çəkir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və sadə təqdimatlar etməyə çalışır. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 7 POL KLİ: RƏNGKARLIQDA XƏTLƏRİN HƏRƏKƏTİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| Alt standart | | 1.3.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Pol Kli və onun əsərləri haqqında təqdimat edir.<br>• Süjetli əsərlərin abstrakt təsvirində sulu boya, qarışıq texnikadan istifadə edir.<br>• Pol Klinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | məişət janrında əsərlərdən nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş və ya akvarel |




**A** "Motivasiya" mərhələsini tətbiq etmək üçün müəllim dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sualdan istifadə edə bilər.

– Rəngkarlıq əsərlərində hərəkəti, hisləri hansı vasitələrlə göstərmək olar?

***Tədqiqat sualları:*** *Pol Klinin yaradıcılığının əsas xüsusiyyətləri nədir? Abstrakt xətt və həndəsi fiqurlardan ibarət süjetli rəsm çəkmək üçün nələri nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur.

– Orta əsrlərdən başlayaraq müasir dövrümüzədək təsviri sənətin müxtəlif janrlarında üslub və texnikalar necə dəyişmişdir?

LAYİHƏ

**C** Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, Pol Kli haqqında oxuyurlar. Avropa avanqardının görkəmli simalarından olan Pol Kli abstrakt sənətin inkişafına böyük təsir göstərmişdir. Pol Klinin yaradıcılığının çiçəklənməsi modernizmin müxtəlif istiqamətlərinin yaranması və intişarı dövrünə təsadüf edir. Kli müxtəlif istiqamətlərdə (ekspressionizm, sürrealizm, abstraksionizm, kubizm) fəaliyyət göstərsə də, öz əsərlərini yalnız öz tərzində, bu və ya digər cərəyanın prinsiplərinə ciddi əməl etmədən çəkirdi.

**D** Pol Klinin əsərlərində mücərrədlik və rəng daha aydın nəzərə çarpır. Onun **Təsviri sənət qalereyası** blokunda verilmiş əsərləri müzakirə edilir.

**E** **Görkəmli sənətkarlar**a dair cədvəldə dünya şöhrətli Pol Klinin həyat xronologiyası verilmişdir.

**G** **Bu maraqlıdır** blokunda Klinin işlədiyi mürəkkəb texnikalar haqqında danışılır. O, geniş material çeşidindən istifadə edirdi: pastel təbaşirlər, akvarel, yağlı boya, tempera, mürəkkəb ilə rəsm çəkir, həmçinin ofortlar (metal üzərində oyma üsulu ilə yerinə yetirilən qravürlər) işləyirdi. Çox zaman bir əsərdə xeyli müxtəlif materialdan istifadə edirdi. O, qravürlərə maraq göstərirdi və şüşə üzərində iynə ilə təsvirin orijinal texnikasını icad etmişdi.

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Pol Klinin verilmiş xətli və həndəsi əsərlərində nə təsvir olunduğu müəyyən edilir.

**Yaradıcı fəaliyyət**

**2.** Abstrakt xətt və həndəsi fiqurlardan ibarət süjetli rəsm çəkmək tapşırılır.

**3.** Şagirdlər Pol Klinin yaradıcılığı barədə mənbələrdən əlavə məlumat toplayır və təqdim edirlər.

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Təsvir materiallarından istifadəetmə.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Pol Kli və onun əsərləri haqqında təqdimatlar etməkdə çətinlik çəkir. | Pol Kli və onun əsərləri haqqında təqdimatları suallar əsasında edir. | Pol Kli və onun əsərləri haqqında təqdimatları müəllimin köməyi ilə edir. | Pol Kli və onun əsərləri haqqında təqdimat edir. |
| Süjetli əsərlərin abstrakt təsvirində sulu boya və qarışıq texnikadan səliqəsiz istifadə edir. | Süjetli əsərlərin abstrakt təsvirində sulu boya və qarışıq texnikadan qismən istifadə edir. | Süjetli əsərlərin abstrakt təsvirində sulu boya və qarışıq texnikadan müəllimin köməyi ilə istifadə edir. | Süjetli əsərlərin abstrakt təsvirində sulu boya və qarışıq texnikadan sərbəst istifadə edir. |
| Pol Klinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətləri haqqında məlumata malikdir. | Pol Klinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə ayırmaqda çətinlik çəkir. | Pol Klinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə nümunələr əsasında dəyərləndirir və sadə təqdimatlar edir. | Pol Klinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

# 8 NAUM QABO: HEYKƏLTƏRAŞLIQDA XƏTLƏRİN HƏNDƏSƏSİ

| **Məşğələ növü** | | yapma |
|---|---|---|
| Alt standart | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Naum Qabo və onun əsərləri haqqında təqdimat edir.<br>• Heykəlin, yaxud əşyanın konstruksiyasının abstrakt yaradılmasında kağız, karton, plastilin və ya gildən istifadə edir.<br>• Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | heykəltəraşlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, plastilin və ya gil, ağ və rəngli kağız, karton |

LAYİHƏ




Ⓐ Müəllim **İncəsənətə dair dialoq** blokunda verilmiş suala əsasən Pikassonun və Qabonun müvafiq olaraq kubizm üslubunda yaradılmış bir rəngkarlıq və bir heykəltəraşlıq əsərinin fotoşəklini lövhədən asır və ya slayd vasitəsilə nümayiş etdirərək soruşur:

– Verilmiş əsərlərin oxşar və fərqli cəhətləri nədədir?

Müzakirəni Venn diaqramı vasitəsilə də aparmaq olar.




Şagirdlərin fərziyyələri dinlənilir.

Müəllim şagirdlərə təhlil zamanı əsərlərin əsasında həndəsi konstruksiyanın olduğunu vurğulayır. O, konstruktivizm üslubunun açıqlanmasını anlayışın çıxarılması üsulu ilə də başlaya bilər.




LAYİHƏ

***Tədqiqat sualları:** Naum Qabonun yaradıcılığının əsas xüsusiyyətləri nədir? Konstruktivizm üslubunda heykəl, büst və ya fiqur yaratmaq üçün nəyi bilmək və hansı materiallardan istifadə etmək olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokundakı sual müzakirə olunur.

– Rəssamlar həndəsi fiqurların köməyi ilə tam təsviri necə çatdırırdılar?

**C** **Tanış olun** blokunda şagirdlər müasir heykəltəraş Naum Qabo və onun yaradıcılığı haqqında tanış olurlar. Qabonun bütün heykəlləri həndəsi formaya malikdir, hətta insan fiqurunun təsvirində burun, dodaq, ağızı təsvir edən daxili hörmələr və arakəsmələr görünür. Onlar eyni zamanda konstruksiyanın vacib elementləri hesab olunur. Naum Qabo – XX əsrdə təsviri sənətin inkişaf tarixinə öz sənəti ilə dərin təsir göstərmiş və heykəltəraşlığın fəlsəfi fikrini bu gün də çox cəhətdən müəyyən edən görkəmli sənətkarlardandır. Çox zaman onun əsərlərinin elmlə əlaqəli olduğunu deyirlər, belə ki, Qabonun heykəlləri həmişə elmi və riyazi görünüşə malikdir. Qabonu təbiətin yaratdığı təbii formaların gözəlliyi və harmoniyası maraqlandırırdı.

**D** **Təsviri sənət qalereyası** blokunda verilmiş Naum Qabonun heykəllərində fəza konstruksiyaları nümayiş etdirilir. Sənətkarın bilavasitə xidməti heykəlləri simli və spiralvarı tökmə üsulunun kəşfindən, formaların qeyri-adi materialdan olmasından və şəffaflıq effektindən ibarətdir.





**E** **Görkəmli sənətkarlara** dair cədvəldə XX əsrin ən parlaq heykəltəraşlarından olan Naum Qabonun həyat xronologiyası verilmişdir.

**F** Mövzu hissə-hissə oxunub müzakirə olunur. **Düşünün və izah edin** blokundakı sual cavablandırılır.

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**



LAYİHƏ

**1.** Verilmiş heykəltəraşlıq əsərlərinin mövzularının nədən ibarət olduğu müəyyən edilir.

**Yaradıcı fəaliyyət**

**2. a)** Plastilindən abstrakt tərzdə konstruksiya yaratmaq tapşırıla bilər.

**b)** Rəngli, yaxud ağ kağızdan və kartondan qeyri-adi praktik əşyalar düzəltmək tapşırılır. Müəllim yaradıcı axtarışlarından istifadə edərək şagirdlərlə birgə kağızdan maket, modelləşdirmə və ya digər yeni ideyalar düşünüb yarada bilər. Modelləşdirmə – hər hansı bir düşünülən obyekti model vasitəsilə təsvir etmək, yaratmaq və onun modeli üzərində eksperimentlər aparmaqla həmin obyekt haqqında məlumat almaq imkanı verir. Bunun üçün müəllim şagirdləri tapşırığa uyğun qruplara ayıraraq, 1-ci qrupa ağ kağızdan praktik əşya, 2-ci qrupa – maket, 3-cü qrupa – konstruksiya, 4-cü qrupa isə istənilən obyektin modelləşdirilməsini tapşıra bilər.

**3.** Şagirdlər Naum Qabonun yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat edirlər.

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Kağız, karton, plastilin və ya gildən istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar etməkdə çətinlik çəkir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları suallar əsasında edir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Naum Qabo və onun əsərləri haqqında təqdimat etməkdə çətinlik çəkir. | Naum Qabo və onun əsərləri haqqında təqdimatı suallar əsasında edir. | Naum Qabo və onun əsərləri haqqında təqdimatı müəllimin köməyi ilə edir. | Naum Qabo və onun əsərləri haqqında təqdimat edir. |
| Heykəlin, yaxud əşyanın konstruksiyasının abstrakt yaradılmasında rəngli kağız, karton, plastilin və ya gildən səliqəsiz istifadə edir. | Heykəlin, yaxud əşyanın konstruksiyasının abstrakt yaradılmasında rəngli kağız, karton, plastilin və ya gildən istifadə edərkən səhvlərə yol verir. | Heykəlin, yaxud əşyanın konstruksiyasının abstrakt yaradılmasında rəngli kağız, karton, plastilin və ya gildən müəllimin köməyi ilə istifadə edir. | Heykəlin, yaxud əşyanın konstruksiyasının abstrakt yaradılmasında rəngli kağız, karton, plastilin və ya gildən sərbəst istifadə edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir, lakin təqdimatlar etməkdə çətinlik çəkir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini şərh edir və təqdimatlar edilməsində səhvlərə yol verir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və bəsit təqdimatlar edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

# 9-10 SALVADOR DALİ: DAHİNİN SÜRREALİST KAİNATI

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | dekorativ-tətbiqi fəaliyyət |
| Alt standart | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Sürrealizm üslubunun cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Salvador Dali və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Həyati görüntülərin abstrakt təsvirində qarışıq texnika və quaşdan istifadə edir.<br>• Salvador Dalinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | rəssam əsərlərinə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, quaş, rəngli kağız, parça, qəzet və jurnallardan kəsiklər |

LAYİHƏ




**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saat mövzu ilə nəzəri cəhətdən tanışlığa və praktik tapşırığın yalnız sadə karandaşla kompozisiyasının qurulmasına, 2-ci saat isə praktik tapşırığın rəng həllinə verilmişdir.**

Ⓐ Dərsliyin **İncəsənətə dair dialoq** blokunda müasir sürrealizmin görkəmli nümayəndəsi, meksikalı rəssam Frida Kalonun “Yuxu (Çarpayı)” və tanınmış belçikalı sürrealist-rəssam  Rene Maqritin “Şəxsi dəyərlər” əsərləri verilmişdir. *“Rəssamların yaratdığı əsərlər hansı təəssüratı doğurur? Onlar bununla nə demək istəyiblər? Təsvir edilmiş rebusları açmaq mümkündürmü?”* sualları müzakirə edilir.

Əsərlərdə hər iki rəssam adi həyatımızda olanları sanki sirli və müəmmalı təsvir etmişlər. Bununla da müəyyən obyektlər vasitəsilə daxili aləmdəki hislər əks olunmuşdur. Rəssamlar əsərdə nəyin təsvir olunduğunu, hətta əsərin adını belə tamaşaçının düşünüb tapmasına can atırdılar. Belə əsərlər sürrealistik üslubun xarakterik xüsusiyyətlərini özündə birləşdirir.

Ⓑ **Xatırlayın** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur. Müəllim şagirdlərdən kubizm cərəyanının abstraksionizmdən nə ilə fərqləndiyini Venn diaqramı vasitəsilə soruşa bilər.

LAYİHƏ




1920-ci illərdə Fransada yaranmış və Qərb mədəniyyətinə böyük təsir göstərmiş sürrealizm cərəyanı kübizm və abstrakt sənətin qavranılmasını asanlaşdırdı. Sürrealizmin əsas konsepsiyası – yuxu və reallığın bir arada olması idi. Bunun üçün surrealist rəssamlar kollaj və müxtəlif texnologiyalar vasitəsilə təbii obrazların absurd və ziddiyyətli uyğunluğunun bir-biri ilə birləşməsini təklif edirdilər. Surrealist rəssamlar üçün ilkin məqsəd – mənəvi yüksəklik və ruhun maddiyyatdan ayrılması, ən mühüm dəyərləri isə azadlıq və səmərəsizlik idi. Onların mövzuları istehza, sehr, ifadəsini lazımınca tapmamış şüur idi. Nəticədə sürreallıq nəinki sadəcə məqsəd, hətta gündəlik təsəvvürləri qırmağa çalışan, düşünülmüş şəkildə ideyaları ifadə etmək üsuluna çevrildi.

Müəllim şagirdlərə əvvəlki dərslərdə “sürrealizm” termini ilə tanış olduqlarını xatırladır. Sürrealist rəssamlar xəstə təxəyyülün qarabasmalarını, dəhşətli yuxuları, mistik görüntüləri incəsənətdə göstərməyi öz qarşılarına məqsəd qoyurlar. Cəfəngiyat və sərsəmlik onlar üçün dünyanın yeganə qanunauyğunluğudur. Onlar hesab edirlər ki, ağlın çaşması yaradıcı proses üçün ideal haldır. Belə incəsənətin məqsədi – tamaşaçını iradədən, dərrakədən, aktivlikdən məhrum etməkdir.

Müəllim üslubun əyani nümayişini Salvador Dalinin əsərləri ilə təqdim edə bilər.



*“Nərgizin metamorfozu”. 1937*



*“Fillərdə əks olunan qu quşları”. 1937*

LAYİHƏ

Müəllim SÜRREALİZM sözünü yazı lövhəsinin mərkəzində yazır və şagirdlərdən ilkin biliklərini nəzərə alaraq bu anlayışla bağlı qısa bir zamanda mümkün qədər söz və ya ifadələri payladığı kiçik, rəngli vərəqlərdə yazmağı xahiş edir. Sonra şagirdlər topladıqları müxtəlif sözlər yazılmış rəngli vərəqləri yazı lövhəsində – “SÜRREALİZM” sözünün ətrafında bərkidir və şaxələndirmə qururlar.

| | | | | |
|---|---|---|---|---|
| Absurd | | Reallıqdan uzaq | | Sərsəmlik |
| | Sehrbazlıq və çaşqınlıq | | Cəfəngiyat | |
| İstehza | | **SÜRREALİZM** | | Dəhşətli yuxular |
| | Qeyri-adi şüur | | Xəstə təxəyyül | |
| Qarabasma | | Mistik görüntülər | | Dərrakədən məhrum edən |

Dərsin sonunda şagirdlər “SÜRREALİZM” sözünün şaxələndirilməsini tanış olduqları yeni fikir və sözlər əsasında davam etdirirlər.

***Tədqiqat sualları:*** *Salvador Dalinin yaradıcılığında sürrealizm üslubu necə açılmışdır? Sürrealistik rəsm, əşya və ya kollaj yaratmaq üçün nələrə diqqət yetirmək vacib sayılır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

C Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, sürrealizm cərəyanının əsas xüsusiyyətləri, cəmiyyətdə rolu və belə təsvirlər yaradan rəssam Salvador Dali haqqında məlumat alırlar.

Salvador Dali – sürrealizm cərəyanının görkəmli nümayəndəsi və XX əsrin ən nüfuzlu incəsənət xadimlərindən biri idi. Rəssamın qeyri-adi xarakteri, nadir istedadı və olduqca yaradıcı rəngkarlıq üslubu ona şöhrət qazandırdı. Dali yaradıcılığının toxunmadığı mövzu qalmamışdı. Bu, atom bombası, vətəndaş müharibələri, elm, incəsənət və hətta yemək hazırlanmasına dair əsərlər idi. Demək olar ki, o hər bir şeyi sağlam düşüncə tərzinə malik insanın dərk edə bilmədiyi ağlasığmaz təsvirlərə çevirirdi. Şagirdlər dərslikdə verilmiş mətni oxuyub təhlil edirlər.

LAYİHƏ

**D** **Təsviri sənət qalereyası** blokunda verilmiş avtoportretlərdə Salvador Dalinin şəxsi üslubunun axtarışları və mövzu rəngarəngliyi əsərləri üzrə müzakirə edilir.

**E** **Görkəmli sənətkarlar**a dair cədvəldə dünya şöhrətli rəssam və sürrealizmin banilərindən biri sayılan Salvador Dalinin həyat xronologiyası verilmişdir.
Salvador Dalinin yaradıcılığı haqqında saytda əsərləri və həyatı barədə maraqlı məlumatlar əldə etmək olar.

**F** **Düşünün və izah edin** blokunda rəssam təxəyyülünün müxtəlif yaradıcılıq sahələrində necə əks olunduğu soruşulur.

**G** **Bilirsinizmi?** blokunda dahi rəssamın yaradıcılığının müasir reklam texnologiyalarının inkişafına necə mühüm təsir göstərdiyi haqqında danışılır. Rəssamın ən məşhur əsəri – "Çupa-çups" monpasılarının loqotipindəki çiçəkdir. O, 1969-cu ildən yalnız cüzi dəyişikliklərə məruz qalaraq bu günədək gəlib çatmışdır. Maestronun reklama olan töhfəsi manpası ilə məhdudlaşmır 1969-cu ildə o, "Avroviziya"nın – Avropa mahnı müsabiqəsinin tərtibatında da aktiv iştirak etmişdi.

Salvador Dalinin valehedici və qalmaqallı məşhur sürrealist geyim, aksesuar və zinət əşyaları nümunələri onun öz eskizləri əsasında yaradılırdı.

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Salvador Dalinin dərslikdə verilmiş rəngkarlıq və dizayn əsərlərində oxşar və fərqli cəhətlər nədədir?

**Yaradıcı fəaliyyət**

**2. a)** Öz təxəyyülünüzdən və yaradıcı düşüncənizdən istifadə edərək sürrealist rəsm və yaxud sürrealist obyekt (əşya, mebel, geyim, aksesuar və s.) yaratmağa çalışın. Başlanğıc üçün mövzu seçmək yaxşı olardı.

Müəllim şagirdləri düzəldiləcək əşyaların adına görə qruplara ayıra bilər. 1-ci qrupa istənilən məişət əşyası, 2-ci qrupa – mebel, 3-cü qrupa – geyim, 4-cü qrupa isə aksesuar və s. yaratmaq tapşırıla bilər.

**b)** Qəzet, jurnal, rəngli kağız və parçanın kəsilmiş hissələrindən sürrealist rəsm-kollaj düzəltməyə çalışın.

LAYİHƏ















LAYİHƏ

**3.** Şagirdlər Salvador Dalinin yaradıcılığı haqqında dərslikdə verilmiş saytlar, yaxud digər mənbələrdən əlavə məlumat toplayır və təqdim edirlər.

I Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Sürrealizm üslubunun cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar etməkdə çətinlik çəkir. | Sürrealizm üslubunun cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları suallar əsasında edir. | Sürrealizm üslubunun cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Sürrealizm üslubunun cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Salvador Dali və onun əsərləri haqqında təqdimat etməkdə çətinlik çəkir. | Salvador Dali və onun əsərləri haqqında təqdimatı suallar əsasında edir. | Salvador Dali və onun əsərləri haqqında təqdimatı müəllimin köməyi ilə edir. | Salvador Dali və onun əsərləri haqqında təqdimatlar edir. |
| Həyati görüntülərin abstrakt təsvirində qarışıq texnika və quaşdan səliqəsiz istifadə edir. | Həyati görüntülərin abstrakt təsvirində qarışıq texnika və quaşdan istifadə edərkən kiçik səhvlərə yol verir. | Həyati görüntülərin abstrakt təsvirində qarışıq texnika və quaşdan müəllimin köməyi ilə istifadə edir. | Həyati görüntülərin abstrakt təsvirində qarışıq texnika və quaşdan istifadə edir. |
| Salvador Dalinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirməkdə və təqdimatlar etməkdə çətinlik çəkir. | Salvador Dalinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə şərh edir və təqdimatlar edilməsində səhvlərə yol verir. | Salvador Dalinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə qiymətləndirir və bəsit təqdimatlar edir. | Salvador Dalinin əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 11 XUAN MİRO: REALİZMDƏN RƏMZLƏRƏ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| Alt standart | | 1.3.1.; 2.1.2.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Xuan Miro və onun əsərləri haqqında təqdimat edir.<br>• Həyati görüntülərin abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, quaşdan istifadə edir.<br>• Xuan Mironun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | mövzuya aid nümunələr (slayd və ya foto), meyarlar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, quaş |




**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda avanqardçı rəssamların yaradıcılıqda öz üslublarını necə axtardıqları soruşulur. Şagirdlər əvvəlki mövzularda avanqard haqqında məlumatla tanış olmuşlar. Digər cərəyanlarda olduğu kimi, bu hərəkatın da nümayəndələri bütün qəbul edilmiş normaları, qaydaları, idealları təkzib etməyə



LAYİHƏ

çalışırdılar. Avanqardçılar incəsənətin dilini xeyli zənginləşdirdilər, yeni ideyaların geniş spektrini təklif etdilər. Sürrealizm janrında fəaliyyət göstərən XX əsrin ən parlaq ispan avanqardçılarından biri də Xuan Mirodur.

B **Xatırlayın** blokunda sürrealist üslubun hansı əsas xüsusiyyətlərinin olduğu şagirdlərlə birlikdə müzakirə olunur.

C **Tanış olun** blokunda şagirdlər dərslikdə verilmiş məzmunla – sürrealist üslubun əsas xüsusiyyətləri, cəmiyyətdə rolu, bu istiqamətdə yaradan rəssam Xuan Miro haqqında məlumat alırlar. Rəssam karyerası boyunca müxtəlif rənglərə, forma və materiallara maraq göstərir. O, rəngkarlığa və sürrealizmə yeni və qeyri-adilik gətirmək istəyir. Odur ki qum, daş, sumbata kağızı, viş və əl altında olan digər materiallar ilə təcrübələrə başlayır. Sonralar Miro keramikaya maraq göstərir. Miro həm də heykəltəraşlıqla maraqlanır və bir daha özünüifadənin yeni üfüqlərini kəşf edir. Həcm və materiallar vasitəsilə o, növbəti əsərlərində yenilik yaratmaq istədiyi çox sayda bənzərsiz plastik kompozisiyalar kəşf edir.

***Tədqiqat sualları:*** *Xuan Mironun yaradıcılığı nə ilə səciyyələnir? Sürrealistik üslubda və simvolik rəsmi çəkmək üçün nələri nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

D **Təsviri sənət qalereyası** blokunda Xuan Mironun verilmiş sürrealist əsərlərində rəng kontrastı müzakirə edilir. Bütün rəssamlar müxtəlif hərəkatlarda iştirak edirdilər, öz üslub axtarışlarında idilər, buna görə də çox zaman bu və ya digər sənətkarın öz yaradıcılıq potensialını hansı istiqamətdə daha dolğun göstərdiyini müəyyənləşdirmək çox zaman çətin olur. Miro yeni cərəyanları öyrənərkən onların bədii dilini mənimsəmişdi.



*"Xoruz və günəş"*



*"Fermerin arvadı"*



*"İt ilə adam"*

LAYİHƏ

**F Düşünün və izah edin** blokunda Mironun rəngkarlıq və heykəltəraşlıq əsərlərini birləşdirən ümumi cəhətlər təhlil olunur.

**G Bilirsinizmi?** blokunda rəssamın kəşf etdiyi sirli işarələrlə zəngin əsərləri ilə tanışlıq yer alır.

**E Görkəmli sənətkarlar**a dair cədvəldə dünya şöhrətli Xuan Mironun həyat xronologiyası verilmişdir.

1976-cı ildə Barselonada rəssamın muzeyi – Xuan Miro Fondu – Müasir İncəsənətin Təbliği və Tədrisi Mərkəzi açıldı. Xuan Miro hələ 1968-ci ildə, nəhəng fərdi sərgisindən sonra muzey təsis etmək fikrinə düşmüşdü. O özünün və müasir incəsənətin digər təmsilçilərinin əsərlərinin sərgilənəcəyi yeni bina yaratmaq istəyirdi. Fondun eksponatları çox müxtəlifdir və bura həm rəssamın erkən işləri, həm də onun daxili aləminin müxtəlif tərəflərini əks etdirən çox məşhur əsərləri daxildir.

**H Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Xuan Miro əsərlərində müəmmalı rəmzləri əks etdirir. Sizcə, bu işarələr nə deməkdir?

**Yaradıcı fəaliyyət**

**2.** “İlin fəsilləri” mövzusunda sürrealist və simvolik rəsm çəkmək tapşırılır. Şagirdlər real obyektləri sirli, həndəsi işarələr və xətlərin köməyi ilə göstərməyə çalışırlar. Öz rəsmlərin arxa tərəfində hər rəmzin hansı məna daşıdığını qeyd edirlər.

Müəllim şagirdləri fəsillərin adlarına uyğun 4 qrupa ayıra bilər. 1-ci qrup “Yaz” fəslini, 2-ci qrup – “Yay”, 3-cü qrup – “Payız”, 4-cü qrup isə “Qış” fəslini simvolik işarələr vasitəsilə sürrealistik tərzdə təsvir edir. Hər qrup fəsillərə aid panno da düzəldə bilər.

**3.** Şagirdlər Xuan Mironun yaradıcılığı haqqında dərslikdə verilmiş sayt və ya digər mənbələrdən əlavə məlumat toplayaraq təqdim edirlər.

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xuan Miro və onun əsərləri haqqında təqdimat etməkdə çətinlik çəkir. | Xuan Miro və onun əsərləri haqqında təqdimatı suallar əsasında edir. | Xuan Miro və onun əsərləri haqqında təqdimatı müəllimin köməyi ilə edir. | Xuan Miro və onun əsərləri haqqında təqdimat edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Həyati görüntülərin abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, quaşdan səliqəsiz istifadə edir. | Həyati görüntülərin abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, quaşdan istifadə edərkən kiçik səhvlərə yol verir. | Həyati görüntülərin abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, quaşdan müəllimin köməyi ilə istifadə edir. | Həyati görüntülərin abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, quaşdan istifadə edir. |
| Xuan Mironun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə izah edir. | Xuan Mironun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə şərh edir. | Xuan Mironun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə qiymətləndirir və sadə təqdimatlar edir. | Xuan Mironun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

# 12 ALBERTO CAKOMETTİ: HEYKƏLİN ZƏRİF SİLUETİ

<table>
<tr><td colspan="2">Məşğələ növü</td><td>yapma</td></tr>
<tr><td colspan="2">Alt standart</td><td>1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2.</td></tr>
<tr><td colspan="3">Təlim nəticələri:<ul><li>Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.</li><li>Alberto Cakometti və onun əsərləri haqqında təqdimat edir.</li><li>Heykəlin abstrakt yapılmasında plastilin və ya gildən istifadə edir.</li><li>Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.</li></ul></td></tr>
<tr><td rowspan="2">Resurslar</td><td>müəllim üçün</td><td>heykəltəraşlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli</td></tr>
<tr><td>şagird üçün</td><td>dərslik, plastilin və ya gil</td></tr>
</table>

LAYİHƏ




**A** **İncəsənətə dair dialoq** blokunda incəsənətin hansı vasitələrlə insana təsir göstərdiyi cavablandırılır. Müzakirə şaxələndirmə (klaster) üsulu ilə aparıla bilər. Şagirdlərin fərziyyələri dinlənilir.

***Tədqiqat sualları:*** *Alberto Cakomettinin yaradıcılığının əsas xüsusiyyətləri nədir? Kubizm və ya sürrealizm üslubunda insan fiqurunu yapmaq üçün hansı ifadə vasitələrindən istifadə etmək olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokundakı heykəltəraşlığın inkişaf sahələri və növləri haqqında 6-cı və 7-ci siniflərdə verilən məlumatlar xatırlanır.

**Heykəltəraşlığın inkişaf sahələri**

- Monumental
- Monumental-dekorativ
- Dəzgah

LAYİHƏ

**Heykəltəraşlığın növləri**

- Dəyirmi
- Relyef

Ⓒ Dərsliyin **Tanış olun** hissəsində isveçrəli heykəltəraş, rəng ustası və qrafik rəssam Alberto Cakometti haqqında məlumat verilmişdir.

Ⓓ **Təsviri sənət qalereyası** blokunda Alberto Cakomettinin heykəlləri nümayiş etdirilir.

Heykəltəraş bürüncdən "İt" adlandırdığı fərqli bir heykəl düzəltmişdi. Heykəl tənhalıq və çaşqınlıq hissini təlqin edirdi. Alberto Cakometti düzəltdiyi itin cinsini göstərməmişdir. Lakin həmin heykəli Amerika Birləşmiş Ştatlarındakı Müasir İncəsənət Muzeyində görən hər kəs zərrəcə şübhələnmir ki, bu şah əsərin yaradılması üçün model olaraq məhz əfqan tazısı cinsi seçilib. Rəssamın özündən bu barədə soruşanda cavab vermişdi ki, "İt" də, "Pişik" də, hətta "Hörümçək" də onun avtoportretlərindən başqa bir şey deyil. Cakomettinin heykəlləri qırıq, yanmış kibrit çöplərinə oxşayır, "Pişik" heykəli elə məhz bu cürdür.




Alberto Cakometti öz heykəltəraşlıq təsvirlərinin xüsusi, unikal və tanınan tipini – uzadılmış, kövrək, səthi döyünən, öz ətrafındakı məkanı ovsunlayan fiqur tip-lərini formalaşdırmışdı.

Ⓔ **Görkəmli sənətkarlara** dair cədvəldə XX əsrin ən parlaq heykəltəraşı Alberto Cakomettinin həyat xronologiyası verilmişdir.



LAYİHƏ

**F** Mövzu hissə-hissə oxunub müzakirə olunur. **Düşünün və izah edin** blokundakı sual cavablandırılır.

**G** Dərsliyin **Bu maraqlıdır** blokunda şagirdlər Cakomettinin həm də dizaynerlik qabiliyyəti haqqında maraqlı məlumat əldə edirlər. **Bilirsinizmi?** blokunda isə heykəltəraşın portretinin 100 İsveçrə frankının üzərində təsvir olunduğu haqqında qeyd edilmişdir.

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Alberto Cakomettinin əsərlərinin hansı mövzularda olduğu müəyyən edilir.

**Yaradıcı fəaliyyət**

**2.** Cakomettinin yaratdığı heykəllərin tərzinə uyğun “İdman növü” və ya “İdmançı” mövzusu üzrə insan fiquru yapılır. Şagirdlər dərslikdə nümunələrlə və **Sənətkar məsləhəti** ilə tanış olurlar. Əlavə olaraq vəsaitdəki nümunələrdən də müəllim şagirdlərə kömək məqsədilə istifadə edə bilər.









**3.** Şagirdlər Alberto Cakomettinin yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdim edirlər.



LAYİHƏ

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Plastilin və ya gildən istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimat etməkdə çətinlik çəkir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatı suallar əsasında edir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları müəllimin köməyi ilə edir. | Müasir heykəltəraşlığın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Alberto Cakometti və onun əsərləri haqqında məlumata malikdir. | Alberto Cakometti və onun əsərləri haqqında təqdimat etməkdə çətinlik çəkir. | Alberto Cakometti və onun əsərləri haqqında təqdimatı nümunələr əsasında edir. | Alberto Cakometti və onun əsərləri haqqında təqdimat edir. |
| Heykəlin abstrakt yapılmasında plastilin və ya gildən istifadə etməkdə çətinlik çəkir. | Heykəlin abstrakt yapılmasında plastilin və ya gildən səliqəsiz istifadə edir. | Heykəlin abstrakt yapılmasında plastilin və ya gildən müəllimin köməyi ilə istifadə edir. | Heykəlin abstrakt yapılmasında plastilin və ya gildən istifadə edir. |
| Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini şərh edir, təqdimatlar etməkdə çətinlik çəkir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və sadə təqdimatlar edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |



LAYİHƏ

# 2. AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÜASİRLİYİN ƏKSİ




13. Mikayıl Useynov: memarlıqda konstruktivizmin prinsipləri
14. Mircavad Mircavadov: miqyas, rəng və forma
15. Ömər Eldarov: gözəllik və harmoniya
16. Tahir Salahov: neft mövzusu
17. Fazil Nəcəfov: insan təsvirində forma axtarışları
18. Arif Hüseynov: Azərbaycan nağılı
19. Fərhad Xəlilov: Abşeron motivləri
20. Sakit Məmmədov: müasir və klassik üslubun sintezi

LAYİHƏ

# 13 MİKAYIL USEYNOV: MEMARLIQDA KONSTRUKTİVİZMİN PRİNSİPLƏRİ

<table>
<tr><td colspan="2">Məşğələ növü</td><td>mövzu üzrə rəsm</td></tr>
<tr><td colspan="2">Alt standart</td><td>1.1.1.; 1.3.1.; 2.2.1.; 3.1.1.</td></tr>
<tr><td colspan="3">Təlim nəticələri:<br>• Müasir Azərbaycan memarlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Azərbaycanın görkəmli memarı Mikayıl Useynov və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Tikililər üzərində bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir.<br>• Memarlıqda milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir.</td></tr>
<tr><td rowspan="2">Resurslar</td><td>müəllim üçün</td><td>memarlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli</td></tr>
<tr><td>şagird üçün</td><td>dərslik, sadə karandaş və qələmlər, rəngli karandaşlar, flomasterlər</td></tr>
</table>










**H** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda konstruktivizm incəsənətin hansı növlərində əks oluna bilindiyi müzakirə edilir. Bunun üçün BİBÖ cədvəli qurmaq tövsiyə

LAYİHƏ

olunur. Şagirdlər birinci sütunda konstruktivizm haqqında bildiklərini, ikincidə bu üslub haqqında nə bilmək istədiklərini qeyd edirlər.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| | | |

XX əsrin müasir incəsənəti bütün növləri ilə yanaşı, bu dövr memarlığını da əhatə etmişdir. Memarlıqda ən geniş inkişaf etmiş istiqamət konstruktivizm idi. “Qənaət, fayda və gözəllik” – konstruktivizmin əsas devizi idi. Üslubun yaranmasının ilk qığılcımları XIX əsrin sonlarında özünü göstərdi. Memarlar daş və ağacdan imtina edərək, şüşə, dəmir-beton konstruksiyalardan irihəcmli tikililər yaratmağa nail oldular. Bakının konstruktivizm memarlığının ən yaxşı nümunələrinin müəllifi Mikayıl Useynovdur.

***Tədqiqat sualları:*** *Mikayıl Useynov yaratdığı memarlıq nümunələrində hansı üsluba üstünlük vermişdir? Tikilinin eskizinin yaradılmasında forma, konstruksiya, konstruktivizmin rolu nədən ibarətdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırlayın** bloku müzakirə olunur. Konstruktivizmin əsas xüsusiyyətlərin hansılar olduğu soruşulur. Şagirdlərin fərziyyələri dinlənilir.

C Şagirdlər dərsliyin **Tanış olun** blokunda verilmiş memarlıq nümunələri, onların xüsusiyyətləri, cəmiyyətdə rolu haqqında müzakirə aparırlar. Yeni mövzu ilə tanış olmaq üçün mətn bloklara uyğun ayrılır və fasilələrlə oxu üsulundan istifadə edilir.

Müəllim bu dərsdə “dəyirmi masa” (karusel) üsulundan da istifadə edə bilər. Bu üsul şagirdlərin memarın layihələndirdiyi məşhur tikililər haqqında bilikləri təkrarlamağa kömək edər.

Dərslikdə Mikayıl Useynovun müxtəlif illərdə layihələndirdiyi tikililərin fotoşəkli verilmişdir. Azərbaycan konstruktivizminin görkəmli təmsilçisi, respublikada sovet memarlığının yaradıcılarından biri olan memar Mikayıl Useynov XX əsr Azərbaycan memarlıq tarixində xüsusi yer tutur. Bakı memarlığının ən yaxşı nümunələrinin müəllifi Mikayıl Useynovdur. Həmin nümunələrin ideyası və təcəssüm üslubu indi də bizim paytaxtımız üçün aktuallığını saxlayır. Bu sənətkarın yaradıcılığında ən vacib olan məqam – dünya memarlığının qabaqcıl və yeni meyillərindən imtina etmədən Azərbaycan memarlığına milli koloriti gətirməsidir.

E **Görkəmli sənətkarlar**a dair cədvəldə XX əsrdə Azərbaycan memarlığını zəngin-

LAYİHƏ

ləşdirmiş, onun tarixində silinməz izlər qoymuş Mikayıl Useynovun həyat xronologiyası verilmişdir.

**F** **Düşünün və izah edin** blokunda şagirdlər Bakı şəhərində M.Useynovun layihələri əsasında inşa edilən binaların adlarını söyləyir və onların ümumi cəhətləri haqqında danışırlar. Digər suala cavabda isə Bakı şəhərində M.Useynovun memarı olduğu və heykəltəraş Fuad Əbdürrəhmanovla birlikdə layihələndirdiyi abidələrin kimlərin xatirəsinə ucaldıldığı izah edilir. Heykəllərin yaradılmasında niyə memarların da iştirakının vacibliyi haqqında fikirlər dinlənilir və əsaslandırılır.

**G** **Bilirsinizmi?** blokunda konstruktivizmin banisi Le Korbuzye haqqında məlumat verilmişdir. O, memarlıqda yenilik edərək binanın konstruktiv elementlərindən fasada gözəllik verən elementlər kimi istifadə edir. Le Korbuzye yaradıcılığında konstruktivizmın beş prinsipindən istifadə edirdi: sütunlar üzərində dayanan tikili, fasadın sərbəst kompozisiyası, zolaqvarı pəncərələr, konstruksiya daxilində sərbəst planlaşdırma, düz terras-dam.

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Müxtəlif mənbələrdən istifadə edərək müasir və keçmiş illərin memarlığının xüsusiyyətləri haqqında danışın.

**Yaradıcı fəaliyyət**

**2. a)** Şagirdlərə dünyanın hər hansı bir paytaxt şəhərinin konstruktivizm nümunəsi olan ən məşhur, onun "vizit kartı" sayılan tikilisinin siluetini çəkmək və ya qara kağızdan kəsib hazırlamaq tapşırılır; məsələn: Fransanın paytaxtı Parisdə ucalan Eyfel qülləsi.

**b)** Şagirdlər konstruktivizm üslubunda ictimai və ya yaşayış binasının eskizini çəkirlər. Tikilinin görünüşü sütunlar üzərində dayanan iri şüşə səthli və düz səthli ola bilər. Binanın eskizini elə çəkmək lazımdır ki, o həm qarşıdan, həm də yandan görünsün.

**3.** Mikayıl Useynovun yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdimat etmək tapşırılır.

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

LAYİHƏ

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Tərtibat və dizayn bacarıqları nümayiş etdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir Azərbaycan memarlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar etməkdə çətinlik çəkir. | Müasir Azərbaycan memarlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar etmək üçün nümunələr hazırlayır. | Müasir Azərbaycan memarlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları nümunələr əsasında edir. | Müasir Azərbaycan memarlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Azərbaycanın görkəmli memarı Mikayıl Useynov və onun əsərlərini ayırır. | Azərbaycanın görkəmli memarı Mikayıl Useynov və onun əsərləri haqqında təqdimatları etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli memarı Mikayıl Useynov və onun əsərləri haqqında təqdimatları nümunələrə uyğun bəsit formada edir. | Azərbaycanın görkəmli memarı Mikayıl Useynov və onun əsərləri haqqında geniş təqdimatlar edir. |
| Tikililər üzərində bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirməkdə çətinlik çəkir. | Tikililər üzərində bədii tərtibat və dizayn bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Tikililər üzərində sadə bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | Tikililər üzərində bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |
| Memarlıqda milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə sadə formada izah edir. | Memarlıqda milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə şərh edir, təqdimatlar etməkdə çətinlik çəkir. | Memarlıqda milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə qiymətləndirir və sadə təqdimatlar edir. | Memarlıqda milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 14 MİRCAVAD MİRCAVADOV: MİQYAS, RƏNG və FORMA

| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
|---|---|---|
| Alt standart | | 1.3.1.; 2.1.2.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Təsviri sənətin mifoloji janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Mifoloji canlının abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər və quaşdan istifadə edir.<br>• M.Mircavadovun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | əsərlərdən nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş |




**A** Müəllim dərsin “motivasiya” mərhələsini dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sual və ya istənilən vasitələrlə qura bilər.

– Rəngkarlıq əsərlərinin miqyası nəyə əsasən seçilir? Əsərlərdə rəng və forma bir-biri ilə necə əlaqəlidir? *(fərziyyələr)*

***Tədqiqat sualları:*** *Mircavad Mircavadovun yaradıcılığının və əsərlərinin əsas xüsusiyyətləri nədədir? Mifoloji rəsm çəkərkən nəyi nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokunda verilmiş sual əsasında müzakirə aparılır.

LAYİHƏ

C Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, yeni mövzunu sərbəst müzakirə edirlər. Görkəmli fırça ustası Mircavad Mircavadov Azərbaycan rəssamlığında müasir istiqamətin və "Abşeron məktəbi"nin banisi kimi tanınır. Azərbaycan incəsənətinə improvizasiya və sərbəstlik gətirən rəssam tamamilə yeni üfüqlərin açılmasına səbəb oldu. Qiyamçı və eksperimentator, nonkonformist və novator olan M.Mircavadovun əsərləri Azərbaycan təsviri sənətinə böyük təsir göstərdi. M.Mircavadovun əsərlərini ya qeyd-şərtsiz qəbul, ya da rədd edirdilər, lakin onun yaradıcılığı zaman baxımından bizdən uzaqlaşdıqca rəssamın müasir Azərbaycan incəsənəti tarixində tutduğu yerin unikallığı daha aydın görünməkdədir. Rəssam bu mövqeyi sovet dönəmində uzun illər davam edən sükut və biganəlikdən sonra qazanıb.

D **Təsviri sənət qalereyası** blokunda M.Mircavadovun əsərləri müzakirə olunur. Mircavad Mircavadovun ən erkən rəngkarlıq əsəri "Yırtıcı"dır. Burada ayaqları sarılı, arxası üstə atılmış qoyun, yaxında isə – bir canlı, dişini ağartmış, torbasayağı gövdəsi olan qeyri-adam təsvir olunub. Rəssamın ətraf mühiti təsvir edərkən müxtəlif emosional və psixoloji nüanslarını Div obrazında görmək mümkündür. M.Mircavadovun əsərlərindəki digər sabit obraz qadındır. O, xeyirxah və qəddar, zəhmətkeş və çox qəşəng, nəhayət, ağıllı və şəhvətpərəst ola bilir.

E **Görkəmli sənətkarlar**a dair cədvəldə M.Mircavadovun yaradıcılığı – həyat xronologiyası verilmişdir.

F **Düşünün və izah edin** blokunda Azərbaycanın hansı rəssamının Mircavad Mircavadova üslub, əsər qəhrəmanları və düşüncə tərzinə görə yaxın olduğu haqqında şagirdlərin fərziyyələri də dinlənilir.

G **Bilirsinizmi?** blokunda rəssamın Salvador Daliyə həsr etmiş "Ümid işığı" əsəri haqqında məlumat öz əksini tapır.

H **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** "Mircavad Mircavadovun dərslikdə verilmiş əsərlərinin əsas mövzusunu nə təşkil edir?" sualına cavab müəyyən edilir.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlər rəng təzadını və forma müxtəlifliyini nəzərə alaraq qeyri-adi mifoloji canlını və onun ətrafını təsvir edirlər.

**3.** M.Mircavadovun yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdimat etmək tapşırılır.

I Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

LAYİHƏ

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə.
- Təsvir materiallarından istifadəetmə.
- Təqdimatetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin mifoloji janrının xarakterik xüsusiyyətləri haqqında məlumata malikdir. | Təsviri sənətin mifoloji janrını xarakterik xüsusiyyətlərinə görə ayırır. | Təsviri sənətin mifoloji janrını xarakterik xüsusiyyətlərinə görə izah edir. | Təsviri sənətin mifoloji janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Mifoloji canlının abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaşdan istifadədə çətinlik çəkir. | Mifoloji canlının abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər və quaşdan səliqəsiz istifadə edir. | Mifoloji canlının abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər və quaşdan müəllimin köməyi ilə istifadə edir. | Mifoloji canlının abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər və quaşdan sərbəst istifadə edir. |
| M.Mircavadovun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə ayırır. | M.Mircavadovun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə izah edir. | M.Mircavadovun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə qiymətləndirir və sadə təqdimatlar edir. | M.Mircavadovun əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 15 ÖMƏR ELDAROV: GÖZƏLLİK VƏ HARMONİYA

| **Məşğələ növü** | | yapma |
|---|---|---|
| Alt standart | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Ömər Eldarov və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Əsgər fiqurunun yapılmasında plastilin və ya gildən istifadə edir.<br>• Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | heykəltəraşlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, plastilin və ya gil |




**A** **İncəsənətə dair dialoq** blokunda verilmiş sual müzakirə olunur.

***Tədqiqat sualları:*** *Ömər Eldarov yaradıcılığının əsas xüsusiyyətləri nədir? Əsgər fiquru yapmaq üçün hansı mərhələlərə əməl etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokundakı sual müzakirə olunur.

**C** Dərsliyin **Tanış olun** blokunda görkəmli heykəltəraş Ömər Eldarovun yaratdığı əsərlərdə psixoloji ifadə həllinin bolluğu, məzmunla formanın güclü vəhdəti, zəriflik, kamillik öz əksini tapmışdır.

**D** **Təsviri sənət qalereyası** blokunda verilmiş Ömər Eldarovun əsərlərində insan obrazlarında hərəkət və emosiyalar təhlil edilir.

LAYİHƏ





**Görkəmli sənətkarlara** dair cədvəldə plastikanın yeni imkanlarını kəşf etmiş böyük heykəltəraş, XX və XXI əsrin ən parlaq sənətkarlarından olan Ömər Eldarovun həyat xronologiyası verilmişdir.

**Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Ömər Eldarovun əsərlərinin oxşar və fərqli cəhətləri müəyyən edilir.

**Yaradıcı fəaliyyət**

**2.** Plastilin və yaxud gildən hərəkətdə olan əsgər fiquru yapılır.





LAYİHƏ




**3.** Şagirdlər Ömər Eldarovun yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat edirlər.

Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Plastilin və ya gildən istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair məlumata malikdir. | Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair məlumat hazırlayır. | Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Ömər Eldarov və onun əsərləri haqqında məlumata malikdir. | Ömər Eldarov və onun əsərləri haqqında təqdimatları suallar əsasında edir. | Ömər Eldarov və onun əsərləri haqqında sadə təqdimatlar edir. | Ömər Eldarov və onun əsərləri haqqında təqdimatlar edir. |
| Əsgər fiqurunun yapılmasında plastilin və ya gildən istifadədə çətinlik çəkir. | Əsgər fiqurunun yapılmasında plastilin və ya gildən səliqəsiz istifadə edir. | Əsgər fiqurunun yapılmasında plastilin və ya gildən müəllimin köməyi ilə istifadə edir. | Əsgər fiqurunun yapılmasında plastilin və ya gildən istifadə edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini şərh edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və bəsit təqdimatlar edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

# 16 TAHİR SALAHOV: NEFT MÖVZUSU

| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
|---|---|---|
| Alt standart | | 1.2.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Süjetli əsərləri xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Tahir Salahov və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Neft daşları və neftçiləri real və abstrakt təsvir edir.<br>• Süjetli əsərlərin xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | rəssam əsərlərinə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, akvarel və ya quaş |




**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş *"Rəngkarlıq əsərinin məzmunu dedikdə nə başa düşülür?"* sualı müzakirə edilir.



LAYİHƏ

***Tədqiqat sualları:*** *Tahir Salahovun yaradıcılığında mövzunun məzmunu nədən ibarətdir? Mövzu üzrə rəsmi çəkmək üçün nələrə diqqət yetirmək vacib sayılır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur. Müəllim şagirdlərə əvvəlki siniflərdə keçdikləri süjetli əsərlər barədə xatırlada bilər:

– Süjetli əsərlərin janr müxtəlifliyinin (bölgüsünün) hər biri haqqında danışın.




**C** Şagirdlər dərslikdə verilmiş məzmunla, süjetli əsərlərin müxtəlifliyi ilə tanış olurlar. Müasir dövrümüzün məşhur azərbaycanlı rəssamlarından biri, ən çox mövzu janrında işləyən Tahir Salahovdur. O öz yaradıcılığında neft mövzusuna xüsusi yer verir. Neft mövzusunda əsərlərini yaratmamışdan qabaq rəssam bir neçə il bu sadə neftçilərlə yaşamış, onlarla birlikdə buruq platformasında getmişdir. Əsərlərindəki obazlar konkret fəhlələrə məxsusdur, onlarla tanış olmuş və dostlaşmışdır. Şagirdlər dərslikdə verilmiş mətni oxuyub sonra təhlil edirlər.

**D** Rəssamın neft mövzusu ilə bağlı ən məşhur əsərləri **Təsviri sənət qalereyası** blokunda müzakirə edilir.



***"Sənə, bəşəriyyət!". 1961***

LAYİHƏ



*“Səhər eşelonu”. 1958*



*“Yeni dəniz”. 1970*

**E** **Görkəmli sənətkarlar**a dair cədvəldə dünya şöhrətli rəssam Tahir Salahovun həyat xronologiyası verilmişdir.

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** T.Salahovun verilmiş əsərlərində hansı kolorit müşahidə olunur? Şagirdlər bu barədə bildiklərini izah edirlər.

**Yaradıcı fəaliyyət**

**2.** Neft və neftçilər mövzusunda süjetli rəsm çəkmək tapşırılır.

**3.** Şagirdlər T.Salahovun yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat edirlər.

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə.
- Təqdimatetmə.
- Təsviretmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Süjetli əsərləri xarakterik xüsusiyyətlərinə görə ayırır. | Süjetli əsərləri xarakterik xüsusiyyətlərinə görə suallar əsasında izah edir. | Süjetli əsərləri xarakterik xüsusiyyətlərinə görə izah edir. | Süjetli əsərləri xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Tahir Salahov və onun əsərləri haqqında məlumata malikdir. | Tahir Salahov və onun əsərləri haqqında təqdimatları | Tahir Salahov və onun əsərləri haqqında sadə təqdimatlar edir. | Tahir Salahov və onun əsərləri haqqında təqdimatlar edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| | müəllimin köməyi ilə edir. | | |
| Neft daşları və neftçilərin real və abstrakt təsvirində çətinlik çəkir. | Neft daşları və neftçilərin real və abstrakt təsvirində kiçik səhvlərə yol verir. | Neft daşları və neftçilərin real və abstrakt təsvirində müəllimin köməyindən istifadə edir. | Neft daşları və neftçilərin real və abstrakt təsvir edir. |
| Süjetli əsərlərin xarakterik xüsusiyyətlərinin emosional təsiri haqqında bilir. | Süjetli əsərlərin xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Süjetli əsərlərin xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və sadə təqdimatlar edir. | Süjetli əsərlərin xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

# 17 FAZİL NƏCƏFOV: İNSAN TƏSVİRİNDƏ FORMA AXTARIŞLARI

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | yapma |
| Alt standart | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Fazil Nəcəfov və onun əsərləri haqqında təqdimatlar edir.<br>• İnsan obrazının real və abstrakt yapılmasında plastilin və ya gildən istifadə edir.<br>• Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | heykəltəraşlığa aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, plastilin və ya gil, karton |

LAYİHƏ



(A) Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sual cavablandırılır.

***Tədqiqat sualları:*** *Fazil Nəcəfovun yaradıcılığının əsas xüsusiyyətləri nədir? İnsan obrazını və ona xas olan hallarını yaratmaq üçün hansı mərhələlərə əməl etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

(B) **Xatırlayın** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur.

(C) Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, müasir Azərbaycan heykəltəraşlığının ən parlaq nümayəndələrindən biri olan Fazil Nəcəfov haqqında məlumat alırlar. Monumentallıq, yığcam həcmlilik, dəqiq və inamlı kompozisiya həlli sənətkarın əsərlərinin səciyyəvi cəhətlərindəndir. Yaradıcılığında bədii təxəyyüldən doğan sərbəst, cəsarətli formalara müraciət etdiyini, orijinal ideyalara malik olduğunu, daim yeni obrazlar axtardığını ətrafdakılar da müşahidə edirdi.

(D) **Təsviri sənət qalereyası** blokunda verilmiş Fazil Nəcəfovun əsərləri müzakirə olunur. Ustad yaratdığı büstlərdə modelin xırda təfərrüatlarına varmayaraq insan hislərini qabardır. Onun heykəllərində insan taleyi və həyəcanı öz plastik həllini tapır.

(E) **Görkəmli sənətkarlar**a dair cədvəldə heykəltəraş Fazil Nəcəfovun həyat xronologiyası verilmişdir.

(G) **Bu maraqlıdır** blokunda F.Nəcəfovun son illərə aid əsərlərindən biri – “Zamanın oyunları” adlı əsəri təhlil olunur. Bu, plastik rəmzlər, portret və müdrik sözlərdən ibarət geniş, əhatəli fəlsəfi proqramdır. Əsərdə qədim əsgərin cəng arabasında yerləşdirilmiş maska-dəbilqəsi göstərilmişdir. Burada konkret tarixi ünvan yoxdur.

(F) **Düşünün və izah edin** blokunda F.Nəcəfovun əsərlərində fəlsəfi baxışların nədən irəli gəldiyi təhlil olunur.



LAYİHƏ

**H Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** F.Nəcəfovun dərslikdə verilmiş heykəltəraşlıq əsərlərini mövzu, material və texnika baxımından şərh edin.

**Yaradıcı fəaliyyət**

**2.** İnsan obrazı yaratmağa çalış. Burada insana xas olan halları – dərd, kədər, ağrı, sevinc, təəccüb və s.-ni göstərin.

**3.** F.Nəcəfovun həyat və yaradıcılığı haqqında əlavə məlumat toplayıb və təqdimat edin.

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyəti haqqında məlumata malikdir. | Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair nümunələr hazırlayır. | Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Müasir Azərbaycan heykəltəraşlığının cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Fazil Nəcəfov və onun əsərləri haqqında təqdimatları etməkdə çətinlik çəkir. | Fazil Nəcəfov və onun əsərləri haqqında təqdimatları etmək üçün nümunələr hazırlayır. | Fazil Nəcəfov və onun əsərləri haqqında sadə təqdimatlar edir. | Fazil Nəcəfov və onun əsərləri haqqında təqdimatlar edir. |
| İnsan obrazının real və abstrakt yapılmasında plastilin və ya gildən istifadə etməkdə çətinlik çəkir. | İnsan obrazının real və abstrakt yapılmasında plastilin və ya gildən səliqəsiz istifadə edir. | İnsan obrazının real və abstrakt yapılmasında plastilin və ya gildən müəllimin köməyi ilə istifadə edir. | İnsan obrazının real və abstrakt yapılmasında plastilin və ya gildən istifadə edir. |
| Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsiri haqqında bilir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini şərh edərək sadə təqdimatlar edir. | Heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |



LAYİHƏ

# 18 ARİF HÜSEYNOV: AZƏRBAYCAN NAĞILI

<table>
<tr><td colspan="2">Məşğələ növü</td><td>mövzu üzrə rəsm</td></tr>
<tr><td colspan="2">Alt standart</td><td>1.1.1. ; 1.2.1.; 1.3.1.; 3.1.2.</td></tr>
<tr><td colspan="3">Təlim nəticələri:<br>• Müasir Azərbaycan incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Rəngkarlıq və dəzgah qrafikasını xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Arif Hüseynov və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Rəngkarlıq və dəzgah qrafikasının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.</td></tr>
<tr><td rowspan="2">Resurslar</td><td>müəllim üçün</td><td>rəssam əsərlərindən nümunələr (slayd və ya foto), iş vərəqləri, meyar cədvəli</td></tr>
<tr><td>şagird üçün</td><td>dərslik, flomasterlər, pastel təbaşirlər, rəngli qələmlər, quaş</td></tr>
</table>




**A** Mövzuda dərsliyin **İncəsənətə dair dialoq** blokundakı suallar müzakirə olunur.

***Tədqiqat sualları:*** *Dəzgah qrafikasının yaranmasına nə səbəb oldu? Rəngli və ya qrafik illüstrasiya çəkmək üçün hansı bədii ifadə vasitələrindən istifadə etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** bloku şagirdlərin əvvəl bildiklərini yada salmaq məqsədilə birlikdə müzakirə olunur.

**C** Qrafika sənətinin bədii və texniki imkanlarına kifayət qədər bələd olan və ağ-qara cizgilərlə onlara yığcam rəng ovqatının qatılmasını bədii-psixoloji təsir gücünün



LAYİHƏ

artırılmasına yönəltməklə daha təsirli ifadə vasitələrinə can atan rəssam sonda cəlbediciliyi ilə yanaşı, həm də dərin fəlsəfi yüklü əsərlər yaratmağa nail olmuşdur.

D Şagirdlər **Təsviri sənət qalereyası** blokunda verilmiş əsərlərlə tanış olurlar. Arif Hüseynov azərbaycanlıların həyatını, adət-ənənələrini, vərdişlərini Azərbaycan nağılları və folkloru nöqteyi-nəzərindən aydın və maraqlı, yumor və fantaziya ilə əks etdirən rəngkarlıq və qrafika əsərləri yaratmışdır. Bənzərsiz nağıl xəzinəsini hər kəs uşaqlıqdan sevir və kəşf edir. O zamanlar xəyalda canlanan əşyalar, danışan heyvanlar və quşlar, qəhrəmanların igidlikləri oxucunu zəngin sehrə salırdı. Rəssamın öz təxəyyülü cadugərlərin, divlərin, hiyləgər vəzirlərin və qəddar hökmdarların, olduqca gözəl qəhrəmanların görünüşünü tamamlayırdı.





LAYİHƏ

 

*“Azərbaycan nağılları” silsiləsindən*

**E Görkəmli sənətkarlar**a dair cədvəldə Arif Hüseynovun həyat xronologiyası verilmişdir.

**H Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** A.Hüseynovun verilmiş əsərlərində dəzgah qrafikası və rəngkarlıq əsərləri arasında üslub fərqini şərh edin.

**Yaradıcı fəaliyyət**

**2. a)** Bildiyiniz və sevdiyiniz Azərbaycan nağıllarına illüstrasiya çəkin. Rəsmlərinizdə rəng həllini, şərti dekorativlik üslubunu göstərməyə çalışın.

**b)** Oxuduğunuz və sizə maraqlı gələn hər hansı bir hekayə və dastana qrafik illüstrasiya çəkin. Təsvir elementləri ilə nümunələrdə tanış ola bilərsiniz.

LAYİHƏ









**3.** Şagirdlər A.Hüseynov və onun yaradıcılığı haqqında təqdimat hazırlayırlar.

İ Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə.
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir Azərbaycan incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair məlumata malikdir. | Müasir Azərbaycan incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair nümunələr hazırlayır. | Müasir Azərbaycan incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları müəllimin köməyi ilə edir. | Müasir Azərbaycan incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Rəngkarlıq və dəzgah qrafikasını xarakterik xüsusiyyətlərinə görə ayırır. | Rəngkarlıq və dəzgah qrafikasını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə izah edir. | Rəngkarlıq və dəzgah qrafikasını xarakterik xüsusiyyətlərinə görə izah edir. | Rəngkarlıq və dəzgah qrafikasını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Arif Hüseynov və onun əsərləri haqqında təqdimatlar etməkdə çətinlik çəkir. | Arif Hüseynov və onun əsərləri haqqında təqdimatları müəllimin köməyi ilə edir. | Arif Hüseynov və onun əsərləri haqqında sadə təqdimatlar edir. | Arif Hüseynov və onun əsərləri haqqında təqdimatlar edir. |
| Rəngkarlıq və dəzgah qrafikasının xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Rəngkarlıq və dəzgah qrafikasının xarakterik xüsusiyyətlərinin emosional təsirini şərh edir. | Rəngkarlıq və dəzgah qrafikasının xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və sadə təqdimatlar edir. | Rəngkarlıq və dəzgah qrafikasının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

# 19 FƏRHAD XƏLİLOV: ABŞERON MOTİVLƏRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | naturadan rəsm |
| Alt standart | | 1.2.1.; 1.3.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Fərhad Xəlilov və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Abşeron motivlərini real və abstrakt təsvirində rəngli karandaşlar, pastel təbaşirlər, quaşdan istifadə edir.<br>• Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | əsərlərdən nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, pastel təbaşirlər, quaş |

LAYİHƏ




A Müəllim dərsin “motivasiya” mərhələsini dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sual və ya istənilən vasitələrlə qura bilər.

***Tədqiqat sualları:*** *Fərhad Xəlilovun yaradıcılığının və əsərlərinin əsas xüsusiyyətləri nədədir? Abstrakt üslubda Abşeron motivlərini çəkərkən nəyi nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırlayın** blokunda rəssamların abstrakt mənzərə təsvirlərinin ifadəsində hansı elementlərdən istifadə etdikləri müzakirə olunur.

C Öz fərqli qavrama tərzi, dünyaya özünəməxsus baxışı, fərdi ifadə sistemi onu digərlərindən fərqləndirirdi. Fərhad Xəlilov təkrarolunmaz və rəngarəng rəsm üslubu ilə tanınan sənətkarlardandır. Rəssamın əsərləri yaşadığı mühit çərçivəsində, Qafqaz regionunda unikal hesab edilir.

Rəssamın Abşeron mənzərələri – ona doğma olan və Azərbaycanın müxtəlif yerlərinin mənzərələridir. Fərhad Xəlilovun yaradıcılığında Abşeron motivləri əhəmiyyətli yer tutur.

D **Təsviri sənət qalereyası** blokunda Fərhad Xəlilovun natürmortlarında kompozisiya, rəng və işıq həlli müzakirə olunur.

Fərhad Xəlilovun yetkin yaradıcılığı – 1970-ci illərdən başlayaraq hazırkı vaxtadək rəngkarlıq prinsiplərini özündə əks etdirən inkişafıdır. Lakin şərti olaraq onu bir neçə mərhələyə ayırmaq olar. Birinci mərhələ – doğma landşaftla bağlı, lakin Avropa avanqardının müəyyən ənənəsinin təsiri hiss olunan rəngkarlıq nümunələrinin yarandığı dövrdür. İkincisi – rəssamın öz əvvəlki dünyaduyumuna tapınaraq mütərəqqi ifadə vasitələrinə tam keçid mərhələsidir.

E **Görkəmli sənətkarlar**a dair cədvəldə Fərhad Xəlilovun yaradıcılığı – həyat xronologiyası verilmişdir.

H **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

LAYİHƏ

**1.** F.Xəlilovun əsərlərində əsas mövzuların nədən bəhs olunduğunu izah edin. Verilən cavablara əsasən şagirdlər öz seçimlərini əsaslandırırlar.

**Yaradıcı fəaliyyət**

**2.** “Abşeron motivləri” adlı maraqlı rəsm çəkin. Bu, fəsillərin dəyişdiyi mənzərə, bol məhsullu natürmort, yaxud adət-ənənələri əks etdirən süjetli əsər ola bilər. Müəllim şagirdləri mövzunun tapşırığına uyğun qruplara ayıraraq 1-ci qrupa – mənzərə, 2-ci qrupa – bol məhsullu natürmort, 3-cü qrupa isə adət-ənənələrimizi əks etdirən süjetli rəsm çəkməyi tapşıra bilər.

**3.** Fərhad Xəlilov haqqında maraqlı məlumat toplayın və təqdimat edin.

I Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə.
- Təqdimatetmə.
- Təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə sadə şəkildə izah edir. | Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Fərhad Xəlilov və onun əsərləri haqqında məlumata malikdir. | Fərhad Xəlilov və onun əsərləri haqqında təqdimatlara dair materiallar toplayır. | Fərhad Xəlilov və onun əsərləri haqqında bəsit təqdimatlar edir. | Fərhad Xəlilov və onun əsərləri haqqında təqdimatlar edir. |
| Abşeron motivlərinin real və abstrakt təsvirində rəngli karandaşlar, pastel təbaşirlər və quaşdan səliqəsiz istifadə edir. | Abşeron motivlərinin real və abstrakt təsvirində rəngli karandaşlar, pastel təbaşirlər və quaşdan istifadə edəndə səhvlərə yol verir. | Abşeron motivlərinin real və abstrakt təsvirində rəngli karandaşlar, pastel təbaşirlər və quaşdan müəllimin köməyi ilə istifadə edir. | Abşeron motivlərinin real və abstrakt təsvirində rəngli karandaşlar, pastel təbaşirlər və quaşdan istifadə edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Təsviri sənətin janr-larının xarakterik xüsusiyyətlərinin emosional təsiri haqqında məlumata malikdir. | Təsviri sənətin janr-larının xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Təsviri sənətin janr-larının xarakterik xüsusiyyətlərinin emosional təsirini şərh edərək bəsit təqdimatlar edir. | Təsviri sənətin janr-larının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

# 20 SAKİT MƏMMƏDOV: MÜASİR VƏ KLASSİK ÜSLUBUN SİNTEZİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | naturadan rəsm |
| Alt standart | | 1.2.1.; 1.3.1. ; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Portret janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Sakit Məmmədov və onun əsərləri haqqında təqdimatlar edir.<br>• Portretin real və abstrakt təsvirində pastel təbaşirlər və akvareldən istifadə edir.<br>• Portret janrının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| Resurslar | müəllim üçün | rəssam reproduksiyaları (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, pastel təbaşirlər, quaş |



**H** Mövzunu dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sualın müzakirəsi

LAYİHƏ

ilə başlamaq olar. Bunun üçün müəllim şagirdlərin hansı üslublarla tanış olduqlarını şaxələndirmə üsulu ilə araşdıra bilər.

**ÜSLUBLAR**

- İmpressionizm
- Kubizm
- Sürrealizm
- Ekspressionizm
- Abstraksionizm
- Avanqard

***Tədqiqat sualları:*** *Sakit Məmmədovun yaradıcılığının əsas xüsusiyyətləri hansılardır? Akvarel ilə portret çəkmək üçün hansı mərhələlərə əməl etmək vacibdir?*
Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırlayın** bloku təhlil olunur. İmpressionist rəssamların adətən hansı mövzulara üstünlük verdikləri araşdırılır.

C **Tanış olun** blokunda Sakit Məmmədovun istedadının formalaşmasına müxtəlif dövr rəssamları təsir göstərib və Avropa təhsilli bu sənətkar Şərqin dərin fəlsəfi düşüncəsini və təmtəraqlı şux boyalarını rəngkarlığa gətirib.

D Şagirdlər Sakit Məmmədovun **Təsviri sənət qalereyası** blokunda əsərlərində portret janrının xüsusiyyətləri, rəssamın özünəməxsus tərzdə çəkdiyi nümunələr ilə tanış olurlar.

E **Görkəmli sənətkarlar**a dair cədvəldə Sakit Məmmədovun həyat xronologiyası verilmişdir.

F **Düşünün və izah edin** blokunda verilmiş suala cavab axtarılır.

– İmpressionist rəssamların və Sakit Məmmədovun üslub tərzi arasında fərq nədədir?

H **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** S.Məmmədovun əsərlərində kompozisiya, kolorit və mövzunun məzmunu nədən ibarətdir?

**Yaradıcı fəaliyyət**

**2.** Tanınmış sima, məşhur insan və ya dostunuzun portretini çəkin. Şagirdlər 3 qrupa ayrılır. 1-ci qrup – tanınmış simanın, 2-ci qrup – ən çox pərəstiş etdiyi məşhur insanın, 3-cü qrup isə dostunun portretini yaradır. **Sənətkar məsləhəti**ndə verilmiş akvarel texnikasındakı portretin çəkilmə qaydaları ilə tanış olurlar.

**3.** Şagirdlər S.Məmmədovun yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat hazırlayırlar.



LAYİHƏ

I Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə.
- Təqdimatetmə.
- Akvareldən istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Portret janrını xarakterik xüsusiyyətlərinə görə ayırır. | Portret janrını xarakterik xüsusiyyətlərinə görə suallar əsasında izah edir. | Portret janrını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Portret janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| S.Məmmədov və onun əsərləri haqqında məlumata malikdir. | S.Məmmədov və onun əsərləri haqqında təqdimat etmək üçün material hazırlayır. | S.Məmmədov və onun əsərləri haqqında bəsit təqdimatlar edir. | S.Məmmədov və onun əsərləri haqqında təqdimatlar edir. |
| Portretin real və abstrakt təsvirində akvarelin istifadəsində çətinlik çəkir. | Portretin real və abstrakt təsvirində akvareldən səliqəsiz istifadə edir. | Portretin real və abstrakt təsvirində akvareldən müəllimin köməyi ilə istifadə edir. | Portretin real və abstrakt təsvirində akvareldən sərbəst istifadə edir. |
| Portret janrının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | Portret janrının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | Portret janrının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | Portret janrının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 3. ƏTRAFIMIZDA OLAN RƏSSAM YARADICILIĞI




**21. Rəssam və teatr sənəti**
**22. Rəsm əsərindən fotoşəklə qədər**
**23. Fotoqrafiya və kompüter**
**24. Rəssam və kino sənəti**
**25. Animasiya sənəti**
**26. Karikatura və şarj: şəkilli əhvalatlar**
**27: Televiziya: rəssam və ekran**



LAYİHƏ

# 21 RƏSSAM və TEATR SƏNƏTİ

| | | |
| --- | --- | --- |
| **Məşğələ növü** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt standart** | | 1.1.1.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Teatr sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Teatr rəssamının əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | | |
| **Resurslar** | müəllim üçün | teatr sənətinə dair nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, rəngli qələmlər, quaş |










Müəllim teatr sənəti ilə bağlı müəyyən atributlar və elementlər göstərərək onların nəyə aid olduğunu soruşur.



LAYİHƏ





**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda olan sual araşdırılır:

**-** Tabloda təsvir edilən hər bir şey – rəssamın əl işidir. Tamaşanın müəllifinin kimliyi, rəssamın rolunun nədən ibarət olduğu bizə həmişə aydındırmı? *(fərziyyələr)*

***Tədqiqat sualları:*** *Teatr sənətinin əsas xüsusiyyətləri nədən ibarətdir? Tamaşanın hazırlanması üçün hansı mərhələləri nəzərə almaq vacibdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** bloku təhlil olunur:

– Hansı Azərbaycan rəssamları teatr üçün dekorasiya və geyim eskizləri hazırlayıblar?

**C** Müasir təsviri sənət çoxcəhətli və çoxsimalıdır. Ənənəvi təsvir formaları – rəsm, rəngkarlıq, heykəltəraşlıq ilə yanaşı, texnikanın doğurduğu yeni formalar meydana gəlir. Fotoqrafiya, kino, video bunlara aiddir. Bu yeniliklərin meydana çıxması rəssamın təsviretmə və yaradıcılıq imkanlarını genişləndirir, çünki onlarda rəssam və rəssam baxışı istedadı var. Axı rəssam təkcə rəsm çəkən deyil, həm də dünyanı özünəməxsus qavrayan şəxsdir. Müəllim şagirdlərin hər birinə dərslikdəki mövzunun əvvəlcədən çıxarılmış surətini paylayır və onlara tapşırır ki, İQS (interaktiv qeydetmə sistemi) vasitəsilə mətni aşağıda verilmiş xüsusi işarələrlə oxusunlar:

| **“+” – yeni informasiyadır** | **“–” – bildiyimə ziddir** | **“?” – qarışıq informasiyadır** | **“!” – əvvəl bilirdim** |
|---|---|---|---|
| | | | |



LAYİHƏ

Şagirdlər rəssam və teatr haqqında mətni oxuyur və verilmiş işarəli cədvəldə qeyd edirlər. Bunun üçün yeni və qarışıq informasiyanı, bildikləri və bilmədiklərini cədvəlin müvafiq hissəsində qeyd edirlər.

Şagirdlər rəssamın teatrda səhnə tərtibatı – dekorasiyalar, ssenoqrafiya, geyim və qrim üzərində işi haqqında tanış olurlar.

F **Düşünün və izah edin** blokunda teatrın cəmiyyətdə və şagirdlərin həyatında hansı rolu oynadığı müzakirə edilir.

Mətni mənimsəmək üçün BİBÖ cədvəlindən də istifadə etmək olar.

| Bilirik | İstəyirik biləkа | Öyrəndik |
|---|---|---|
| | | |

Teatr rəssamı bir çox yaradıcı və peşə vəzifələrini – geyim və qrimi yaratmalı, əsərdə baş verən hadisələri səhnədə təcəssüm etdirməli, işığın haradan düşəcəyini və necə olacağını müəyyənləşdirməyi bacarmalıdır. Yaradıcılığında öz qanunlarını tətbiq edən rəngkar-rəssamdan fərqli olaraq teatr rəssamı, ilk növbədə, rejissorun təklif etdiyi ideyaları həyata keçirməlidir. Teatrda müxtəlif profil rəssamlar işləyir: quruluşçu rəssam, rəssam-texnoloq, işıq üzrə rəssam, geyim üzrə rəssam.





LAYİHƏ



## Ⓗ Sərbəst iş üçün tapşırıqlar

**Müəyyən edin**

**1.** «Teatr sənəti və rəssam» mövzusunda tədris-araşdırma işini (fərdi və yaxud kollektiv) yerinə yetirin. Rəssam və aktyorun yaradıcılığının qarşılıqlı əlaqəsini, həmçinin cəmiyyətdə teatrın rolunun dəyişməsini açıqlayın.

**Yaradıcı fəaliyyət**

**2.** Bütün siniflə birlikdə məktəbdə yaddaqalan tamaşa göstərməyə və öz dostlarınızı dəvət etməyə çalışın. Bunun üçün mövzunu seçmək və onun əsasında "Teatr və rəssam" layihəsini araşdırmaq lazımdır.

Sinifdə "Quruluşçu rəssam", "Qrim üzrə rəssam", "Geyim üzrə rəssam" və "Aktyorlar" adlı yaradıcı qruplar yaradın. Dərslikdəki mətnin əsasında hər bir rəssamın fəaliyyəti ilə tanış olacaq və müvafiq olaraq da təklif edilən tapşırıqları yerinə yetirəcəksiniz. Hər hansı bədii əsərdən xoşunuza gələn bir fraqmenti seçin və onun əsasında öz şəxsi ssenarinizi tərtib edin.

"Quruluşçu rəssam": üç-dörd əşyadan ibarət tamaşa yeri yaradın – stol, stul, kətil və s. Eyni əşyalardan müxtəlif məkanlar – hazırlanacaq tamaşanın eskizi və maketi yaradıla bilər. Dekorasiya elementləri – dəzgahlar, arakəsmələr, nərdivanlar, yastıqlar və s. məktəb tamaşasında istifadə edilə bilər. Səhnə üçün dekorasiya, afişa, proqram, buklet və s. hazırlayın.

"Qrim üzrə rəssam": tamaşada iştirak edən hər obraz üçün qrim düşünün. Aktyorların üzünü rəngin, plastik və tüklü yapışqanın, parikin, saç düzümünün və s.-

LAYİHƏ

nin köməyi ilə dəyişin. Qrimin xarakteri tamaşaya yazılmış mətnin bədii xüsusiyyətlərindən, aktyorun fikrindən, rejissor konsepsiyasından və tamaşanın tərtibat üslubundan asılıdır. Hazırlanan tamaşanın personajlarının qrim və saç düzümü variantlarını (kompüter vasitəsilə də ola bilər) yaradın.

"Geyim üzrə rəssam": səhnə geyiminin xüsusiyyətləri nəzərə alınmaqla personajların geyim eskizlərini hazırlayın. Tamaşanın geyim və səhnəqrafiyasının vahid üslubuna nail olmaq – işin uğur meyarı sayılır. Geyimləri kağızdan, parçadan, yaxud əl altında olan artıq kostyum materiallarından hazırlamaq olar.

"Aktyorlar": ssenari və rollar ilə tanış olun, obraza girin və öz "rolunuzu" yerinə yetirin.

**3.** "Teatr və rəssam" layihəsi çərçivəsində rejissor, aktyorlar və rəssamların işinin nəticəsinin sərgi formasında təqdimatını keçirin.

I Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarı:*

- Təqdimatetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Teatr sənətinin cəmiyyət həyatındakı rolu haqqında məlumata malikdir. | Teatr sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair nümunələr hazırlayır. | Teatr sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları müəllimin köməyi ilə edir. | Teatr sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair sərbəst təqdimatlar edir. |
| Teatr rəssamının əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətləri haqqında bilir. | Teatr rəssamının əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə ayırır. | Teatr rəssamının əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə qiymətləndirir və bəsit təqdimatlar edir. | Teatr rəssamının əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 22 RƏSM ƏSƏRİNDƏN FOTOŞƏKLƏ QƏDƏR

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | təsviri sənət haqqında söhbət |
| **Alt standart** | | 1.2.1.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Fotoqrafiyanı xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Fotoqrafiyada milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir.<br>• Fotoqrafiyanın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| **Resurslar** | müəllim üçün | mövzuya aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, rəngli qələmlər, quaş;<br>Veb kamera, fotoaparat, telefon, yaxud planşet |










Ⓐ Dərsliyin **İncəsənətə dair dialoq** blokundakı sual müzakirə edilir.

– Müasir cərəyanların meydana çıxmasına nə səbəb oldu?



LAYİHƏ

– Əsərlər bir-birindən nə ilə fərqlənir? *(rəngkarlıq əsəri və fotoqrafiyadır)*





Rəngkarlıqla fotoqrafiya arasında oxşarlıq kifayət qədər çoxdur. Hər şeydən əvvəl, rəngkarlıq və fotoqrafiya konkret məqamı qeydə almağı və onu düzgün çatdırmağı bacarır. Rəsmdə olduğu kimi, fotoşəkildə də əsas rol onun fikrini ifadə edə bilən yaradıcısına məxsusdur.

***Tədqiqat sualları:*** *Fotoqrafiya sənətinin səciyyəvi xüsusiyyətləri hansılardır? Kollektiv fotoçəkiliş layihəsini necə hazırlamaq olar? Bunun üçün hansı mərhələlərə əməl etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırlayın** blokundakı sual təhlil olunur:

– Rəssamlar real təsvirdən abstraksionizmə nə üçün keçdilər? *(fərziyyələr)*

C Şagirdlər dərsliyin **Tanış olun** bloku ilə tanış olurlar. Uzun yüzilliklər ərzində rəssamlar onları əhatə edən gerçəkliyi daha dəqiq təsvir etmək üzərində çalışıblar. Onlar təsviri uzun və üzücü zəhmət tələb etmədən almaq üsulunu tapmağa səy göstərirdilər.

Həm rəngkarlıq, həm də fotoqrafiya obraz və vizual rəmzlər yaratmalı olan vizual incəsənətin formalarıdır. Vizual incəsənətin bütün məlum formaları arasında fotoqrafiyanın rəngkarlığa təsiri hamısından güclü olub. Yalnız çox az rəssam bu təsirə məruz qalmaqdan qaça bilib.



LAYİHƏ

**F Düşünün və izah edin** blokunda fotoqrafiyanı rəngkarlıqdan ayıran təsvir və obraz xüsusiyyətlərinin hansılar olduğu müzakirə edilir.

Fotoqrafiya hələ İntibah dövründə rəngkarlığı ən mühüm vəzifələrindən sayılan faktın təsvirinin təsbitindən xilas etdi. Demək olar ki, fotoqrafiya bununla rəngkarlığın inkişafına kömək etdi, onun təkrarsız xüsusiyyətlərinin tam aşkarlanmasına təkan verdi. Lakin fotoqrafiya özü də təsviri sənətin çoxəsrlik inkişafından çox şey mənimsədi. Rakurs və perspektivin qurulması, tamaşaçının fotoşəkli həcmli məkanın səth üzərində təsviri kimi "oxumaq" bacarığı – bütün bunlar fotoqrafiyaya rəngkarlıqdan miras qalmış mədəni irsdir.

## H Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən edin

**1. a)** İstənilən mətndən və ya digər mənbədən təbiət obrazı (mənzərə), insan (portret) rəsmi və fotoşəkilləri seçin. Müqayisəli təhlil aparın: rəsmin və fotoşəklin hansı ümumi və fərqli cəhətləri var? Tapşırıq referat formasında və ya şifahi, seçilmiş illüstrativ material (jurnal və qəzetlərdən, yaxud internetdən) əlavə edilərək yerinə yetirilir.

**b)** Həmin rəsm və fotoşəkillərdə bədii ifadə və təsvir vasitələrini təhlil edin.

### Yaradıcı fəaliyyət

**2. a)** Siniflə birlikdə yaradıcı çəkiliş edə biləcək aparatla layihəsini yerinə yetirin. Siz işi çəkiliş aparatı və ya fotoçəkilişlə nümayiş etdirməlisiniz.
Bu gün, demək olar ki, istənilən rəqəmsal qurğularda kamera quraşdırılır. Biz də dostlarımızla daha çox telefon, hətta planşet vasitəsilə şəkil çəkdiririk. Bütün bunlar fotoçəkiliş prosesini yüngülləşdirir, bu işlə, demək olar ki, istənilən vaxt məşğul olmaq olar. Unutmayın ki, ötəri kadr sizin əlinizdə şedevrə çevrilə və gerçəkliyin təkrarolunmaz məqamlarını əks etdirə bilər. Qruplara bölünün. Fotoçəkiliş sinifdə, məktəbdə, məktəbin həyətində və ya ekskursiyada (əşyalar, obyektlər, ağaclar, binalar, adamlar) aparıla bilər. Obyekt və çəkiliş nöqtəsini şüurlu olaraq seçmək qabiliyyətinizi göstərin. Öz sinif yoldaşlarınızla fikir mübadiləsi edin.

**b)** Dərslikdən portret fotoçəkilişi, yaxud fotoalbomdan bütün ailənin birlikdə olduğu fotoları seçin. Şəklin kompozisiyasında müxtəlif bədii çəkiliş vasitələri və üsullarını (rakurs, planın iriliyi və s.) şərh edin.

**3.** Fotoqrafiyadakı təcrübəniz və çəkilişin məqsədləri barədə (konkret nümunə üzərində) söhbət açın.



LAYİHƏ





Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

– Fotoqrafiya XX əsrdə təsviri sənətin taleyinə necə təsir göstərib?

LAYİHƏ

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə.
- Təqdimatetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fotoqrafiyanı xarakterik xüsusiyyətlərinə görə ayırır. | Fotoqrafiyanı xarakterik xüsusiyyətlərinə görə izah edir. | Fotoqrafiyanı xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Fotoqrafiyanı xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Fotoqrafiyada milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətləri haqqında məlumata malikdir. | Fotoqrafiyada milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə ayırır. | Fotoqrafiyada milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə izah edir və bəsit təqdimatlar edir. | Fotoqrafiyada milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |
| Fotoqrafiyanın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirməkdə çətinlik çəkir. | Fotoqrafiyanın xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Fotoqrafiyanın xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və təqdimatlar edir. | Fotoqrafiyanın xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

# 23 FOTOQRAFİYA və KOMPÜTER

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| **Alt standart** | | 1.2.2.; 2.1.1.; 2.1.2. |
| **Təlim nəticələri:**<br>• Kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Həyati görüntüləri qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edir.<br>• Həyati görüntülərin real və abstrakt təsvirində qrafik redaktordan istifadə edir. | | |
| **Resurslar** | müəllim üçün | kompüter qrafikasına aid təsvirlər, fotoqrafiyalar, meyar cədvəli |
| | şagird üçün | dərslik, veb-kamera, “Microsoft Paint” və “Adobe Photoshop” proqramları, internet |

LAYİHƏ




**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sual müzakirə olunur.

- Kompüter texnologiyalarının tətbiqi nəticəsində fotorəssamın qarşısında hansı yaradıcı üfüqlər açılır? *(fərziyyələr)*
- Şəkillərdəki fərq nədədir? *(fərziyyələr)*





***Tədqiqat sualları:*** *Kompüterlə fotoqrafiya bir-biri ilə necə bağlıdır? Qrafik redaktorda kollaj, açıqca və ya fotoqrafikanın yaradılmasında nəyi nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokundakı sual təhlil olunur. Şagirdlərdən hansı kompüter proqramları vasitəsi ilə fotoqrafiyaları emal etmək, dəyişmək və kollajlar yaratmaq olduğu soruşulur.

**C** Kompüterin, elektron-rəqəmsal texnologiyaların meydana gəlməsi çəkiliş və fotoşəkillərin emalı imkanlarını genişləndirdi. Lakin iş zamanı kompüter proqramlarının tətbiqi nəinki texnoloji bacarıq, həm də onun bədii imkanlarının dərk olunmasını



LAYİHƏ

tələb edir. Yeni texnologiya təsvirin alınmasını yüngülləşdirir, onun keyfiyyətini yüksəldir. O, eyni zamanda fotoqrafiya sənətinin məğzinə incəsənət və informasiya növü olaraq yeni tərzdə baxmağa vadar edir.

Kompüter fotoqrafiyanın sonsuz sayda emal imkanlarına meydan açır. Korrektə-redaktə düzəlişlərindən başqa, şəklin üslubu da dəyişdirilə bilər.

Kompüter inqilabının daha bir mühüm nəticəsi internetdən fotoşəkli yükləmək imkanıdır. Obyekti çəkmədən, çəkiliş yerində olmadan həmin təsvirləri kompüterin monitorunda görmək mümkündür. Beləliklə, müasir informasiya texnologiyaları fotorəssamdan fotoarxivlərin yaradılması və onlarla işləmək kimi yeni bacarıqların əldə olunmasını tələb edir.

Rəqəmsal fotonun meydana çıxması ilə onların sonradan emalına zərurət yaranır. Heç bir fotoqraf emaldan imtina etmir, çünki qrafik redaktor vasitəsilə portret-fotoda dərinin qüsurları aradan götürülür və işıq effektləri əlavə edilir. Hazırkı proqramların qeyri-məhdud imkanlara malik olması portreti tanınmayacaq qədər dəyişməyə imkan verir. Portret-fotonun emalı çox zaman "Adobe Photoshop" proqramında və onun sadələşdirilmiş versiyası olan – "Photoshop Lightroom" proqramında aparılır.

Müasir dünyada fotosənət mühüm yer tutur. Heç bir jurnal və qəzet şəkilsiz keçinmir. Fotosuz sayt yaratmaq da mümkün deyil.

Fotoşəkli çəkən aparatdır, amma onu sənət əsərinə çevirən insanın bədii istedadıdır.

## H Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən edin

**1.** Smartfon və planşetlərin geniş yayılması müasir rəqəmsal fotoqrafiyanı əsaslı surətdə dəyişdi. Onlar kifayət qədər aparat resurslarına malikdir və bu resursların sayəsində fotoşəkil çəkmək və emal etmək olar. Həmin resurslar haqqında danışın.

### Yaradıcı fəaliyyət

**2.** Yaradıcı fotoçəkiliş layihəsini yerinə yetirin.

**a)** Sərbəst mövzuda (məsələn: "Ölkənin qəhrəman müdafiəçiləri", "Mənim dostlarım", "Mənim ailəm", "Mənim şəhərim", "Sevdiyim rəssam", "Təsviri sənətdə müasir üslublar") 5–7 təsvir elementindən (fotoşəkil, rəsm, mətn və s.) ibarət kollaj kompozisiyası tərtib edin. Məsələn:

"Mənim ailəm" adlı fotokollaj.



LAYİHƏ




“Azərbaycanın çempionları” adlı fotokollaj.



LAYİHƏ

**b)** Müxtəlif təsvir elementləri ilə birlikdə öz fotoşəklinizdən ibarət təbrik açıqcası düzəldin.

**c)** Kompüter emalı vasitəsilə şəklin fotoqrafikasını yaradın.

**Sənətkar məsləhəti**

1. İnterneti açın və axtarış vasitələrindən birini (məsələn: **“Google”**) tapın.

2. Görməli yerlərin – müasir memarlıq nümunələrinin fotolarını tapın və onları bir qovluqda saxlayın.

3. **“Adobe Photoshop”** proqramının işarəsinə cıqqıldadaraq onu açın.

4. **Fayl (File)** sözünün üstündən vurun və **Açmaq (Open)** əməliyyatını seçin ki, internetdən yüklədiyiniz iki fotoşəkil ekranda açılsın.

5. **Formanın seçimi** alətinin köməyi ilə şəklin surətini çıxarmaq istədiyiniz hissəsini nişanlayın.

Öz fotoşəklinizin **Surətini köçürün** və onu görməli məkanın fotosuna daxil edin.

6. Öz fotoşəklinizi görməli məkanın fotoşəklinə yerləşdirdikdən sonra Yerini dəyiş (**Move tool**) alətinin köməyi ilə onu lazım olan yerə aparın.

7. Pozan (**Eraser tool**) alətinin köməyi ilə şəklin fonunu silin.

Fonu silməyə başlamazdan əvvəl **Pozan** (**Eraser tool**) alətinin üstünə vurduqda pozan menyusunda **Soft Cloner** işarəsini (ekranın yuxarı hissəsində) çıqqıldadın.

**Fayl (File)** və **Faylın təsvir ilə eksportu** komandalarının köməyi ilə hazırladığınız işi qovluğunuzda saxlayın. Siz bütün foto növlərində dünyanı necə gördüyünüzü və yaradıcılıq qabiliyyətinizi göstərə bilərsiniz.

Digər nümunələr:




**3.** Kompüter proqramları – kollaj, videotəqdimat (slayd-film) sayəsində foto yaradıcılığının bədii-ifadə imkanlarını təhlil edin. Bunu məxsusi seçilmiş (jurnal və



LAYİHƏ

qəzetlərdən, açıqcalardan, internetdən), mövzunun məzmununu açan illüstrasiya materialı cəlb edilməklə tədqiqat referatı və ya şifahi məlumat formasında yerinə yetirmək olar.

Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

- ✓ Kompüter şəklin hansı texnoloji imkanlarını yaradır?
- ✓ Kompüter texnologiyalarının tətbiqi sayəsində fotorəssamın qarşısında hansı yaradıcı üfüqlər açılır?

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə.
- Qrafik redaktordan istifadəetmə.
- Təqdimatetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə suallar əsasında izah edir. | Kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Həyati görüntüləri qrafik redaktor vasitəsilə real və abstrakt təsvir etməkdə çətinlik çəkir. | Həyati görüntüləri qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edilməsində kiçik səhvlərə yol verir. | Həyati görüntülərin qrafik redaktor vasitəsilə müəllimin köməyi ilə real və abstrakt təsvir edir. | Həyati görüntüləri qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edir. |
| Həyati görüntülərin real və abstrakt təsvirində qrafik redaktordan istifadə etməkdə çətinlik çəkir. | Həyati görüntülərin real və abstrakt təsvirində qrafik redaktordan istifadə edir, lakin səhvlərə yol verir. | Həyati görüntülərin real və abstrakt təsvirində qrafik redaktordan müəllimin köməyi ilə istifadə edir. | Həyati görüntülərin real və abstrakt təsvirində qrafik redaktordan istifadə edir. |

LAYİHƏ

# 24 RƏSSAM və KİNO SƏNƏTİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| **Alt standart** | | 1.1.1.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Müasir Azərbaycan kino sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Kino əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir.<br>• Kino sənətinin xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| **Resurslar** | müəllim üçün | kino sənətinə aid nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, rəngli qələmlər |




LAYİHƏ

**H** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda fotoaparat və fotoqrafiya icad olunduqdan sonra rəssamların daha nəyi kəşf etmək istədikləri haqqında müzakirə aparılır. Şagirdlər fərziyyələrini söyləyirlər.

Müəllim müəyyən atributlar və elementlər göstərərək, onların nəyə aid olduğunu soruşur.



***Tədqiqat sualları:*** *Kinematoqrafiya sənətinin əsas xüsusiyyətləri nədən ibarətdir? Filmin yaradılmasında nələrə fikir vermək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** bloku müzakirə olunur. İlk fotoşəkillərin nəyi xatırlatdığı soruşulur. Şagirdlər misallar gətirirlər.

**C** Şagirdlər dərslikdə verilmiş kino sənəti, ona dair nümunələr, kinonun xüsusiyyətləri, cəmiyyətdə rolu haqqında müzakirə edirlər. Əsrlərboyu yaradıcı insanlar təsviri canlandırmağı, onu hərəkətə gətirməyi arzulayırdılar. Fotoqrafiya kimi, kino da tədricən öz dilini və bədii xüsusiyyətlərini axtarırdı. Fotoqrafiya kimi, incəsənətdə öz əhəmiyyətini sübuta yetirmək üçün kino da rəngkarlığı təqlid edirdi. Kino mühitinin bütün müxtəlifliyinin yaranması eskiz və çertyojdan başlayır. Bu yaradıcı işin nəticəsində meydana çıxan mühit filmin ən mühüm obrazına çevrilir.




**F** **Düşünün və izah edin** blokundakı sual təhlil edilir. Kinonun insanlara niyə lazım olduğu, onların həyatında hansı dəyişiklik yaratdığı müzakirə edilir.



LAYİHƏ

Kino XX əsrdə ən vacib incəsənət növünə çevrildi. Bu sahədə eyni zamanda yüksək sənət nümunələri və sadə süjetli filmlər mövcud idi. Tamaşaçı özünü qəhrəmanla eyniləşdirir, seans zamanı özünü sanki həmin insanın yerində hiss edirdi. Kino – böyük təsəlliverici, öz tamaşaçılarını gündəlik qayğı və bəlalardan ayırıb bir saatlığa da olsa onları ekrandakı xoşbəxtlik, zənginlik və sevgi fantaziyalarına aparan xəyal və arzular aləminə çevrildi. Heç bir incəsənət növünü kinodan ayırmaq mümkün deyil.

Yarandığı gündən insanların dünyagörüşünü formalaşdıran, hər bir xalqın tarixini, milli adət-ənənəsini yaşadan, həyatın bütün sahələrinə nüfuz edən kino sənəti bəşəriyyətin ən böyük kəşfidir. Kino yeganə sənət növüdür ki, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirir.

### H Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən edin

**1.** Şagirdlər FİLM sözü ilə krossvord tərtib edirlər. Müəllim onlara yönəldici suallarla köməklik göstərə bilər.

1. Həyat hadisələrində konkret məqamı ani olaraq cihazla qeydə alan sənət növü (FOTOQRAFİYA)
2. Bu üsul vasitəsilə aktyorun siması müəyyən obraza bənzəyir (QRİM).
3. Səth üzərinə müxtəlif materiallar yapışdırılmış təsviri sənətdə üsul və texnika (KOLLAJ).
4. Aktyorların teatr səhnəsində göstərdikləri oyun (TAMAŞA).

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. F | O | T | O | Q | R | A | **F** | İ | Y | A |
| | | | | | 2. Q | R | **İ** | M | | |
| | | | | 3. K | O | L | **L** | A | J | |
| | | | | | 4. T | A | **M** | A | Ş | A |

### Yaradıcı fəaliyyət

**2. a)** Öz sinfiniz haqqında film hazırlayın. Filmin ssenari qəhrəmanları sinif yoldaşlarınız, müəllimləriniz ola, məşğələləriniz, sinfiniz və asudə vaxtınız süjetə daxil edilə bilər.

**b)** “Kinematoqrafiya” mövzusunda rəsm çəkin və ya emblem eskizi yaradın.

LAYİHƏ

Kompüter qrafikasında yaradılmış kollaj:





**3.** “Kinoda ssenari nə üçün lazımdır və ailə videosunun çəkilişində onun rolu” mövzusunda analitik işi yerinə yetirin.

LAYİHƏ

**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarı:*

- Təqdimatetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müasir Azərbaycan kino sənətinin cəmiyyət həyatındakı rolu haqqında məlumata malikdir. | Müasir Azərbaycan kino sənətinin cəmiyyət həyatındakı roluna dair bəsit təqdimatlar edir. | Müasir Azərbaycan kino sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatları müəllimin köməyi ilə edir. | Müasir Azərbaycan kino sənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Kino əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə ayırır. | Kino əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə izah edir. | Kino əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə şərh edir və sadə təqdimatlar edir. | Kino əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |
| Kino sənətinin xarakterik xüsusiyyətlərinin emosional təsiri haqqında məlumata malikdir. | Kino sənətinin xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Kino sənətinin xarakterik xüsusiyyətlərinin emosional təsirini şərh edir və sadə təqdimatlar edir. | Kino sənətinin xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 25 ANİMASİYA SƏNƏTİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt standart** | | 1.2.2.; 2.1.1.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Animasiyanı və kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Animasiyanı vərəqdə və qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edir.<br>• Cizgi filminin hazırlanmasında müxtəlif vasitələrdən və qrafik redaktordan istifadə edir. | | |
| **Resurslar** | müəllim üçün | animasiyaya aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, müxtəlif vasitələr və qrafik redaktor |




**H** Dərsə **İncəsənət dair dialoq** blokunda verilmiş sualla şagirdlərə müraciət edərək başlamaq olar. Müəllim eyni obyektin hərəkətdə olan bir neçə rəsmini göstərir və soruşur:

LAYİHƏ

– Rəsmlərdə nə əks olunub? *(hərəkət, oxşar və təkrarlanan obyekt və s.)*
– Nəyə görə obyektlər təkrarlanır? Bu nəyi bildirir? *(fərziyyələr)*






– Dəftərçədə bir obyektin şəkli çəkilir. Hər vərəqdə onun hərəkəti dəyişir. Dəftərçəni sürətlə vərəqlədikdə elə təəssürat yaranır ki, sanki obyekt hərəkət edir. Bu sizə nəyi xatırladır? *(cizgi filmini).*
– Animasiya və ya cizgi filmində personajı belə hərəkətə gətirmək olar.

LAYİHƏ



***Tədqiqat sualları:*** *Animasiya sənətinin səciyyəvi cəhətləri hansılardır? Animasiyanı yaratmaq üçün hansı mərhələlərə əməl etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokunda verilən suala müraciət olunur. Filmin yaradılmasında ssenarinin hansı rolu olduğu müzakirə edilir.

**C** Yeni mövzunu mənimsəmək üçün BİBÖ üsulu tətbiq edilə bilər. Şagirdlər cizgi filmi haqqında bildiklərini cədvəlin 1-ci sütununa yazırlar, bilmək istədiklərini – 2-ci sütuna. Dərsin sonunda, mövzu ilə tanışlıqdan sonra isə cədvəlin 3-cü sütununda öyrəndikləri haqda qeyd edirlər.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Animasiya – xüsusi texnologiyalar vasitəsilə hər bir kadrının ayrı-ayrılıqda çəkilməsi ilə yaradılan kino sənətidir. Animasiya filmlərinin çəkilməsi çox mürəkkəbdir. Şəkillər çəkilir, nömrələnir və bunlar bir-bir kameraya alınır. 10 dəqiqəlik filmin ərsəyə gəlməsi üçün təxminən 30–40 min şəkil lazım olur. Şəkillərini sürətlə dəyişdirilməsi yolu ilə animasiya filmləri əmələ gəlir.

**F** **Düşünün və izah edin** blokunda şagirdlər animasiyada rəssamın rolunun nəyə görə bu qədər böyük olduğu barədə müzakirə aparırlar.

LAYİHƏ

## Ⓗ Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən edin

**1.** Dərslikdə verilmiş xarici və Azərbaycan animasiyalarının təsvirlərinin nə ilə fərqləndiyi soruşulur.

### Yaradıcı fəaliyyət

**2.** "Ssenaridən animasiyaya doğru" adlı yaradıcı layihəni işləyin. Gələcək cizgi filminin ətraflı ssenarisini düşünün. İstənilən hər şey – uçan payız yarpağı, iki personajın dialoqu, ya da xeyli səhnənin sıralandığı maraqlı bir əhvalat süjet ola bilər. Aydındır ki, əsas personajın (o hər hansı əşya da ola bilər) başına gələn hər hansı adi əhvalatdan bəhs edən sadə ssenaridən başlamaq lazımdır.

Cizgi filmində personajın hərəkətini çatdırmağa çalışın: dəftərçənin hər vərəqində, məsələn, at, ya da it şəklini elə çəkin ki, o hər səhifədə ayaqlarının vəziyyətini azacıq dəyişsin. Dəftərçəni sürətlə vərəqlədikdə elə təsəvvür yaranacaq ki, sizin personaj hərəkət edir.

**3.** "Animasiya sənəti" mövzusunda analitik tapşırığı yerinə yetirin. Öz işinizdə müxtəlif ölkələrin animasiya filmlərinin nümunəsində filmlərin yaranma texnikasını və onların bədii dəyərini açıqlayın. Bu işi məxsusi seçilmiş illüstrativ materialı (jurnallardan, qəzetlərdən, açıqcalardan, internetdən) cəlb etməklə referat və ya şifahi məlumat formasında yerinə yetirin.

Ⓘ Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

– Animasiya personajlarını nədən yaratmaq və animasiyada kompüterdən necə istifadə etmək olar?
– Animasiya kinematoqrafda nəyi dəyişdi?

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə.
- Təsviretmə.
- Təsvir materiallarından və qrafik redaktordan istifadəetmə.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dekorativ-tətbiqi sənət növlərini və kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Dekorativ-tətbiqi sənət növlərini və kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə izah edir. | Dekorativ-tətbiqi sənət növlərini və kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Dekorativ-tətbiqi sənət növlərini və kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Animasiyanın vərəqdə və qrafik redaktor vasitəsilə real və abstrakt təsvirində çətinlik çəkir. | Animasiyanın vərəqdə və qrafik redaktor vasitəsilə real və abstrakt təsvirində kiçik səhvlərə yol verir. | Animasiyanın vərəqdə və qrafik redaktor vasitəsilə real və abstrakt təsvirində müəllimin köməyindən istifadə edir. | Animasiyanın vərəqdə və qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edir. |
| Cizgi filminin hazırlanmasında müxtəlif vasitələrdən və qrafik redaktordan çətinliklə istifadə edir. | Cizgi filminin hazırlanmasında müxtəlif vasitələrdən və qrafik redaktordan istifadə edir, lakin kiçik səhvlərə yol verir. | Cizgi filminin hazırlanmasında müxtəlif vasitələrdən və qrafik redaktordan müəllimin köməyi ilə istifadə edir. | Cizgi filminin hazırlanmasında müxtəlif vasitələrdən və qrafik redaktordan istifadə edir. |

# 26 KARİKATURA və ŞARJ: ŞƏKİLLİ ƏHVALATLAR

| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
|---|---|---|
| **Alt standart** | | 1.2.1.; 2.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Karikatura və şarj janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir.<br>• Əhvalatı, karikatura və portreti şarj janrlarında, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edir.<br>• Karikatura və şarj janrlarını xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | | |
| **Resurslar** | müəllim üçün | mövzuya aid nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, rəngli qələmlər |

LAYİHƏ




Ⓐ Dərsliyin **İncəsənətə dair dialoq** blokundakı sual müzakirə olunur:

– Jurnallarda, qəzetlərdə qısa mətnlərin müşayiəti ilə məzəli kiçik şəkillər görmüsünüzmü? Onların haqqında nə deyə bilərsiniz?

***Tədqiqat sualları:*** *Karikatura və şarj janrının əsas xüsusiyyətləri nədən ibarətdir? Onların təsvirində nələrə fikir vermək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

Ⓑ **Xatırlayın** bloku müzakirə olunur. Şagirdlər misallar gətirirlər.

Ⓒ İlk komikslər XX əsrin əvvəllərində Avropa və Amerika qəzetlərində görünməyə başlayıb, sonralar isə onların ən populyarları ayrıca kiçik jurnal kimi nəşr edilib. Komikslərdə ən azı 2 şəkil olmalıdır. Odur ki yalnız 1 təsvirdən ibarət illüstrasiya, rəsm komiks adlana bilməz. Komikslər bəzən ardıcıllıqla hansısa süjetdən bəhs edən mətnlə müşayiət olunur. Komikslərdə şəkli çəkilən personajlar öz aralarında söhbətləşirlər, bu söhbət onların ağızlarından çıxan buludun içindəki mətn kimi təsvir edilir. Oxunan mətn təsvirlə harmoniya yaratmalıdır. Əsl komiks yaratmaq üçün təkcə maraqlı əhvalat yox, həm də maraqlı qrafika üslubu lazımdır.

LAYİHƏ

XXI əsrin əvvəlində komikslər yeni təcəssümünü tapdı. Bu, komikslərin rənglənməsində istifadə edilən yeni kompüter texnologiyaları hesabına, həmçinin tam bir sıra istedadlı rəssamların bu janra marağı sayəsində mümkün oldu. Komiksləri artıq təkcə karandaşla deyil, həm də yağlı boya ilə boyayır, üstəlik, birinci ilə ikincini qrafik rəqəmsal texnologiyalarla birləşdirməyə başladılar.

**F** **Düşünün və izah edin** blokundakı sual təhlil edilir.

- Belə demək olar ki, siz gündəlik həyatınızda komiksə çevrilməli, karikaturası çəkilməli situasiya ilə tez-tez qarşılaşırsınız?

Qraffiti üslubu:



Karikatura təkcə güldürməyi bacarmır, həmçinin publisist işini yerinə yetirir, yəni tənqid, ifşa, təşviq edir; o, bədii dəyəri siyasi kəskinliklə, itiağıllı yenilikçi formanı vətəndaş məqsədyönlülüyü ilə özündə birləşdirir.





LAYİHƏ

Daha kəskin karikaturaları bəzən şarj adlandırırlar. Bəzən ilk baxışdan elə görünür ki, şarj – sadəcə adi şəkildir, əslində, ağlasığmaz məharət və böyük təcrübə tələb edir. İri plakatda karikatura isə – heç də tanınmışların qulaqları yekəldilmiş, ya da gözlərinin düymə boyda çəkilmiş təsviri deyil. Şarj – rəssamın gördüklərinin vizual müşahidəsidir. Şarjı elə çəkmək lazımdır ki, onda təsvir edilən şəxsə qarşı təhqirə çevrilməsin. Şarj qəhrəmana istehza etməkdən daha çox, onu xoş təbəssümlə işıqlandırır, məşhur insanı sadə adamlara yaxınlaşdırır. Şarjın yaradılmasında mühüm məqam kompozisiyadır. Şarj müəyyən qədər epiqramı xatırladır, o həm də insan qəlbindəki gizlinlərin əksidir.

Şarj çəkən təcrübəli rəssam şəkildəki qabarıq məqamı eləcə əks etdirməyə borclu deyil, həm də insanın ümumi psixoloji ovqatını ifadə etməli, onun daxili aləmini kağıza köçürməlidir.

### H Sərbəst iş üçün tapşırıqlar

**Müəyyən edin**

**1.** Komiks, karikatura və şarjın hansı ümumi və fərqli cəhətləri var?

**Yaradıcı fəaliyyət**

**2. a)** Öz gündəlik həyatınıza dair kiçik komiks tərtib edin. Seçdiyiniz süjeti ardıcıllıqla açan mətn qurun. Onun personajları öz aralarında söhbət edirlər, söhbətin mətni də onların ağızlarından çıxan buludun içində yazılır. Oxunan mətn təsvirlə yaxşı uzlaşmalıdır. Nəzərə alın ki, yaxşı komiks yaratmaq üçün təkcə maraqlı əhvalat yox, həm də maraqlı qrafika üslubu seçmək lazımdır.

**b)** "Müasir texnologiyalar uşaqların gözü ilə" mövzusunda karikatura çəkin. Öz qəhrəmanlarınız üçün xarakterik olan cəhətləri bilərəkdən qabartmağa və komikləşdirməyə çalışın.

Unutmayın ki, karikatura – insanın gülməli görünməsi üçün və hər hansı bir xarici əlamətləri bilərəkdən şişirdilmiş məzəli portretdir. Yaxşı karikatura insanın xarakterinin xüsusiyyətlərini də vurğulayır. İlk əvvəl karikaturasını çəkmək istədiyiniz personajı təsəvvürünüzə gətirin. Onun hansı cizgiləri sizə ən güclü təsir bağışlayır? Karikaturada da məhz bu cizgilər seçilməli və dərhal nəzərə çarpmalıdır.

**c)** Sevdiyiniz insanın şarjını çəkin. Onun ovqatını, daxili aləmini əks etdirməyə çalışın.

**3.** Təsvir edəcəyiniz sözü (yaxud öz adınızı) fikirləşin. Nümunələr üzrə istənilən üslubda və qraffiti texnikasında yazın. Şrift seçin, ya da onu özünüzdən uydurun. Hərflərin içinin, konturlarının hansı rəngdə olacağını müəyyən edin. İşə konturlardan, yoxsa boyamadan başlayacağınızı düşünün. Nəzərə alın ki, ən sadə üslubda işlər iki rəngdə olur. Bir rənglə kontur çəkilir, o birisi ilə boyanılır.

LAYİHƏ









**I** Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

LAYİHƏ

- Şərhetmə.
- Təsviretmə.
- Təqdimatetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Karikatura və şarj janrının xarakterik xüsusiyyətləri haqqında bilir. | Karikatura və şarj janrını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə izah edir. | Karikatura və şarj janrını xarakterik xüsusiyyətlərinə görə izah edir. | Karikatura və şarj janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Əhvalatın, karikatura və portreti şarj janrlarında, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt təsvirində çətinlik çəkir. | Əhvalatın, karikatura və portreti şarj janrlarında, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt təsvirində kiçik səhvlərə yol verir. | Əhvalatın, karikatura və portreti şarj janrlarında, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt təsvirində kiçik səhvlərə yol verir. | Əhvalatın, karikatura və portreti şarj janrlarında, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt təsvir edir. |
| Karikatura və şarj janrlarının xarakterik xüsusiyyətləri haqqında məlumata malikdir. | Karikatura və şarj janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini izah edir. | Karikatura və şarj janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini qiymətləndirir və bəsit təqdimatlar edir. | Karikatura və şarj janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

# 27 TELEVİZİYA: RƏSSAM və EKRAN

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | təsviri sənət haqqında söhbət |
| **Alt standart** | | 1.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Televiziyanın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.<br>• Televiziyada rəssamın fəaliyyətində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | | |
| **Resurslar** | müəllim üçün | mövzuya aid nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, videokamera, smartfon və ya planşet, internet, kompüter |




Müəllim lövhədə kiçik rəngli kağızlarda yazılmış sözlər nümayiş etdirir və soruşur:

– Sözlər nə ilə assosiasiya edilir? *(televiziya)*

Ekran

Studiya

Efir

Kütləvi informasiya vasitəsi

Canlı yayım

LAYİHƏ

**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokundakı sual müzakirə olunur. Verilmiş fotoşəkillər əsasında şagirdlər baş verənlər haqqında öz fərziyyələrini söyləyirlər.

***Tədqiqat sualları:*** *Televiziyanın fəaliyyətinin əsas xüsusiyyətləri nədən ibarətdir? Hər hansı bir telesüjetin hazırlanmasında hansı mərhələlər nəzərə alınır?*

**B** **Xatırlayın** bloku müzakirə olunur. Şagirdlər kütləvi informasiya vasitələri haqqında misallar gətirirlər.

**C** Şagirdlər dərsliyin **Tanış olun** blokunda televiziyanın cəmiyyət həyatındakı rolu, onun yaranma tarixi haqqında məlumat alırlar. Bu gün həyatımızı televizorsuz təsəvvür etmək qeyri-mümkündür. Əgər kinematoqrafın yaranması bütün incəsənət sahələrinə təsir göstərmişdisə, televiziya insanların həyatının bütün sahələrini dəyişdi. O, insanların psixologiyasını, dünyanın qavranılmasını və müasir cəmiyyətin mədəniyyətini yaxşı mənada başqalaşdırdı.

**G** **Bilirsinizmi?** blokunda şagirdlər Azərbaycan televiziyası haqqında maraqlı məlumatla tanış olurlar.

**H** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Konkret televiziya verilişi, telereportaj və ya müsahibədə rəssamın rolunu təhlil edilir. Bu təhlil Azərbaycan və ya xarici nümunələr əsasında aparıla bilər.

**Yaradıcı fəaliyyət**

**2. a)** Öz şəhəriniz (kəndiniz) barədə telesüjet hazırlayın və çəkiliş üçün ən çoxu üç obyekt (görməli yer, memarlıq abidəsi və s.) seçin. Bu barədə əvvəlcədən yazılmış mətni kadr arxasında oxumaq olar.

**b)** Hər hansı bir muzey haqqında telereportaj hazırlayın. Bunun üçün muzeyə ekskursiyaya getmək, onun funksiyası, ekspozisiyası, muzey sərgilərinin fəaliyyətindəki yeniliklərlə tanış ola bilərsiniz. Öz aranızda iş bölgüsü aparın.

**3.** "Televiziya mənim həyatımda" ("Mənim sevimli televiziya verilişim" və s.) mövzusunda analitik (fərdi və kollektiv) araşdırmada televiziyanın informasiya-ekran xüsusiyyətlərinin nə demək olduğunu, onun tamaşaçıya və şəxsən sizə təsirini açın.
Məktəb televiziyası yaratmağa cəhd edin. Bu, məktəb mövzusunda süjetin hazırlanma prosesində özünüzü ssenari müəllifi, rejissor, quruluşçu rejissor, rəssam, aparıcı, yaxud aktyor kimi sınamaq üçün əla imkandır. Televiziya proqramlarının yaradılması üzərində iş özünüzü fərd olaraq, yaxud qrupda göstərmək, öz işinizin nəticəsini hamı ilə bölüşmək imkanı verir. Artıq bu gün məktəblərin əksəriyyətində şagirdlər belə layihələr üzərində çox aktiv çalışırlar. Məktəb televiziyasındakı verilişlərin bir neçə rubrikası bunlardır: "Sinfimizin həyatından", "Maraqlıdır", "Məktəbin həyatından", "Əlamətdar günlər" və s. Bayram tədbirlərinin, açıq dərslərin lent yazısı da məktəb



LAYİHƏ

televiziyasında nümayiş etdirilə bilər.

Müəllim şagirdlərlə birlikdə dərsliyin **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarı:*

- Təqdimatetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Televiziyanın cəmiyyət həyatındakı rolu haqqında bilir. | Televiziyanın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair müəllimin köməyi ilə təqdimatlar edir. | Televiziyanın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair bəsit təqdimatlar edir. | Televiziyanın cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. |
| Televiziyada rəssamın fəaliyyətində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətləri haqqında məlumata malikdir. | Televiziyada rəssamın fəaliyyətində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə ayırır. | Televiziyada rəssamın fəaliyyətində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə qiymətləndirir və bəsit təqdimatlar edir. | Televiziyada rəssamın fəaliyyətində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. |

LAYİHƏ

## Teatr, fotoqrafiya, kino və televiziyaya aid terminlər lüğəti

---

### Teatr

**Qrim** – aktyorun zahiri görkəmini, xüsusən də onun üzünü qrim boyaları, yapışqanlı tük, parikin, saç düzümünün və s.-nin köməyi ilə dəyişmək sənəti.

**Dekorasiyalar** (bərk, yumşaq, asma və s.) – hadisə yerinə bənzətmək üçün teatr səhnəsində və kino çəkilişi meydançasında istifadə edilən təsvir və əşyalar.

**Pərdə** – ilk dəfə Qədim Roma teatrında istifadə edilsə də, sonralar bir müddət kütləvi istifadə atributu mövqeyini itirib, İntibah və klassisizm dövründə öz əhəmiyyətini bərpa edib. Pərdə – dekorasiya və səhnəni, heç olmasa, bir müddət tamaşaçıdan gizlətmək üçündür. Pərdə – səhnə və tamaşaçı salonunu ayıran maddi işarədir.

**Performans** – (ing. *perfor mance* – çıxış, ifa, oyun, tamaşa) – 1960-cı illərin müasir incəsənət forması. Performans – rəsm qalereyası və yaxud muzeydə tamaşaçılar qarşısında bir və ya bir neçə iştirakçının ifa etdiyi yığcam tamaşa. Performans aksiyaları əvvəlcədən planlaşdırılır və müəyyən proqram üzrə gedir. Performans müxtəlif vizual incəsənət sahələrini – teatr, poeziya, rəqs, musiqi, video və kinonu birləşdirir.

**Rejissorluq** – 1) rejissor işi, peşəsi; 2) tamaşanın rejissor tərtibatı; tamaşanın, filmin quruluş prosesi.

**Səhnə etüdü** – kiçik səhnəcik, çox zaman rolun yaradılma mərhələsi, tamaşanın hazırlanmasında pillə, müəyyən mövzuda tapşırıq.

**Fləşmob** (ing. *flash mob*; flash – işartı; an, göz qırpımı; *mob* – kütlə; ani kütlə) – xeyli sayda insanın ictimai yerdə görünməklə keçirdiyi əvvəlcədən planlaşdırılmış kütləvi tədbir.

LAYİHƏ

## Fotoqrafiya

**Görüntü axtarıcısı** – kameranın həkk edəcəyi ən uğurlu kompozisiyanı tapmağa imkan verən optik sistem.

**Silsilə çəkiliş rejimi** – rəqəmsal kameranın minimal intervallarla bir neçə fotşəkildən ibarət silsilə çəkmək imkanı verən funksiyası. Ənənəvi kameralarda motor ötürücüləri də həmin məqsədə xidmət edir. Belə rejim hərəkət çəkilişinə tam uyğun gəlir.

**Fotoprinter** – fotoşəkil çap edən printer. Bəzən məxsusi olaraq fotoqrafik keyfiyyətli əksi almaq üçün xüsusi işlənib hazırlanmış kompüter printerləri belə adlandırılır.

**Rəqəmsal kamera** – şəkilləri kompüterin oxuya biləcəyi rəqəmsal informasiya formasında yazan kamera.

**Rəqəmsal şəkil** – rəqəmsal kamera ilə alınan fotoşəkil. O, rəqəmsal informasiyalı fayl kimi saxlanılır.

## Kino və televiziya

**Telerejissorun (televiziya rejissoru) assistenti** – rejissorla birlikdə televiziyada işləyir, teleoperatorun, kinomexanikin, səs rejissorunun, diktorun işini təşkil edir.

**Videoyazılış** – teleradio siqnallarının yadda saxlamaq, montaj etmək, səsləndirmək məqsədilə maqnit lentdə, yaxud digər vizual və səs informasiyası daşıyıcılarında qeydə alınması.

**Videoteka** – videokaset və video disklərin müəyyən sistem üzrə toplanması.

**Kino və televiziyada baş rejissor (quruluşçu rejissor)** – yaradıcı kollektivin, bir studiyanın, redaksiyanın, şirkətin bədii rəhbəri, rejissor, operator, redaktor, rəssam, səs rejissoru, videomühəndislər, işıqçılar və b.-dan ibarət müvəqqəti (bir veriliş və yaxud quruluş, silsilə verilişlər üçün) yaradıcı prosesin təşkilatçısı.



LAYİHƏ

**Televiziyada qrafika** – yazılar, titrlər, subtitrlər, illüstrasiyalar, diaqramlar, rəsmlərdir. Televiziyada mürəkkəb, amma perspektivli təsvir növüdür, kompüterin köməyi ilə kadrda ən gözlənilməz, parlaq və müasir obrazlar yaratmağa kömək edir.

**Televiziyada janr** – ümumi cəhətlərə, xüsusiyyətlərə malik televiziya əsərlərinin tarixən formalaşan tipi. Hər janrın onun formasından (reportaj, oçerk, müsahibə, söhbət) irəli gələn öz qanunları var. Sənədli janrlardan aktyor səhnələrində, bədii kino və telefilmlərin fraqmentlərində fakt və hadisələrin bərpasında istifadə edilir.

**Verilişin ideyası** – verilişin əsas vəzifəsi, mövzusu, məqsədi müəyyən edildikdən sonra onun üzərində başlanan işin birinci, başlanğıc mərhələsi. İdeya ssenari planını (ssenarini), verilişin janrını, iştirakçıların tərkibini, çəkilişin yerini, montajın xarakterini və müxtəlif bədii üsullardan istifadəni daha dəqiq müəyyən edir.

**Televiziyada səs tərtibatı** – yüksək effektə malik televiziya verilişinə nail olmaq məqsədilə tamaşaçıya iki təsir yolundan biri. Səs verilişin təsvir hissəsini müşayiət etməkdən daha çox, bəzən təsviri özünə tabe etdirməklə təsvir qavrayışını daha çox zənginləşdirir. Səs və görüntü obrazlarının birləşməsi elə televiziya deməkdir. Təbii səslənişi həyatdan götürülmüş real səslər tamaşaçıda hansısa konkret şəraitlə assosiasiya olunur. Fantastik, yaxud abstrakt səslər tamaşaçının emosiya və təxəyyülünə yönəldilir. Verilişin səsli hissəsinin öz ölçüləri var: yüksəkliyi, yaxud tezliyi və ucalığı. Televerilişdə səs sinxron, qeyri-sinxron ola bilər, dramaturji elementləri daşıya bilər: epizodun səsli obrazı – onun səsli səciyyəsidir.

**Səs rejissoru** – kino və televiziyada aparıcı peşələrdən biri. Səs rejissoru rejissorla əməkdaşlıq edərək televiziya verilişlərinin səs tərtibatı ilə məşğul olur.

**Müsahibə** – müxbiri, onun suallarını, həmçinin hadisə iştirakçısının və yaxud aktual mövzular üzrə səlahiyyətli şəxsin cavablarını kadrda əks etdirən kino, videomaterial. Müsahibə efirə xəbər kimi verilə bilər, ya da məlumata, reportaja, şərhlərə daxil edilə bilər. Televiziya təcrübəsində müsahibənin iki növü ayırd edilir: fakt haqqında müsahibə (hər hansı əşya və ya hadisə

LAYİHƏ

haqqında informasiyanı təqdim edir), müsahibə – rəy (müsahibə verənin rəyi, onun hadisəyə verdiyi qiymət öyrənilir), şəxsiyyət haqqında müsahibə.

**Kadr və plan** – bu termin "kadr" kəlməsinin kino plyonkasında əks vahidi kimi anlaşıldığı, *plan* sözünün isə obyektin ekranında təsvirin iriliyini (ümumi, orta, iri) səciyyə etdiyi dövrdə yaranıb. Bu gün isə həmin sözlərin təkcə montaj mənası var – kino mətninin ən kiçik elementidir. Plan (kadr ilə yanaşı) iki montaj parçası arasındakı uzunluğu, yaxud kinokameranın işə salınması və dayanması arasında həkk olunmuş fasiləsiz hərəkəti işarə edir.

**Kino plyonkası** – kinofilm çəkmək və çıxarmaq üçün işığahəssas plyonka.

**Şərhçi** – şərhçi müəllif, daxili və beynəlxalq həyatın müxtəlif məsələlərinə dair verilişlər hazırlayan və aparan telejurnalist.

**Kulminasiya** – süjetdəki qarşıdurma, televiziya verilişi qəhrəmanlarının və yaxud iştirakçılarının məqsədinin, onların daxili keyfiyyətlərinin xüsusilə qabarıq aşkar edildiyi hərəkət gərginliyinin zirvəsi.

**Reportaj** – (ing. *report* – məlumat çatdırmaq) – mətbuat, televiziya və radio müxbiri tərəfindən hadisə yerindən məlumatın operativ çatdırılması.

**Televiziya qrafikası** – televiziya və qrafika ustalığının xüsusiyyətlərini birləşdirən, həmçinin məxsusi ifadə xüsusiyyətlərinə malik olan təsviri sənətin yeni təzahürü, bədii yaradıcılığın unikal növü. Qrafika təkcə dəqiq və aydın informasiyanın ötürülməsini təmin etmir, həm də rəssamın bu və ya digər ideyalarını ifadə etməsinə kömək göstərir.

**Teleserial** – eyni qəhrəmanların birləşdiyi, eyni süjet xəttinin filmdən filmə inkişaf etdiyi, hər filmin sonunda nəqlin kulminasiyasının, növbəti filmdə isə onun açıqlamasının verildiyi çoxseriyalı telefilm.

**Telestudiya** – televiziya verilişlərinin aparıldığı xüsusi quraşdırılmış məkan.

**Tok-şou** – canlı efirdə problemlərin açıq müzakirəsi. Tok-şou janrı XX əsrin 60-cı illərində Amerika televiziyasında yaranıb.

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏLƏRİ

---------------------------------------------------------------

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)

Adı________________Soyadı____________________Sinif_______________Tarix_________

| **Suallar** | **1.** | **2.** | **3.** | **4.** | **5.** | **6.** | **7.** | **8.** | **9.** | **10.** | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cavab variantı** | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ….. |
| **Yaradıcı tapşırıq meyarları** | Mənzərə | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Müasir üslublar | | | | | | | | | | |
| | Real elementlər | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | ….. |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | ….. |

| | |
|---|---|
| **XX əsrdə yaranmış müasir üslub:**<br>a) klassisizm<br>b) antik<br>c) sürrealizm | **Monoxrom rəng:**<br>a) birrənglidir<br>b) rəngarəngdir<br>c) heç biri deyil |
| **Postimpressionizm cərəyanının nümayəndəsi:**<br>a) Pablo Pikasso<br>b) Pol Sezann<br>c) Henri Mur | **Sürrealizm cərəyanının nümayəndəsi:**<br>a) Pol Sezann<br>b) Salvador Dali<br>c) Vasili Kandinski |
| **Rəng dairəsindəki bütün əsas rənglər və onların çalarları belə adlanır:**<br>a) kontrast rənglər<br>b) qarışıq rənglər<br>c) təmiz rənglər | **Henri Murun heykəltəraşlığına xarakterik olan janr:**<br>a) natürmort<br>b) mənzərə<br>c) portret |
| **Müxtəlif materiallardan səth üzərinə yapışdırılmış təsvirin üsulu və texnikası:**<br>a) şəbəkə<br>b) kollaj<br>c) plakat | **Kubizm cərəyanının xüsusiyyətləri:**<br>a) xətlərdən ibarət olması<br>b) həndəsi formaların təşkili<br>c) qeyri-müəyyən formaların mövcudluğu |
| **Abstraksionizm – müasir cərəyandır:**<br>a) müxtəlif səth, ləkə və xətlərdən ibarət<br>b) müxtəlif həndəsi fiqurlardan ibarət<br>c) qeyri-müəyyən formalardan ibarət | **İncəsənətdə mövcud olan bədii cərəyanların məcmusu:**<br>a) modernizm<br>b) sürrealizm<br>c) kubizm |
| **Yaradıcı tapşırıq:** A4 formatlı rəsm vərəqində müasir üslubların vəhdətini təşkil edən mənzərə təsvir edin. Burada kubizm, abstrakt və sürrealistik tərzdə olan real elementləri göstərməyə çalışın. | |



LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №2)

Adı________________ Soyadı____________________ Sinif_______________ Tarix_________

| **Suallar** | **1.** | **2.** | **3.** | **4.** | **5.** | **6.** | **7.** | **8.** | **9.** | **10.** | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cavab variantı** | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| **Yaradıcı tapşırıq meyarları** | Sürrealistik portret | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Portretin kompozisiyası | | | | | | | | | | |
| | Müxtəlif materiallardan istifadəetmə | | | | | | | | | | |
| | Orijinal ideya | | | | | | | | | | ..... |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | ..... |

| | |
|---|---|
| **İncəsənətində yaranmış müasir cərəyanların ümumiləşdirilmiş adı:**<br>a) avanqard<br>b) kubizm<br>c) sürrealizm | **Müharibəyə etirazın ifadəsi kimi meydana gəlmiş cərəyanın adı:**<br>a) avanqard<br>b) kubizm<br>c) ekspressionizm |
| **Tunisə səyahət hansı müasir rəssamın yaradıcılığına güclü təsir bağışlamış və o, öz əsərlərində daha çox kvadratlar çəkmişdir?**<br>a) Vasili Kandinski<br>b) Pol Kli<br>c) Salvador Dali | **Hansı heykəltəraş əsərlərini qadına, ailə və ana mövzusundakı kompozisiyalara həsr etmişdir?**<br>a) Henri Mur<br>b) Alberto Cakometti<br>c) Naum Qabo |
| **Hansı müasir heykəltəraşın heykəlləri simli və spiralvarı tökmə üsulu ilə yaradılırdı?**<br>a) Naum Qabo<br>b) Henri Mur<br>c) Alberto Cakometti | **Hansı rəssam şüşə üzərində iynə ilə təsviretmənin texnikasını icad etmişdir?**<br>a) Vasili Kandinski<br>b) Salvador Dali<br>c) Pol Kli |
| **Hansı rəssam əsərlərini müəmmalı rəmzlər, işarələrlə təsvir edirdi?**<br>a) Xuan Miro<br>b) Salvador Dali<br>c) Pablo Pikasso | **Hansı heykəltəraş heykəllərinin həcmini sadələşdirdi, fiqurları tamamilə incəltdi, seyrək konstruksiyalar tətbiq etdi?**<br>a) Naum Qabo<br>b) Alberto Cakometti<br>c) Henri Mur |
| **Əsasını konstruksiyanın təşkil etdiyi avanqard üslub:**<br>a) kubizm<br>b) konstruktivizm<br>c) kinetizm | **Sürrealizm üslubunun görkəmli nümayəndəsi:**<br>a) Pol Kli<br>b) Salvador Dali<br>c) Vasili Kandinski |
| **Yaradıcı tapşırıq:** A4 formatlı rəsm vərəqində müxtəlif materiallardan istifadə edərək sürrealist üslubda portret yaradın. Bu rəngli karandaşlar, flomasterlər, quaş, rəngli kağız, karton, parça, qəzet və jurnal kəsikləri ola bilər. | |

LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №3)

Adı________________Soyadı____________________Sinif_______________Tarix_________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| Yaradıcı tapşırıq meyarları | Süjetli rəsm | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Rəsmin kompozisiyası | | | | | | | | | | |
| | Orijinal ideya | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | ..... |
| Ümumi qiymət (cavablar + rəsm) | | | | | | | | | | | ..... |

**Azərbaycan memarlığında konstruktivizm üslubunda olan binaları layihələndirən memar:**
a) Mikayıl Useynov
b) Mircavad Mircavadov
c) Fazil Nəcəfov

**İnsanlar tərəfindən qəbul edilmiş qaydaların, dəyərlərin, ənənələrin və qanunların inkar edilməsi belə adlanır:**
a) sürrealizm
b) nonkonformizm
c) ekspressionizm

**Hansı Azərbaycan rəssamı “Ümid işığı” adlı əsərini Salvador Daliyə həsr etmişdir?**
a) Arif Hüseynov
b) Sakit Məmmədov
c) Mircavad  Mircavadov

**Şairə Natəvanın Bakı şəhərinin mərkəzi küçəsində ucalan heykəlinin müəllifi:**
a) Fazil Nəcəfov
b) Ömər Eldarov
c) Fərhad Xəlilov

**Ümumi mövzu və ya təsvir obyektlərini birləşdirən bədii əsərlərin məcmusu:**
a) məişət janrı
b) süjetli (tematik) tablo
c) mifoloji janr

**Hansı rəssam öz yaradıcılığında neft mövzusuna daha çox yer vermişdir?**
a) Tahir Salahov
b) Fərhad Xəlilov
c) Arif Hüseynov

**Hansı rəssam sərt üslubda işləmişdir?**
a) Arif Hüseynov
b) Fərhad Xəlilov
c) Tahir Salahov

**Biennale – bədii sərgi, festival və ya yaradıcılıq müsabiqəsidir:**
a) hər il keçirilən
b) hər iki ildən bir keçirilən
c) ildə iki dəfə keçirilən

**Fazil Nəcəfov son dövrlərdə yaratdığı məşhur əsəri:**
a) “X.B.Natəvan”
b) “Dramaturq Hüseyn Cavid”
c) “Zamanın oyunları”

**Bəstəkar Qara Qarayevin abidəsini yaradan heykəltəraş:**
a) Mikayıl Useynov
b) Ömər Eldarov
c) Fazil Nəcəfov

**Yaradıcı tapşırıq:** A4 formatlı rəsm vərəqində insanın gündəlik həyatına dair süjetli rəsm çəkin. Əvvəlcə mövzu seçin, sonra vərəqdə kompozisiyasını düzgün qurun. Rəsmi səliqəli rəngləyin.

LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №4)

Adı________________Soyadı____________________Sinif_______________Tarix__________

| **Suallar** | **1.** | **2.** | **3.** | **4.** | **5.** | **6.** | **7.** | **8.** | **9.** | **10.** | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cavab variantı** | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| **Yaradıcı tapşırıq meyarları** | Natürmort | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Natürmortun kompozisiyası | | | | | | | | | | |
| | Milli adət-ənənələrin əksi | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | ..... |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | ..... |

**Milli folklora, adət-ənənəyə bağlı qrafik rəssam:**
a) Arif Hüseynov
b) Fərhad Xəlilov
c) Mircavad Mircavadov

**Dəzgah qrafikası – yaradılan qrafik əsərlərdir:**
a) molbert üzərində
b) ağac üzərində
c) vərəqdə

**Hansı rəssam yaradıcılığında Abşeron mənzərələrinə üstünlük vermişdir?**
a) Mircavad Mircavadov
b) Arif Hüseynov
c) Fərhad Xəlilov

**"Küsmüş mələk" əsərinin müəllifi kimdir?**
a) Arif Hüseynov
b) Sakit Məmmədov
c) Mircavad Mircavadov

**Sakit Məmmədovun əsərlərində ən çox nəzərə çarpan nədir?**
a) mövzunun seçimi
b) fərqli kolorit
c) əsərin təsvir üslubu

**Sakit Məmmədovun yaradıcılığının ana xəttini hansı mövzular təşkil edir?**
a) qadın portretləri
b) mənzərələr
c) natürmortlar

**Teatr səhnəsinin bədii tərtibatı adlanır:**
a) səhnəqrafiya
b) fotoqrafiya
c) infoqrafika

**Səhnəqrafiyanın digər adı:**
a) dekorasiya
b) teatr-dekor
c) səhnə elementləri

**Müasir incəsənətin yaranmasına gətirib çıxaran yeni təsvir üsulu:**
a) rəngkarlıq
b) fotoqrafiya
c) qrafika

**Teatrda tamaşanı əks etdirən plakat və afişa aiddir:**
a) monumental rəngkarlığa
b) iriölçülü illüstrasiyaya
c) qrafik dizayna

**Yaradıcı tapşırıq:** A4 formatlı rəsm vərəqində milli adət-ənənələri əks etdirən natürmort çəkin. Natürmortun kompozisiyasının düzgünlüyünü və yerləşməsini, hansı fəslə aid olduğunu nəzərə alın. Natürmortu səliqəli rəngləyin.

LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №5)

Adı________________Soyadı____________________Sinif______________Tarix________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ….. |
| Yaradıcı tapşırıq meyarları | Emblem | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Emblemin kompozisiyası | | | | | | | | | | |
| | İfadə elementləri | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | ….. |
| Ümumi qiymət (cavablar + rəsm) | | | | | | | | | | | ….. |

**Teatr, kino və televiziyada hansı incəsənət növləri birləşmişdir?**
a) rəngkarlıq, musiqi, teatr
b) musiqi, kino, heykəltəraşlıq
c) dram, musiqi, təsviri sənət

**İnsanın hərəkət edən təsvirlərin yaradılmasından ibarət fəaliyyət sahəsi adlanır:**
a) kinematoqraf
b) teatr
c) televiziya

**Kompüterdə təsvir yaratmaq və onu redaktə etmək üçün proqram necə adlanır?**
a) qrafik redaktor
b) mətn redaktoru
c) səs redaktoru

**Filmin müəyyən planlar üzrə çəkilişi və onların ardıcıl birləşdirilməsi necə adlanır?**
a) kadr
b) montaj
c) lent

**Kinematoqraf neçənci əsrdə yaranmışdır?**
a) XVIII
b) XIX
c) XX

**Azərbaycanda kino sənəti neçənci əsrdə yaranmışdır?**
a) XX
b) XIX
c) XVIII

**Kağız üzərində və ya kompüterdə çəkilmiş şəkillərin hərəkətə gətirilməsi nəticəsində yaranan kino sənətinin növü:**
a) kinematoqrafiya
b) karikatura
c) animasiya

**Sözlərdən istifadə etmədən, bədii obrazın yaradılmasında insan bədəninin hərəkətləri sayəsində yaradılan səhnə incəsənəti:**
a) pantomim
b) animasiya
c) kinematoqraf

**Karikatura və şarj – təsviri sənətin janrlarıdır:**
a) satirik
b) faciəvi
c) fantastik

**Hekayəni təşkil edən qısa mətnli şəkil silsiləsi belə adlanır:**
a) karikatura
b) komiks
c) şarj

**Yaradıcı tapşırıq:** A4 formatlı rəsm vərəqində teatr, kino və televiziyaya aid orijinal emblem çəkin. Emblemdə göstərdiyiniz elementlərin nəyi ifadə etdiyini qeyd edin.

LAYİHƏ

Müəllim qiymətləndirmə vasitələrinin hazırlanmasında dərsliyin hər bölmə üzrə “Ümumiləşdirici tapşırıqlar” blokunda olan tapşırıq növlərindən də istifadə edə bilər.
















LAYİHƏ

**MƏNBƏLƏR**


1. "Ümumtəhsil məktəblərinin I–IX sinifləri üçün təsviri incəsənət fənni üzrə kurikulumlar". Bakı, 2012.
2. Y.Ş.Kərimov. "Təlim metodları". Bakı, 2007.
3. Z.Veysova. "Fəal/interaktiv təlim". Müəllimlər üçün vəsait, UNICEF, Bakı, 2007.
4. "Azərbaycan Milli Ensiklopediyası". Elmlər Akademiyası, Bakı, 2007.
5. C.Həsənzadə, E.Hacınski. "Ayna" Uşaq Ensiklopediyası. "İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti". Bakı, "Ayna Mətbu Evi", 1999.
6. R.Əfəndiyev. "Azərbaycan incəsənəti". "Şərq-Qərb", Bakı, 2007.
7. Useynov M., Bretanitski M., Salamzadə M. "Azərbaycan memarlığı tarixi". Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu.
8. C.Qiyasi. "Nizami dövrü memarlıq abidələri". "İşıq" nəşriyyatı, Bakı, 1991.
9. Rzayev N., Qeybullayev Q., Rzayev Ş. "Rusca-azərbaycanca memarlıq-inşaat lüğəti", "Elm", Bakı, 1998.
10. "Azərbaycan". Bakı, 1998, s. 416.
11. Müasir İncəsənət Muzeyi. Altay Sadıqzadə. Bakı, 2009.
12. K.Kərimov. "Azərbaycan miniatürləri" , "İşıq", Bakı, 1980.
13. "Azərbaycan dilinin izahlı lüğəti", 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
14. "Azərbaycan dilinin orfoqrafiya lüğəti". "Şərq-Qərb", Bakı, 2013.
15. "Изобразительное искусство Азербайджанской ССР". "Советский художник". Москва, 1978.
16. "Çocuklar için sanat". "Tudem", Alsancaq, İzmir, 2009.
17. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, "Советский художник".
18. Преттье М.К. и Капальдо А. "Творчество и выражение", том 2. Москва, "Советский художник", 1985.
19. "Детская энциклопедия" – том 12. Москва, издательство "Педагогика", 1977.
20. Лавров А.М. "Школа. Учитель. Искусство". "Просвещение", Москва, 1981.
21. "Энциклопедический словарь юного художника". "Педагогика", Москва, 1983.
22. Ящухин А.П. "Живопись". "Просвещение", Москва, 1985.
23. Кастерман Ж. "Живопись". "Рисуй и самовыражайся". Детское справочное бюро. Москва, издательство "АСТ", Астрель, 2002.
24. Воллар А. Сезанн. Пер. с франц. Л., 1934.
25. Перрюшо А. Сезанн. Пер. с франц. М., 1966.
26. Поль Сезанн. Переписка. Воспоминания современников. Пер. с франц. М., 1972.
27. Поль Сезанн. Л., 1975.
28. А.Перрюшо "Жизнь Сезанна"./ Пер. с фр. Послесловие К.Богемской. - М.: "Радуга", 1991. - 351 с.
29. Р. Мерфи. "Мир Сезанна". 1998.
30. Мурина Елена. Сезанн. — М.: Искусство — XXI век, 2014. — 296 с.


LAYİHƏ

31. "Энциклопедия импрессионизма и постимпрессионизма"/ Сост. Т.Г. Петровец. М.: ОЛМА-ПРЕСС, 2000. 320 с.: ил.
32. Golding J. Picasso, 1881–1973. Londres, 1973.
33. Мириманов В.Б. «L'art negre» и современный художественный процесс. – В кн. Взаимосвязи африканских литератур и литератур мира. М., 1975.
34. Daix P. Le cubisme de Picasso. Paris, 1979.
35. Пабло Пикассо. 1881–1973. К столетию со дня рождения. Каталог выставки из советских собраний. Л., 1982.
36. Мастера живописи. Пикассо. М., 1998.
37. С. Валериус, Прогрессивная скульптура XX века, М., 1973; Read H., H. Moore, v. 1–2, L., 1955–57. (Источник: «Популярная художественная энциклопедия». Под ред. Полевого В.М.; М.: Издательство "Советская энциклопедия», 1986.)
38. Мур Г. О скульптуре / Пер. с англ. и публ. Н. Дубовицкой // Советская скульптура'78. М., 1980. С. 255–268.
39. Генри Мур: Человеческое измерение. [Кат. выст.] Лондон: Британ. Совет, [1991].
40. Генри Мур: Человеческое измерение: кат. выст. Лондон, 1991. 160 с.
41. Кандинский В. О понимании искусства // Знамя. — 1999. — №2.
42. Кандинский В. Точка и линия на плоскости // СПб.: Азбука-классика, 2005.
43. Мигунов А., Периева Т. На рубеже искусства и науки. К творческой биографии В.В. Кандинского // Искусство. – 1989. №1.
44. В.Кандинский. Альбом репродукций. Издательсво ЗАО "ИНТЕР-ОВА-ПРЕСС» 2000 г., 32стр., формат 84*108/16.
45. Porter Aichele K. Paul Klee, poet/painter. Rochester: Camden House, 2006.
46. Шевалье Д. Пауль Клее. М.: Слово, 1991.
47. Парч С. Пауль Клее. М.: Арт-Родник; Taschen, 2004.
48. Антонен Арто. Живописец мысли. Анри Мишо. Приключения линий// Пространство другими словами: Французские поэты XX века об образе в искусстве. СПб: Изд-во Ивана Лимбаха, 2005.

LAYİHƏ

*BURAXILIŞ MƏLUMATLARI*

**Təsviri incəsənət – 9**
*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Təsviri incəsənət fənni üzrə dərsliyin metodik vəsaiti*


**Tərtibçi heyət:**

Müəllif: **Kəmalə Əhməd qızı Cəfərzadə**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Aqşin Məsimov**



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi: 7,2. Fiziki həcmi: 8,5 çap vərəqi. Formatı: 70×100 1/16.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı: 136.
Şriftin adı və ölçüsü: Times New Roman qarnituru 11 pt. Ofset kağızı.Ofset çapı.
Sifariş __ . Tiraj 7281. Pulsuz. Bakı – 2020.
**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 08.06.2020**

Nəşriyyat:
**"Bakınəşr"** (Bakı ş., H.Seyidbəyli küç., 30).

Çap məhsulunu istehsal edən:
**"Radius" MMC** (Bakı ş., Binəqədi şossesi, 53).


LAYİHƏ